**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin institusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

| | |
|---|---|
| Allahverdiyeva Nailə Rizvan qızı | Bakı Ali Neft Məktəbi, İnformasiya texnologiyaları kafedrasının müdiri, texnika elmləri namizədi, dosent |

**Üzvlər:**

| | |
|---|---|
| İsayev Orxan Rasim oğlu | Azərbaycan Tibb Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor, tibb üzrə fəlsəfə doktoru, dosent |
| Əfəndiyeva Fəxrəndə Namiq qızı | Xəzər Universiteti, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı, fizika üzrə fəlsəfə doktoru |
| Mustafayev Vüqar Sabir oğlu | Mingəçevir Dövlət Universiteti, Elm və innovasiyalar şöbəsinin müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent |
| Hüseynov İslam Əhməd oğlu | Azərbaycan Dövlət Gömrük Akademiyası, Tədris-metodiki işin təşkili şöbəsinin rəisi, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent |
| Piriyeva Lalə Zakir qızı | Azərbaycan Texniki Universiteti, İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent |
| Oğuz Kəmalə Şirin qızı | Bakı Ali Neft Məktəbi, İnformasiya texnologiyaları kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru |
| Hidayətli Güldənə Şahin qızı | Bakı Ali Neft Məktəbi, Keyfiyyət təminatı şöbəsinin rəisi |
| Məmmədov Tural Orucağa oğlu (işəgötürən) | “SOCAR Capital MMC”, İnsan resursları və ictimaiyyətlə əlaqələr departamentinin direktoru |
| Əliyev Təhmasib Məmməd oğlu (beynəlxalq ekspert ) | Orta Doğu Texniki Universiteti, Fənn-ədəbiyyat fakültəsi, Fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru |
| Hüseynzadə Sara Xəqani qızı (tələbə) | Azərbaycan Texniki Universiteti, Elektrik mühəndisliyi, magistrant |

**Giriş**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Publik Hüquqi Şəxsi |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 07 iyul 2017-ci il tarixli, 5 il müddətinə |
| Təhsil müəssisəsinin rəhbəri | Vazeh Əskərov |
| Fakültələrin sayı | 7 |
| Kafedraların sayı | 24 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 30 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 33; İxtisaslaşma: 64 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 35 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Bakalavriat: 14965<br>Magistratura: 2962<br>Doktorantura: 308, o cümlədən, elmlər doktorluğu proqramı üzrə: 29 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 583 + 37 (UFAZ) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 111 (əvəzçiliklə) və 122 (saathesabı ilə) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@asoiu.edu.az<br>+994124934557 |
| Müəssisənin hüquqi ünvanı | AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 20 |
| Müəssisənin faktiki ünvanı | AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 20 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

# 1. STRATEJİ İNKİŞAF

## 1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

ADNSU tərəfindən TKTA-ya təqdim olunan Özünütəhlil Hesabatında “ADNSU Elmi Şurasının 30 dekabr 2023-cu il tarixli iclasının 4 saylı protokolu ilə təsdiq edilmiş, “2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli İnkişaf Strategiyası” və “2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli İnkişaf Strategiyası üzrə Fəaliyyət Planı” ADNSU-nun Elmi Şurasının 31.03.2021-ci tarixli iclasının 7 saylı protokolu ilə əvvəlki rektor prof. M.Babanlı tərəfindən təsdiq edilmiş və ATM tərəfindən Komissiyaya təqdim edilmişdir. Bu strateji planın icrası məqsədi ilə Elmi Şuranın 28 dekabr 2022-ci il tarixində təsdiq olunmuş “Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 2023-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planı” universitetin qısamüddətli dövr üçün strateji inkişaf proqramı kimi qəbul edilmişdir.

ADNSU-nun Özünütəhlil Hesabatı və 2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli İnkişaf Strategiyası ADNSU-nun internet səhifəsində yerləşdirilmişdir və hər kəs üçün əlçatandır (https://asoiu.edu.az/file/26, https://asoiu.edu.az/file/8).

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ADNSU-nun əsas missiyası əmək bazarında rəqabət qabiliyyətli, səriştəli, öz peşəsini dərindən bilən, bazar iqtisadiyyatı şəraitində ixtisası üzrə dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə, peşə hazırlığı səviyyəsini daim artırmağa qadir olan yüksək ixtisaslı mütəxəssislər hazırlamaq, 4-cü Sənaye İnqilabının tələblərinə uyğunlaşdırılmış elmi istiqamətlərin milli iqtisadiyyatın inkişafına yönəldilməsi, dünya elm məkanına inteqrasiyanı təmin etməklə beynəlxalq elm, təhsil və istehsalat mərkəzləri ilə əlaqələrin qurulması və müştərək elmi-tədqiqatların aparılmasıdır.

Fəaliyyət Planında isə əsas prioritet kimi elmi-tədqiqat fəaliyyətinin, kadr potensialının gücləndirilməsi, təhsil proqramlarının beynəlmiləlləşməsi və beynəlxalq reytinqinin artırılması kimi hədəflər müəyyən olunmuşdur. Qeyd olunan strateji inkişaf planları ilə ADNSU-nun fəaliyyət planlarının bir-birilə əlaqələndirilməsi və həmçinin universitetdəki bütün fəaliyyətlərin ümumi strateji inkişaf planının icrasına yönəldilməsinə xidmət edən vahid bir mexanizmin hazırlanması tövsiyə olunur.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Tədrisin məzmununun əmək bazarının və sənaye müəssisələrinin tələblərinə müvafiq olaraq təkmilləşdirilməsi istiqamətində aşağıdakı işlər görülmüşdür:

- Bakalavriat təhsil səviyyəsində kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə “Ali Təhsil Müəssisələri tərəfindən müəyyən edilən fənlər” (ixtisasın (proqramın) peşə hazırlığının seçmə fənləri) – cəmi 60 kredit, sonuncu dəfə 2023-cü ilin 31 may tarixində universitet Elmi Şurası tərəfindən təsdiq edilmişdir (Protokol № 12). Nəticədə tələbələr tədris olunan “SƏTƏMM” və “Layihələrin idarə olunması” fənləri üzrə kreditləri qazanmaqla yanaşı, istədikləri halda şirkətlər tərəfindən təşkil olunan ödənişli imtahanlarda uğurlu nəticə göstərməklə müvafiq beynəlxalq sertifikatları əldə etmişlər.

İxtisas fənləri üzrə laboratoriya dərslərinin tədrisinin ölkənin qabaqcıl istehsalat müəssisələrində və AMEA-nın institutlarında yaradılmış baza kafedralarında təşkil edilməsi istiqamətində aşağıdaki işlər görülmüşdür:

- 30.12.2022-ci il tarixində "Sənaye təhlükəsizliyi və əmək mühafizəsi" və "Neft-kimya texnologiyası və sənaye ekologiyası" kafedralarının ARETN nəzdində Radiasiya Problemləri İnstitutunda birgə baza kafedrası yaradılmışdır. "Kimya mühəndisliyi", "Qida mühəndisliyi", "Geologiya və geofizika mühəndisliyi", "Neft-qaz mühəndisliyi", "Energetika mühəndisliyi" və s. ixtisaslar üzrə əsas ixtisas fənlərinin tədrisi real iş şəraitində müəssisələrdə təşkil olunmuşdur.

Yuxarı kurs tələbələrinə qabaqcıl istehsal müəssisələrində tədris ili boyu təcrübə keçmələrinə şərait yaradılmış və onların əməyinin müəssisələr hesabına qismən stimullaşdırılması istiqamətində aşağıdakı işlər görülmüşdür:

- Müxtəlif ixtisaslar üzrə təhsil alan bakalavrların dərsdən sonrakı vaxtlarda ixtisasları üzrə istehsalat müəssisələrində işləmələri təşviq edilmişdir. İl boyu təcrübə proqramları universitetlə müəssisə arasında bağlanmış müqaviləyə əsasən təşkil olunmuşdur, tətil müddətini əhatə edən yay aylarında isə tələbələr tam ştatlı işçi kimi fəaliyyət göstərirlər.

Məzunların işlə təmin olunması ilə bağlı mütəmadi statistikanın hazırlanması və təhlilinin aparılması, alınan nəticələrə müvafiq tədbirlərin görülməsi istiqamətində aşağıdaki işlər görülmüşdür:

- 20.05.2023-cü il tarixində XIV Məzun-Karyera Sərgisi təşkil olunmuşdur.

Universitetdə infrastrukturun inkişaf tempinin aşağı olması, internet birləşməsinin zəif olması, tədris və laboratoriya otaqlarının təmirə ehtiyacının olması, tələb olunan sayda auditoriyanın olmaması, tədris prosesində innovativ texnologiyaların məhdud tətbiq olunması, ADNSU-nun büdcəsindən elmi-tədqiqata ayrılan vəsaitdə 2020-ci ildən sonra dinamikasının azalması, özəl sektordan elmi tədqiqatlara yönələn sifarişlərin olmaması, həm ADNSU-da, həm də UFAZ-da məzunlarla sistemli formada əlaqələrin qurulmaması universitetin 2021/2030-cü illər üzrə strateji baxışında infrastrukturun təkmilləşdirilməsi, əmək bazarında rəqabətədavamlı yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, elmi-tədqiqat və innovasiya fəaliyyətinin gücləndirilməsi, universitet və iş dünyası əlaqələrinin genişləndirilməsinə uyğun gəlmir.

Əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinin daha optimal müəyyən edilməsi üçün müxtəlif ixtisaslar üzrə mütəxəssislərdən ibarət işçi qrupunun yaradılması, işəgötürənlər arasında sorğunun keçirilməsi və müvafiq sənədləşmələrin aparılması məqsədəuyğun hesab olunur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

Universitetin Strateji İnkişaf Proqramının prioritet istiqamətləri Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının tələbləri əsasında tərtib edilmiş, ADNSU-nun qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu təmin edilmişdir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

Əmək bazarında rəqabət qabiliyyətli, səriştəli, öz peşəsini dərindən bilən, bazar iqtisadiyyatı şəraitində ixtisası üzrə dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə, peşə hazırlığı səviyyəsini daim artırmağa qadir olan yüksək ixtisaslı mütəxəssislər hazırlamaq, Dördüncü Sənaye İnqilabının tələblərinə uyğunlaşdırılmış elmi istiqamətlərin milli iqtisadiyyatın inkişafına yönəldilməsi, dünya elm məkanına inteqrasiyanı təmin etməklə beynəlxalq elm, təhsil və istehsalat mərkəzləri ilə əlaqələrin qurulması və müştərək elmi-tədqiqatların aparılması məqsədilə strateji istiqamətlər üzrə hədəflər müəyyən edilmişdir.

1. ADNSU-ya dövlət təhsil sistemində daha yüksək statusun verilməsi və imicinin formalaşdırılması;
2. İdarəetmə sisteminin təkmilləşdirilməsi;
3. Elmi-pedaqoji kadr heyətinin müasirləşdirilməsi;
4. Tədrisin müasir dövrün tələblərinə uyğunlaşdırılması və beynəlmiləlləşdirilməsi;
5. Təhsilin stimullaşdırılması;
6. Elmi fəaliyyət;
7. Beynəlxalq əlaqələr;
8. Maliyyə imkanlarının genişləndirilməsi və diversifikasiyası;
9. Tərbiyə işləri.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Hər istiqamət üzrə qısa və ortamüddətli dövrü əhatə edən tədbirlər, onlara aid icra müddətləri, icraya cavabdeh olan struktur bölmələri və tədbirlərin gözlənilən nəticələri SİP-də yer almışdır. Eyni zamanda SİP-də öz əksini tapan tədbirlərin əksər hissəsi müvafiq struktur bölmələrin illik fəaliyyət planlarına daxil edilmişdir. Məsələn, 2 strateji istiqamət üzrə tədbirlər aşağıdakı kimi tərtib edilmişdir:

| SİP-in hazırlanması və icrası | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| No | Strateji inkişaf proqramında qeyd olunmuş əsas fəaliyyət istiqamətləri | Strateji inkişaf proqramı üzrə fəaliyyətin icrasında cəlb olunacaq maraqlı tərəflər | Əsas fəaliyyət istiqamətinə uyğun olaraq nəzərdə tutulan tədbir | Tədbirin icrasına məsul struktur bölmə (lər) | Fəaliyyət planı üzrə icra vəziyyəti | Tədbirin son icra müddəti | Tədbirin icrası üçün nəzərdə tutulan maliyyə vəsaiti | Tədbirin icrası üçün nəzərdə tutulan insan resursu | Tədbirin icrası üçün nəzərdə tutulan infrastruktur resursu | Nəticə indikatoru |
| 1 | ADNSU-ya dövlət təhsil sistemində daha yüksək statusun verilməsi və imicinin formalaşdırılması | | Universitetin ənənələrə hörmət əsasında "Azİİ" brendi ilə təbliğ edilməsi (2021); ADNSU-nun "milli tədqiqat universiteti" statusuna yüksəldilməsi; - "Times High Education" üzrə 7-10%-lik yerə yüksəlmə (2021-2025); ADNSU-nun nəzdində inniovativ istehsalat sahələrinin yaradılması (2021-2030) | Rektorluq, İƏMD | | 2021;2021-2025; 2021-2030 | | | | |
| 2 | İdarəetmə sisteminin təkmilləşdirilməsi | | Kağızsız sənəd dövriyyəsinə keçidin təmini; Universitetlərin ranqlaşdırılması üzrə qurumun yaradılması (2021); Himayədarlar Şurasının növbəti beşillik müddət üçün ADNSU rektorunun təqdimatı əsasında Təhsil Naziri tərəfindən formalaşdırılması; Himayədarlar Şurası tərəfindən audit institutunun formalaşdırılmas; Bəzi kafedra və şöbələrin dövrün tələblərinə uyğun yenidən təşkili; Əməkdaşların (o cümlədən ailələrin) verilənlər bazasının (BigData) yaradılması; Tələbələrin (və məzunların) verilənlər bazasının (BigData) yaradılması; Məzunların ünsiyyət platformasının yaradılması və daimi əsasda idarə edilməsi; ADNSU-nun müasir optimal strukturunun seçilməsi; (2022-2025) Himayədarlar Şurası tərəfindən ADNSU nun inkişafı ilə bağlı strateji qərarların verilməsi və rektorluq institutu üzərində nəzarət (2021-2030) | Rektorluq, Protokol Xidməti; ARTN, Elmi Şura | | 2021; 2022-2025; 2021-2030 | | | | |

(https://asoiu.edu.az/file/8, https://asoiu.edu.az/file/31)

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

Meyar üzrə qiymətləndirmə üçün Akkreditasiya Komissiyasına təqdim edilən aşağıdakı 4 sənəd əsas olaraq götürülmüşdür:

1. ADNSU-nun 2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası üzrə Fəaliyyət Planı;
2. ADNSU-nun 2023-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planı;
3. ATM-lərin 2022-ci il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planlarının icrasına dair hesabat;
4. ATM-lərin 2023-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planlarının icrasına dair hesabat.

SİP-də öz əksini tapan tədbirlər planında əksər fəaliyyətlər üzrə ölçüləbilən meyarlar və gözlənilən nəticələr qoyulmuşdur (https://asoiu.edu.az/file/3).

Nümunə olaraq, "Elmi-tədqiqat fəaliyyətinin artırılması" istiqaməti üzrə nəticə indikatorları aşağıdakı kimi göstərilmişdir:

| | | | |
|---|---|---|---|
| **2. Elmi-tədqiqat fəaliyyətinin artırılması** | 2.1. Qlobal, yüksək rəqabətli, ən vacib seçilmiş elmi istiqamətlərin 4.0 Sənaye İnqilabı tələblərinə uyğunlaşdırılması | Elmi tədqiqatların aşağıdakı istiqamətlərə yönəldilməsi:<br>- Rəqəmsallaşma;<br>- Bulud texnologiyaları;<br>- Kibertəhlükəsizlik;<br>- Layihə Menecmenti;<br>- Kouçluq. | - |
| | 2.2. Hər fakültənin elmi jurnalının nəşr olunmasının təşviq edilməsi | ADNSU-nun elmi jurnallarının il ərzində minimum 2, maksimum 6 nömrəsinin nəşr olunması | Aidiyyatı təşkilatlarla əməkdaşlıq |
| | 2.3. Mövcud elmi jurnalların reytinqli bazalara daxil edilməsi | Mövcud elmi jurnalların 3-nün Scopus, ZbMath və ya MathSciNet bazalarına daxil edilməsi | Scopus elm-metrik bazasına daxil edilməsinə dəstək |
| | 2.4. ADNSU-nun regional və qlobal əməkdaşlığının inkişaf etdirilməsinə xidmət edən beynəlxalq təşkilatlara üzvlüyünün təmin edilməsi | Ən azı aşağıdakı 3 beynəlxalq təşkilata üzvlüyün təmin edilməsi:<br>- Universitet rektorlarının Beynəlxalq Assosiasiyası;<br>- Türk Dövlətlərinin Enerji Universitetləri Assosiasiyasının yaradılması və üzvlük;<br>- Xəzəryanı Dövlət Universitetləri Assosiasiyası. | - |

Lakin kəmiyyət göstəricilərinin müəyyən edilməsini əsaslandıran sənəd mövcud deyil.

Əvvəlki illər ilə müqayisəli təhlili əks etdirən müvafiq sənəd “Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Publik Hüquqi Şəxsi institusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabat” Elmi Şuranın (29.03.2023-cü il) tarixli iclasının qərarı ilə (Protokol № 11) təsdiq edilmiş və veb-saytda yerləşdirilmişdir (https://asoiu.edu.az/file/14).

Sahə səfəri zamanı universitetdə SİP üzrə fəaliyyətə nəzarət edən və bu fəaliyyətin nəticələrini qiymətləndirən struktur bölmə müəyyən edilməmişdir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

ADNSU-nun 2021/2030-cü illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası üzrə fəaliyyət planında tədbirlər üçün icraçılar qeyd edilmişdir. Eynilə, SİP-də nəzərdə tutulan fəaliyyət və tədbirlərin icrasına ayrılan resurslarla bağlı məlumatı Özünütəhlil Hesabatı ilə birlikdə təqdim edilən “ATM-lərin 2023-cü il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planlarının icrasına dair hesabat forması” sənədində müvafiq bölmələr üzrə əks olunmuşdur. Bu sənəddə SİP-in əsas tutduğu 11 istiqamət üzrə maliyyə və resursların ayrılması barədə məlumat təqdim olunmamışdır, lakin “ADNSU-nun SİP-in hazırlanması və icrası” sənədində yuxarıda qeyd olunan bölmələrlə bağlı məlumat verilmişdir (https://asoiu.edu.az/file/1).

| SİP-in hazırlanması və icrası | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| No | Strateji inkişaf proqramında qeyd olunmuş əsas fəaliyyət istiqamətləri | Strateji inkişaf proqramı üzrə fəaliyyətin icrasında cəlb olunacaq maraqlı tərəflər | Əsas fəaliyyət istiqamətinə uyğun olaraq nəzərdə tutulan tədbir | Tədbirin icrasına məsul struktur bölmə (lər) | Fəaliyyət planı üzrə icra vəziyyəti | Tədbirin son icra müddəti | Tədbirin icrası üçün nəzərdə tutulan maliyyə vəsaiti | Tədbirin icrası üçün nəzərdə tutulan insan resursu | Tədbirin icrası üçün nəzərdə tutulan infrastruktur resursu | Nəticə indikatoru |
| 1 | ADNSU-ya dövlət təhsil sistemində daha yüksək statusun verilməsi və imicinin formalaşdırılması | | Universitetin ənənələrə hörmət əsasında “AzİI” brendi ilə təbliğ edilməsi (2021); ADNSU-nun “milli tədqiqat universiteti” statusuna yüksəldilməsi; - “Times High Education” üzrə 7-10%-lik yerə yüksəlmə (2021-2025); ADNSU-nun nəzdində inniovativ istehsalat sahələrinin yaradılması (2021-2030) | Rektorluq, İƏMD | | 2021;2021-2025; 2021-2030 | | | | |
| | | | Kağızsız sənəd dövriyyəsinə keçidin | | | | | | | |

## 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında və SİP sənədində maliyyə təminatına dair ətraflı məlumat öz əksini tapmamışdır. Akkreditasiya Komissiyasına təqdim edilən “Maliyyə Təminatı” sənədində SİP-in maliyyə təminatına dair müvafiq büdcə qeyd edilməmişdir, ancaq universitetin qarşısına qoyduğu bir sıra hədəflərə aid maliyyə məlumatları öz əksini tapmışdır.

**Cədvəl 1.1.9.1 ADNSU-nun maliyyə təminatı (manatla)**

| № | Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Büdcədən ayrılan vəsait | 13856978.78 | 15903107.50 | 21067418.00 | 28610363.00 | 31234472.50 | 37379289.00 | 51975004.00 |
| 2 | Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr, magistr, doktorantura) | 13856978.78 | 15903107.50 | 21067418.00 | 28610363.00 | 31234472.50 | 37379289.00 | 51975004.00 |
| 3 | Büdcədənkənar vəsaitlər | 6923881.86 | 7520895.83 | 7416564.97 | 5462060.35 | 9335116.30 | 9429043.47 | 8879662.37 |
| 6 | Qrant və layihələrdən əldə olunan gəlirlər | 0.00 | 0.00 | 6253.32 | 185962.50 | 68500.35 | 189372.82 | 1737029.75 |
| 7 | ATM daxilində elan edilmiş qrant və layihələr | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 8 | Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersialaşdırılması və s.) | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 9 | Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | 331076.00 | 385910.00 | 412192.00 | 460856.00 | 393041.00 | 257477.00 | 263088.00 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 10 | Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı | 1.59 | 1.55 | 1.36 | 1.28 | 0.87 | 0.43 | 0.36 |
| 11 | Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti | 2.27 | 3.22 | 2.48 | 4.56 | 0.83 | 1.71 | 4.03 |
| 12 | Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər | 5000.00 | 0.00 | 0.00 | 0.00 | 4785.00 | 0.00 | 0.00 |
| 13 | ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası | 0.00 | 0.00 | 0.00 | 30000.00 | 100000.00 | 4950.00 | 100000.00 |
| 14 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait | 2500.00 | 12487.14 | 18151.30 | 3506.00 | 34566.09 | 3130.80 | 22606.11 |
| 15 | Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsait | 12200.00 | 16610.00 | 18310.00 | 22001.25 | 27788.75 | 30680.00 | 14220.00 |
| 16 | Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait | 283200.00 | 283200.00 | 283200.00 | 283200.00 | 283200.00 | 48000.00 | 179436.00 |
| 17 | Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait | 0.00 | 0.00 | 98176.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| 18 | Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 0.00 | 0.00 | 0.00 | 20000.00 | 10000.00 | 149800.00 | 250000.00 |
| 19 | Ümumi gəlir | 20785860.64 | 23424003.33 | 28483982.97 | 34072423.35 | 40574373.80 | 46808332.47 | 60854666.37 |
| 20 | Ümumi xərclər | 19343345.28 | 23000139.89 | 28521136.60 | 31072927.26 | 32120196.83 | 38023777.35 | 46278788.33 |
| 21 | Müəssisənin ümumi büdcəsi | 20785860.64 | 24866518.69 | 30350361.77 | 35901648.52 | 45403095.06 | 60091230.70 | 73202953.81 |

**Cədvəl 1.1.9.2 UFAZ-ın maliyyə təminatı (manatla)**

| № | Təhsil müəssisəsinin maliyyə təminatı | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| 1 | Büdcədən ayrılan vəsait | 12,254,931.00 | 6,520,800.00 | 7,022,400.00 | 9,630,720.00 | 9,815,680.00 | 9,831,360.00 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2 | Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr, magistr, doktorantura) | 4,754,931.00 | 6,520,800.00 | 7,022,400.00 | 9,630,720.00 | 9,815,680.00 | 9,831,360.00 |
| 2.1 | Büdcədən ayrılan vəsait (ARTN-nın 19/12/2018-ci il tarixli F-815 N-li əmrinə əsasən) | 7,500,000.00 | | | | | |
| 3 | Büdcədənkənar vəsaitlər | 99,053.32 | 244,145.21 | 219,379.10 | 265,725.96 | 234,193.58 | 193,530.67 |
| 6 | Qrant və layihələrdən əldə olunan gəlirlər | - | - | 10,000.00 | - | 5,357.12 | 8,676.00 |
| 7 | ATM daxilində elan edilmiş qrant və layihələr | - | - | - | - | - | |
| 8 | Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersialaşdırılması və s.) | - | - | - | - | - | |
| 9 | Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | - | - | 171,677.50 | 390,655.00 | 390,655.00 | 269,072.50 |
| 10 | Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı | - | - | 1.2% | 2.3% | 1.9% | 1.3% |
| 11 | Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmalar ümumi daxilolmalara nisbəti | 0.0% | 0.0% | 0.1% | 0.0% | 0.1% | 0.1% |
| 12 | Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər | - | - | - | - | - | |
| 13 | ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası | - | - | - | 21,467.68 | - | |
| 14 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait | - | - | - | 21,467.68 | - | |
| 15 | Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsait | | | 9,360.00 | 16,320.00 | 17,220.00 | 17,220.00 |
| 16 | Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait | - | - | - | - | - | - |
| 17 | Kitabxana resurslarının yenilənməsi üçün (və ya | - | - | - | - | - | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait | | | | | | |
| 18 | Beynəlmilləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 3,013,239.73 | 9,498,910.59 | 7,243,523.63 | 7,012,330.21 | 9,533,045.81 | 8,866,497.33 |
| 19 | Ümumi gəlir | 12,353,984.32 | 6,764,945.21 | 7,251,779.10 | 9,896,445.96 | 10,055,230.70 | 10,033,566.67 |
| 20 | Ümumi xərclər | 3,013,239.73 | 9,498,910.59 | 7,243,523.63 | 7,012,330.21 | 9,533,045.81 | 8,866,497.33 |
| 21.a | Ilin əvvəlinə (01.01.xx-ci ilə) bank qalıqı | 615,319.93 | 9,956,064.52 | 7,222,099.14 | 7,230,354.61 | 10,114,470.36 | 10,636,655.25 |
| 21 | Müəssisənin ümumi büdcəsi (20+22.a) | 12,969,304.25 | 16,721,009.73 | 14,473,878.24 | 17,126,800.57 | 20,169,701.06 | 20,670,221.92 |

Buna görə də növbəti dövr üçün SİP hazırlanarkən maliyyə təminatına dair təfsilatlı məlumatların əvvəlcədən öz əksini tapması məqsədəuyğundur.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

Qeyd olunan məqamlar universitetin SİP-ində əhatəli şəkildə öz əksini tapmışdır. Universitetin missiyası, İnkişaf siyasəti, SİP-in icrasında istifadə olunan prinsiplər özlərində sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları ehtiva edir. SİP-də qeyd olunduğu kimi, son 6 il ərzində 22 yerli və 8 beynəlxalq olmaqla, ümumilikdə 30 patent alınmışdır. Eyni zamanda, bir sıra strateji məqsədlər də həmin məqamların təmin olunmasına töhfə verir, onlardan bəziləri aşağıda nümunə olaraq göstərilmişdir:

1.1 ADNSU-nun "milli tədqiqat universiteti" statusuna yüksəldilməsi;

3.6 Professor-müəllim heyətinin elmi dərəcələr və vəzifələr əldə etməsi prosesində bal sisteminin tətbiqi;

7.1 Qlobal, yüksək rəqabətli, ən vacib seçilmiş elmi istiqamətlərin IV Sənaye İnqilabı tələblərinə uyğunlaşdırılması;

7.2 Elm və elm-istehsalat mərkəzlərinin yaradılması;

7.3 Nəşr olunan elmi jurnalların İndex Kopernikus elmmetrik bazaya daxil olmasını təmin etmək;

7.4 Azerbaijan Journal of "High Performance Computing (HPC)" jurnalının Scopus elmmetrik bazasına daxil olmasını təmin etmək;

7.6 Elmi istiqamətlərin milli iqtisadiyyatın inkişafına yönəldilməsi, dünya elm məkanına inteqrasiyasını təmin etməklə beynəlxalq elm, təhsil və istehsalat mərkəzləri, onların

alim və mütəxəssislərinin iştirakı ilə müştərək elmi-tədqiqatların aparılması təcrübəsinin genişləndirilməsi;

7.8 Biznes sferasının iştirakı ilə ADNSU-nun elmi tədqiqatlarının nəticəsi olan hazır məhsul və texnologiyaların tətbiqinə nail olunması.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATM-in əvvəlki illərinin SİP-i (2016-2020-ci illər üçün) Elmi Şurasının 25.11.2015-ci il tarixli iclasının 4 saylı Protokolu ilə təsdiq edilmişdir. ATM-in 2023-cü il üçün prioritet istiqamətləri üzrə Fəaliyyət Planlarının icrasına dair hesabatda əsas fəaliyyətlər üzrə müsbət dinamika var, lakin müəyyən istiqamətlər üzrə işlər tamamlanmamışdır və ya icra olunmamışdır.

Müsbət dinamikası olan istiqamətlər kimi, nümunə olaraq, aşağıdakıları göstərmək olar:

- *"Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Akkreditasiya Komissiyasının akkreditasiya nəticələrinə əsasən ali təhsil müəssisəsinə verdiyi tövsiyələrdə qeyd olunmuşdur ki, əyani doktorantların sayının çox az olması (9 nəfər) narahatlıq doğurur. Bu istiqamətdə iş aparılmalıdır."* Hazırda ADNSU-nun doktorantura təhsil səviyyəsində 326 nəfər, o cümlədən elmlər doktorluğu proqramı üzrə 53 nəfər təhsil alır. Əyani doktorantların sayı 93 nəfərdir və onlardan 86 nəfəri təqaüd alır. Göründüyü kimi ötən illər ərzində əyani doktorantların sayı 9,6 dəfə artmışdır.
- *"Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Akkreditasiya Komissiyasının akkreditasiya nəticələrinə əsasən ali təhsil müəssisəsinə verdiyi tövsiyələrdə qeyd olunmuşdur ki, Universitetdə ingilis bölməsinə qəbul planlaşdırılır. Bu bölmələrə ingilis dilini bilən abituriyentlərin qəbulu mexanizmi işlənilməlidir."* 2023/2024-cü tədris ilinə bakalavriat səviyyəsi üzrə universitetə ingilis dilində 26 ixtisas üzrə qəbul aparılmışdır. Qəbul zamanı ingilis dilinə görə toplanan balın minimal həddinə məhdudiyyət qoyulmuşdur. 2022/2023-cü tədris ilində "Kompüter elmləri" ixtisasına ingilis dilində qəbul olmuş abituriyentlərin minimal balı 624,7, maksimal balı isə 679,5 olmuş, "Kompüter mühəndisliyi" ixtisasına – uyğun olaraq 613,4 və 676,5 bal, "İnformasiya texnologiyaları" ixtisasına – 634,9 və 673,3 bal, "İnformasiya təhlükəsizliyi" ixtisasına – 638,9 və 672,8 bal olmuşdur. "Neft-qaz mühəndisliyi" ixtisasına – 560,5 və 654,7 bal, "Kimya mühəndisliyi" ixtisasına – 543,2 və 644,0 bal olmuşdur.
- *"Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Akkreditasiya Komissiyasının akkreditasiya nəticələrinə əsasən ali təhsil müəssisəsinə verdiyi tövsiyələrdə qeyd olunmuşdur ki, Professor-müəllim heyətinin 50%-dən yuxarısının orta yaş həddi 61-dən yuxarıdır. Kadrların yetişdirilməsi sahəsində ciddi tədbirlər görülməlidir."* Hal-hazırda orta yaş həddi 61-dən yuxarı olan professor-müəllim heyətinin payı 40,2% təşkil edir.

Tamamlanmamış və ya icra olunmamış hədəflər kimi, "Xarici dillərin tədrisinin yaxşılaşdırılmasına xidmət edən beynəlxalq statuslu imtahan mərkəzinin qurulması", "Əcnəbi

tələbələrin sayının 20% artırılması", "e-AzİI Kitab Evi"nin genişləndirilməsi və zənginləşdirilməsi"ni göstərmək olar.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

SİP-də və "İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabatda"-da ADNSU-nun güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhdidlər nəzərə alınmışdır (https://asoiu.edu.az/file/14, https://asoiu.edu.az/file/1).

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında maraqlı tərəflər olaraq müxtəlif hədəf qruplarının (rektor, prorektorlar, struktur bölmələrinin rəhbərləri, tələbələr və əməkdaşlar) tövsiyələri əsasında SİP-in işlənib hazırlanması qeyd olunmuşdur.

SİP hazırlanarkən maraqlı tərəflərin iştirakı təmin edilmişdir. Əvvəlcə mövcud bazar və ADNSU-nun bazardakı rəqibləri təhlil edilmiş, daha sonra mövcud əmək bazarında işəgötürənlərin tələbləri öyrənilmiş və bu tələblərə cavab verən mütəxəssis hazırlığının təmin edilməsi üçün əsas strateji məqsədlər müəyyən edilmişdir. Universitetin inkişaf strategiyasına nail olmaq üçün bir çox müəssisələrlə əməkdaşlıq əlaqələri genişləndirilmiş, tələbələrin istehsalat və gündəlik təcrübələrinin, ixtisas fənlərinin tədrisinin həmin müəssisələrdə təşkil edilməsi istiqamətində mühüm işlər görülmüşdür. Əsas strateji istiqamətlər müəyyən edilərkən abituriyentlərin seçimi və təhsilalanların gözləntiləri təhlil edilmişdir.

2021 – 2030-cu illər üçün İnkişaf Strategiyasına uyğun hazırlanmış Fəaliyyət Planı Elmi Şuranın 31.03.2021-ci il tarixli iclasında (Protokol №7) təsdiq edilmişdir (https://asoiu.edu.az/file/8).

ADNSU-da maraqlı tərəflərin tətbiq edilən keyfiyyət mexanizmindən məlumatlı olması keyfiyyət təminatı sisteminin əsas məqsədlərindən biridir. Universitet rəhbərliyi və keyfiyyət təminatına məsul şəxslər bütün maraqlı tərəflərin (universitetin inzibati, akademik heyəti, təhsilalanlar, valideynlər və işəgötürənlər və s.) universitetin İnkişaf Strategiyasından, Keyfiyyət siyasətindən, Daxili Keyfiyyət mexanizmindən xəbərdar olmasında maraqlıdırlar və onlara aid sənədlər ATM-in veb-səhifəsində yerləşdirilmişdir.

- https://asoiu.edu.az/file/28 - Keyfiyyətin təminatı
- https://asoiu.edu.az/file/18 - Davamlı inkişafa dair fəaliyyət planı
- https://asoiu.edu.az/file/9 - Tələbələrin fərdi inkişaflarının yol xəritəsi
- https://asoiu.edu.az/file/2 - 2021-2030-cu illər üçün fəaliyyət planı
- https://asoiu.edu.az/file/1 - SİP-in hazırlanması və icrası
- https://asoiu.edu.az/file/7 - Keyfiyyət siyasəti

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

SİP-in icrası üzrə tədbirlər planında bütün tədbirlər üzrə icraçılar (struktur bölmələr) qeyd edilmişdir (https://asoiu.edu.az/file/2).

## 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

ADNSU-nun strateji inkişaf proqramının hazırlanması, təkmilləşdirilməsi və fəaliyyətlərin müəyyən edilməsi ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının vəzifələrində əks olunmuşdur. Strateji İnkişaf Proqramı üzrə fəaliyyət və tədbirlər planı Elmi Şurada təsdiq edilir. Akkredtasiya dövrünü əhatə edən ilk Strateji İnkişaf Proqramı (2016-2020-ci illər üzrə inkişaf strategiyası) Elmi Şuranın 25.11.2015-ci il tarixli iclasında (Protokol №4) təsdiq edilmişdir. COVID-19 pandemiyası müddətində bir sıra fəaliyyətlərin icrasında çətinliklər yaranmışdır. Daha sonra yeni 2021-2030 inkişaf strategiyası tərtib edilmişdir, müvafiq fəaliyyət planı Elmi Şuranın 28.12.2022-ci il tarixli iclasında təsdiq olunmuşdur.

SİP üzrə hazırlanan fəaliyyət planında müvafiq bölmələr və məsul nümayəndələr əks olunmuşdur. Müvafiq struktur bölmələr həmin strateji istiqamətləri öz fəaliyyət planlarına daxil etmişdirlər. ATM-ə təşkil edilən səfər müddətində əksər struktur bölmələrin fəaliyyət planlarının mövcud olduğu müəyyən edilmişdir. SİP üzrə görülən işlərin hesabatı struktur bölmələr tərəfindən ADNSU-nun Elmi Şurasında təqdim edilir. Elmi Şuranın iş planında struktur bölmələrin illik hesabatlarının təqdimatı nəzərdə tutulmuşdur.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

1.2.1 bəndində qeyd olunduğu kimi, ATM-in struktur bölmələri Strateji İnkişaf Planında nəzərdə tutulan fəaliyyətlər üzrə məlumatlar Elmi Şurada təqdim edilir. Bu təqdimatlar müddətində hesabatların müzakirələri aparılır, müvafiq iclas protokolları hazırlanır.

Hazırda ADNSU-da strateji inkişaf istiqamətində ayrı bir struktur fəaliyyət göstərmir. Strateji inkişaf üzrə bir sıra vəzifələr Daxili Keyfiyyət Komissiyasının əsasnaməsində əksini tapır. Ancaq Akkreditasiya Komissiyasına təqdim edilən komissiya tərkibi sənədində SİP üzrə məsul şəxslər təyin olunmamışdır. Elmi Şura iclaslarında təqdim edilən hesabatların struktur bölmələrinin bütün fəaliyyətlərini əhatə etdiyini nəzərə alaraq, strateji inkişaf proqramı üzrə görülən işlərin daha yüksək səviyyədə monitorinqi, indikatorların ölçülməsi, təhlili və qiymətləndirilməsi və ən əsası, SİP üzrə səmərəli kommunikasiyanı formalaşdırmaq üçün bu istiqamətdə ayrıca strukturun (struktur bölmə, komissiya, işçi qrupu) yaradılması tövsiyə edilir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in icrası üzrə illik monitorinqlər müvafiq prorektorlar tərəfindən aparılır. Fakültələrin fəaliyyət planlarının icrasının monitorinqi isə dekanlar tərəfindən aparılır. Monitorinq mexanizmi üzrə vahid təlimat mövcud deyil, eyni zamanda fəaliyyət planında əks olunan bir sıra tədbirlər üzrə ölçüləbilən indikatorlar mövcud deyil, həmin meyarlar nisbətən təsviri xarakter daşıyır. Bu səbəbdən SİP-in icrasına və təhlilinə cavabdeh müstəqil strukturun fəaliyyət göstərməsi monitorinq prosesini daha da təkmilləşdirə və hesabatlılığı təşviq edə bilər.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

Fakültə fəaliyyət planları üzrə görülən işlərin monitorinqi ilk olaraq fakültə elmi şuralarında müzakirə olunur. İlin sonunda isə SİP-in icrası üzrə aparılan monitorinq müvafiq nümayəndələrin (prorektorlar, struktur bölmə rəhbərləri, fakültə dekanları) illik hesabat təqdimatlarında öz əksini tapır. Elmi Şura protokollarında SİP-də yer alan məsələlərin müzakirəsi və hesabatı öz əksini tapır.

Bu prosesin daha mütəşəkkil formada aparılması üçün SİP-in icrasına və monitorinqinə cavabdeh olacaq ayrı strukturun və ya işçi qrupunun yaradılması tövsiyə edilir.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

SİP-in icrası üzrə Elmi Şurada təsdiq olunan fəaliyyət planları, monitorinq nəticələri və növbəti dövr üçün təsdiqlənən tədbirlər planı universitet heyətinə korporativ elektron poçt vasitəsilə göndərilir. Eyni zamanda "ADNSU-nun SİP-in hazırlanması və icrası" sənədi ATM-in rəsmi veb-saytında yerləşdirilmişdir (https://asoiu.edu.az/file/1), beləliklə maraqlı tərəflər üçün əlçatanlıq təmin edilmişdir. Həmin sənəddə qısa, orta və uzun müddətli inkişaf strategiyası üzrə aşağıdakı məlumatlar əks edilmişdir:

- Strateji inkişaf proqramında qeyd olunmuş əsas fəaliyyət istiqamətləri;
- Strateji inkişaf proqramı üzrə fəaliyyətin icrasında cəlb olunacaq maraqlı tərəflər;
- Əsas fəaliyyət istiqamətinə uyğun olaraq nəzərdə tutulan tədbir;
- Tədbirin icrasına məsul struktur bölmə(lər);
- Fəaliyyət planı üzrə icra vəziyyəti;
- Tədbirin son icra müddəti;
- Tədbirin icrası üçün nəzərdə tutulan maliyyə vəsaiti;
- Tədbirin icrası üçün nəzərdə tutulan insan resursu;
- Tədbirin icrası üçün nəzərdə tutulan infrastruktur resursu.

# 2. KEYFİYYƏT TƏMİNATI

## 2.1 Keyfiyyət təminatı siyasəti

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Keyfiyyət siyasəti” sənədi Universitetin Elmi Şurasının 28.12.2022-ci il tarixli iclasının qərarı ilə (protokol №6) təsdiqlənmişdir. Akkreditasiya üzvlərinə təqdim edilən sənədə əsasən “Keyfiyyət siyasəti” sənədi ADNSU-nun tədris işləri üzrə prorektoru tərəfindən universitet rəhbərliyinə təqdim edilmişdir.

ADNSU-nun “Keyfiyyət siyasəti” sənədində Bolonya təhsil prosesinin müddəalarına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a, dövlətin bu sahədə mövcud olan digər normativ hüquqi aktlarına və sənədlərinə istinad edilmişdir. Sənəd universitetin akademik və inzibati heyəti, həmçinin tələbələrinin təmsil olunduğu nümayəndələrdən ibarət olan Elmi Şurada təsdiqlənmişdir. Ancaq Keyfiyyət Siyasətinin hazırlanmasında bütün maraqlı tərəflərin iştirakını sübut edən sənədlər (iclas protokolları) təqdim olunmamışdır.

Eyni zamanda universitetin keyfiyyət təminatı siyasətinə dair prinsiplərini əks etdirən ANDSU-nun Elmi Şurasının 27.10.2021-ci il tarixli iclasında (protokol № 2) qəbul edilmiş “Daxili keyfiyyət təminatı barədə bəyannamə” sənədi mövcuddur.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

ADNSU-nun “Keyfiyyət siyasəti” sənədində aşağıdakı istiqamətlər öz əksini tapmışdır:

1. Kommunikasiya və idarəetmədə keyfiyyət;
2. Keyfiyyətli təhsil təminatı;
3. Resursların idarə edilməsi;
4. Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi;
5. Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması;
6. İzləniləcək keyfiyyət indikatorları;
7. İctimaiyyətin məlumatlandırlması;
8. Xarici keyfiyyət təminatı təşkilatına müraciət;
9. Sahələr üzrə fəaliyyətləri tənzimləyən siyasətlər.

Hər bir istiqamət üzrə ATM-in vəzifələri və nəzərdə tutulan fəaliyyətlər barədə məlumatlar anlaşılan və icrası mümkün olan formada tərtib olunmuşdur.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

ADNSU-nun “Keyfiyyət siyasəti” və “Daxili keyfiyyət təminatı barədə bəyannamə” sənədi Universitetin rəsmi veb-saytında (https://asoiu.edu.az/file/7, https://asoiu.edu.az/file/6) yerləşdirilmişdir və bütün maraqlı tərəflər üçün əlçatandır.

Akkreditasiya Komissiyasının Universitetə səfəri zamanı keçirilən müsahibələrdə ATM-in keyfiyyət təminatı sisteminə aid heyətin bu sənədlər barədə məlumatlı olduğu müşahidə edilmişdir. Ancaq siyasətdə qeyd edilən bir sıra istiqamətlər üzrə (əmək bazarının tələblərinin ölçülməsi, işəgötürənlərin rəyləri və gözləntiləri, akademik heyətin ehtiyaclarının öyrənilməsi) ölçmə və monitorinq mexanizmlərin tətbiqi üzrə rəsmi sənədləri əldə etmək mümkün olmamışdır. Keyfiyyət təminatı istiqamətində vahid prosedurların, monitorinq və hesabatlılıq mexanizminin təkmilləşdirilməsi tövsiyə olunur.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

ADNSU-nun keyfiyyət təminatı siyasətini ehtiva edən “Keyfiyyət siyasəti” və “Daxili keyfiyyət təminatı barədə bəyannamə” sənədlərində Universitetin fəaliyyətinə uyğun istiqamətlər əhatə olunmuşdur.

“Daxili keyfiyyət təminatı barədə bəyannamə” sənədində Daxili keyfiyyət siyasətilə bərabər aşağıdakı istiqamətlər üzrə fəaliyyətlər öz əksini tapmışdır:

- Tədris prosesinin və təhsil proqramlarının keyfiyyət təminatı;
- Təhsilalanların qiymətləndirilməsinin keyfiyyət təminatı;
- Müəllim heyətinin keyfiyyət təminatı;
- Təlim resursları və tələbələrə dəstək mexanizmləri;
- İnformasiya sistemləri;
- Məlumatların ictimaiyyətə çatdırılması.

Qeyd olunan istiqamətlər üzrə ətraflı məlumat “Keyfiyyət siyasəti” və “Daxili keyfiyyət təminatı barədə bəyannamə” sənədlərində öz əksini tam şəkildə tapsa da, sahə səfəri zamanı bu mexanizmlərin tam işlək vəziyyətdə olmaması aşkar edilmişdir. Keyfiyyət siyasətində öz əksini tapan müddəaların bütün heyətlə kommunikasiya olunması və hesabatlılıq mexanizminin qurulması tövsiyə olunur.

## 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

ADNSU-da keyfiyyət təminatı sistemi üzrə iki struktur fəaliyyət göstərir:

Elmi Şuranın 24.11.2021-ci il (protokol №3) tarixli iclasının qərarı ilə təsdiq edilən Daxili keyfiyyət komissiyası və 27.10.2021-ci il tarixində Elm və Təhsil Analitik Mərkəzinin tərkibində yaradılmış Daxili Keyfiyyət Təminatı sektoru.

Daxili keyfiyyət komissiyasının əsasnaməsi Elmi Şurada (24.11.2021-ci il tarixli iclas, protokol №3) təsdiq edilmişdir. Əsasnaməyə görə komissiya tərkibi rektorluq tərəfindən təklif edilən və Elmi Şurada təsdiqlənən üzvlərdən ibarətdir. Komissiyaya rektorluq, fakültə və əlaqəli inzibati departamentlərin rəhbərləri və ya nümayəndələri, tələbələri təmsil edən nümayəndələr daxildir. Akkreditasiya Komissiyasına təqdim edilən "ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının strukturu" sənədinə əsasən Komissiyaya rektor rəhbərlik edir. Komissiyanın fəaliyyətləri üzrə bölgü aşağıda qeyd olunmuşdur:

1. Keyfiyyətli təhsil təminatı- Tədris işləri üzrə prorektor;
2. Resursların idarə edilməsi- İnzibati təsərrüfat işləri üzrə prorektor;
3. Təhsil və tədqiqatlara dəstək olan bilik resursların idarə edilməsi- Elmi işlər üzrə prorektor;
4. Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması- Elm və təhsil analitik mərkəzi;
5. Kommunikasiya və idarəetmədə keyfiyyət- İctimaiyyətlə əlaqələr və marketinq departamenti;
6. Xarici keyfiyyət təminatı təşkilatına müraciət- Beynəlxalq əlaqələr üzrə prorektor.

Komissiyanın əsasnaməsində keyfiyyət təminatı ilə bərabər strateji inkişaf istiqaməti də öz əksini tapır. Komissiyanın vəzifələrinə strateji inkişaf planının hazırlanması və yenilənməsi, strateji planlama müddətinin təyin edilməsi, hədəflərin müəyyən edilməsi və qiymətləndirilməsi daxildir.

Komissiyanın 2023-cü il üzrə hesabatı ADNSU-nun rəsmi veb-saytında yerləşdirilmişdir (https://asoiu.edu.az/file/30). Universitetə təşkil edilən sahə səfəri müddətində keçirilən müsahibələrdə Daxili Keyfiyyət Komissiyasının üzvləri arasında kommunikasiyanın və birgə fəaliyyətin zəif olduğu müşahidə edilmişdir.

Daxili Keyfiyyət Komissiyasının illik fəaliyyət planının hazırlanması, ətraflı vəzifə və iş bölgüsünün tətbiq olunması, komissiya daxilində kommunikasiyanın gücləndirilməsi və hesabatlılıq mexanizminə bütün üzvlərin daxil edilməsi tövsiyə olunur.

Keyfiyyət təminatı istiqamətində mövcud olan ikinci struktur olan Elm və Təhsil Analitik Mərkəzinin (ETAM) tərkibində yaradılmış Daxili Keyfiyyət Təminatı sektoru 2021-ci ildə yaradılıb. Sektor ETAM-ın təkribindədir və ayrıca əsasnaməsi mövcud deyil. Akkreditasiya Komissiyasının ATM-ə səfəri müddətində sektorda bir əməkdaşın fəaliyyət göstərməsi müşahidə edilmişdir. Həmin əməkdaş yeni təyin olunduğu səbəbindən sektora aid fəaliyyət planı və hesabatları əldə etmək mümkün olmamışdır. Bu səbəbdən sektorun keyfiyyət təminatı istiqamətində fəaliyyətini tam şəkildə qiymətləndirmək mümkün olmamışdır.

Keyfiyyət təminatı strukturunun müstəqil şəkildə fəaliyyət göstərməsi və birbaşa rektora tabe olması tövsiyə edilir.

Ümumilikdə keyfiyyət təminatı sisteminin daha mütəşəkkil formada qurulması üçün KT struktur vahidi və komissiyasının vəzifələrinə yenidən baxılması, işlərin aydın şəkildə bölünməsi, müvafiq fəaliyyət planlarının və hesabatların hazırlanması məqsədəuyğundur.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

ANDSU-nun Daxili Keyfiyyət Komissiyasının əsasnaməsi Elmi Şuranın 24.11.2021-ci il tarixli iclasında (protokol №3) təsdiq edilmişdir. Əsasnaməyə görə Komissiyada rektorluq, fakültə və əlaqəli inzibati departamentlərin rəhbərləri və ya nümayəndələri, tələbələr təmsil olunur. Akkreditasiya Komissiyasına təqdim edilən “ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının strukturu” sənədinə əsasən komissiya universitet rəhbərliyi, akademik və inzibati heyət, eyni zamanda tələbələrdən ibarətdir. Komissiyada tələbələri təmsil edən nümayəndələr olaraq Tələbə Elmi Cəmiyyətinin sədri və Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri çıxış edirlər. Qeyd etmək lazımdır ki, hər iki nümayəndə hazırda tələbə statusunu daşımır.

Daxili Keyfiyyət Komissiyasına ATM heyətilə bərabər təhsilalanların və xarici maraqlı tərəflərin (işəgötürənlər, məzunlar, partnyor qurumlar) cəlb edilməsi tövsiyə edilir.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Sahə səfəri müddətində keçirilən görüşlərdə Daxili Keyfiyyət Komissiyasının il ərzində yerinə yetirməli olduğu işlərin ATM-in ümumi illik fəaliyyət planında əks olunduğu aydın olmuşdur. Komissiyanın ayrıca illik fəaliyyət planı tərtib edilməmişdir.

ADNSU-nun rəsmi veb-saytında yerləşdirilən “Daxili Keyfiyyət Komissiyasının 2023-cü il üçün hesabatı” və Akkreditasiya Komissiyasına təqdim edilən strateji plana əsasən hazırlanan “ADNSU-nun 2023-cü il üçün fəaliyyət planı” sənədlərilə tanış olan zaman Komissiyanın gördüyü işlərin strateji planda prioritet hesab edilən istiqamətlərlə uyğunluq təşkil etdiyi müşahidə edilmişdir.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

ADNSU-nun “Keyfiyyət siyasəti” sənədinə əsasən Planlaşdır-Tətbiq et-Yoxla-Tədbir gör (PTYT) mexanizmi keyfiyyət idarəetmə təcrübəsinin əsasını təşkil edir. Planlaşdırma pilləsi ATM-in illik fəaliyyət planında öz əksini tapır. Fəaliyyətlər üzrə məsul strukturlar müəyyən edilir, işlərin icrası yerinə yetirilir. İcra mexanizmlərinin bir qismində pərakəndəlik müşahidə edilmişdir. Strukturlar və heyət arasında kommunikasiyanın gücləndirilməsi, eyni zamanda müvafiq strukturlarda insan resursu çatışmazlığı probleminin həll edilməsi məqsədəuyğundur. Təsdiqlənmiş proses, prosedur və hesabatlar hazırlanmadığı üçün müəyyən işlər icra olunsa belə, həmin fəaliyyətlər üzrə dəstəkləyici sənədlər mövcud deyil.

PTYT mexanizminin yoxlama pilləsi sorğular, görüşlər, müşahidələr vasitəsilə həyata keçirilir. ADNSU-da tələbələr arasında LMS vasitəsilə semestr sonunda (yekun imtahan sessiyasından əvvəl) sorğu təşkil edilir. Sorğuda verilən suallar əksər məqamlara toxunaraq bir sıra istiqamətləri əhatə edir və analiz üçün faydalı hesab edilir. Sorğu LMS platformasına ETAM tərəfindən yerləşdirilir, nəticələr müvafiq rəhbərlik nümayəndələrinə və dekanlara

göndərilir. Sorğu nəticələri dekanlıqlarda təhlil olunur və fakültə, kafedra iclaslarında müzakirəsi nəzərdə tutulur. Ancaq Akkreditasiya Komissiyasının müəllimlər arasında keçirdiyi sorğuya əsasən, əksər müəllimlər ATM tərəfindən keçirilən sorğu nəticələri barədə məlumatsızdır. Nəticələrin təhlili prosesində, təhlilə əsaslanan yeni hədəflərin və fəaliyyət planlarının hazırlanmasında keyfiyyət təminatı strukturlarının daha yaxın iştirakı məqsədəuyğundur.




**Şəkil 2.2.4.1 Müəllimlər arasında AK tərəfindən keçirilmiş sorğunun nəticələri**

Eyni zamanda tələbələrə aid bir çox məsələlər akademik məsləhətçilər vasitəsilə kafedralara kommunikasiya edilir. Akkreditasiya Komissiyası tərəfindən tələbələr arasında keçirilən sorğuya əsasən əksər tələbələr akademik məsləhətçilərin fəaliyyətini faydalı olaraq qiymətləndirilmişdir.



**Şəkil 2.2.4.2 Tələbələr arasında AK tərəfindən keçirilmiş sorğunun nəticələri**

Anonim sorğuların keçirilməsi və təhlili keyfiyyətli təhsil istiqamətində hədəflərə çatmaqda böyük töhfə verəcəyini nəzərə alaraq PTYT mexanizminə ATM-in "Keyfiyyət siyasəti" və "Daxili keyfiyyət təminatı barədə bəyannamə" sənədlərində əks olunan digər maraqlı tərəflərin bu prosesə cəlb olunması tövsiyə edilir (müəllimlər, işəgötürənlər, məzunlar və s.).

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

ADNSU-nun daxili keyfiyyət təminatı sistemində əksər vəzifələr və səlahiyyətlər Daxili Keyfiyyət Komissiyasının əsasnaməsində əks olunub. Əsas istiqamətlər aşağıdakılardır:

- Daxili və xarici keyfiyyət təminatı işlərini Avropa Ali Təhsil Standartları və Təlimatları (ESG) çərçivəsində davam etdirmək;
- Akademik və inzibati orqanların keyfiyyət təminatı sisteminin fəaliyyətlərinə daxil olmalarını təşviq etmək;
- Daxili keyfiyyət təminatı sistemini yaratmaq və hər il zəruri işləri görmək;
- Daxili qiymətləndirmə hesabatlarını hazırlamaq və Elmi Şuraya təqdim etmək;
- Daxili və xarici maraqlı tərəflərin keyfiyyət təminatı prosesinə cəlb olunması;
- Fəaliyyət və daxili qiymətləndirmə hesabatı nəticələri ilə birgə keyfiyyətin yüksəldilməsi üçün strategiyaların, fəaliyyət planlarının və performans indikatorlarının nəzərdən keçirilməsi və təkmilləşdirilməsi;
- Xarici qiymətləndirmə (akkreditasiya) prosesi hazırlıqları etmək, xarici qiymətləndirmə təşkilatlarına dəstək vermək.

Komissiya üzvləri arasında iş bölgüsü 2.2.1-ci bənddə qeyd olunduğu şəkildə müəyyənləşdirilmişdir.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Keyfiyyət təminatı sistemi üzrə fəaliyyətlər ATM-in strateji planı çərçivəsində hazırlanmış illik Fəaliyyət Planında əks olunmuşdur. Təqdim edilən 2022-2023-cü illər üçün fəaliyyət planlarında təhsil keyfiyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlər öz əksini tapmışdır:

- Tədrisin məzmununun əmək bazarının və sənaye müəssisələrinin tələblərinə müvafiq olaraq təkmilləşdirilməsi;
- ADNSU-da yeni ixtisasların açılması;
- Orta ixtisas (subbakalavr) təhsilinin təşviqi;
- Qabaqcıl dünya universitetlərinin təcrübəsini nəzərə alaraq, tyutorların bilik və bacarıq səviyyələrinin yüksəldilməsi;

- İxtisasyönümlü xarici dərsliklərin tərcüməsi;
- Akademik heyət və istedadlı tələbələrin intensiv ingilis dili kurslarına cəlb edilməsi;
- Tələbələrə göstərilən xidmətlərin keyfiyyətinin artırılması;
- İxtisas fənləri üzrə laboratoriya dərslərinin tədrisinin ölkənin qabaqcıl istehsalat müəssisələrində və AMEA-nın institutlarında yaradılmış baza kafedralarında təşkil edilməsi;
- Aparıcı xarici universitetlərin dəvətli dosent və professorlarının ADNSU-da təhsilə cəlb edilməsi;
- Yuxarı kurs tələbələrinə qabaqcıl istehsal müəssisələrində tədris ili boyu təcrübə keçmələrinə şərait yaradılması və onların əməyinin müəssisələr hesabına qismən stimullaşdırılması;
- Beynəlxalq (mütəxəssislərin) agentliklərin cəlb olunması ilə ixtisas (proqram) akkreditasiyasına hazırlığın aparılması.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

ATM-in daxili keyfiyyət təminatı sisteminə aid təsdiqlənmiş sənədlərin bütün maraqlı tərəflərə əlçatan olması məqsədilə həm daxili LMS platformasında, həm də ATM-in rəsmi veb-saytında yerləşdirilmişdir. Saytın rəsmi sənədlər bölməsində (https://asoiu.edu.az/official_documents) aşağıdakı sənədlər yerləşdirilmişdir.

- Keyfiyyət Siyasəti;
- Daxili keyfiyyət təminatı barədə bəyannamə;
- ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının Əsasnaməsi;
- ADNSU-nun Keyfiyyət Təminatı əl kitabı.

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

ADNSU-nun daxili keyfiyyət təminatı sisteminə aid rəsmi sənədlər bir neçə istiqamət (siyasət, bəyannamə, əsasnamələr) üzrə təhlilini öhdəlik olaraq qəbul edir. Buraya təhsilalanlar, universitet heyəti, işəgötürənlər və digər maraqlı tərəflər arasında sorğuların keçirilməsi, onların gözləntilərinin müəyyən edilməsi aiddir.

Akkreditasiya Komissiyasının ATM-ə səfəri müddətində keçirilən təhlillər barədə məlumatlar toplanmışdır. Universitetdə tələbələr arasında LMS üzərində məmnuniyyət sorğuları keçirilir. Sorğunun sualları və nəticələri Komissiyaya təqdim edilmişdir. Sorğu nəticələrinin təhlili və qiymətləndirilməsi mərhələlərini əks etdirən təlimat hazırlanmamışdır.

Digər maraqlı tərəflər arasında sistematik sorğuların aparılması ilə bağlı müvafiq sənədlər Komissiyaya təqdim edilməmişdir. Əksər maraqlı tərəflərin keyfiyyət təminatı sistemi ilə kommunikasiyası ATM-in keçirdiyi görüşlər vasitəsilə qurulur.

İşəgötürənlərlə kommunikasiya tələbələrin təcrübə prosesini təmin edən İctimaiyyətlə əlaqələr və marketinq departamenti tərəfindən aparılır. Eyni zamanda təcrübə müddətinin sonunda işəgötürən şirkətlərin bir qismi ilə ümumi görüşlər keçirilir. Bu istiqamətdə olan təhlil və monitorinq prosesinin daha effektiv şəkildə aparılması üçün keçirilən görüşlərin protokollaşdırılması, işəgötürənlər arasında ölçüləbilən meyar və indikatorlardan ibarət sorğuların keçirilməsi və onların təkliflərinin alınması tövsiyə olunur.

KT sistemi üzrə hər bir istiqamətdə təhlil və qiymətləndirmə təlimatlarının hazırlanması, təlimatlarda məsul strukturların qeyd edilməsi və hesabatlılığın təmin edilməsi məqsədəuyğun hesab edilir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Daxili keyfiyyət təminatı üzrə il ərzində görülən fəaliyyətlər Daxili keyfiyyət komissiyası tərəfindən hazırlanır. Akkreditasiya Komissiyasına 2023-cü il üzrə hesabat təqdim edilmişdir. Daxili keyfiyyət komissiyasının vəzifələrinə əsasən hər ilin sonunda görülən işlərlə bağlı hesabat Elmi Şurada təqdim edilir və müzakirə olunur.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

ADNSU-da 2016/2017-ci tədris ilində keçirilmiş institusional akkreditasiyanın qiymətləndirmə nəticələrinin yekun hesabatında göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat hazırlanmış və Universitetin Elmi Şurasının 25.01.2023-cü il tarixli iclasının qərarı ilə (Protokol № 7) təsdiq edilmişdir. Təsdiq olunmuş hesabat Akkreditasiya Komissiyasına tədim olunmuşdur, eyni zamanda ATM tərəfindən hazırlanan Özünütəhlil Hesabatına daxil edilmişdir.

ATM-in Özünütəhlil Hesabatına əsasən əvvəlki akkreditasiya üzrə göstərilən tövsiyə və göstərişlər nəzərə alınaraq illik fəaliyyət planlarında öz əksini tapmışdır. Həmin fəaliyyətlər icra olunmuşdur və müvafiq hesabatlar ilin yekununda Elmi Şura iclaslarında təqdim edilmişdir.

2016/2017-ci tədris ilində keçirilmiş institusional akkreditasiya sonunda Komissiya tərəfindən ümumi istiqamətdə 14, elm sahəsində 8, təhsil sahəsində 12, tərbiyə işləri sahəsində 2, sosial məişət sahəsində 7 tövsiyə verilmişdir. ADNSU tərəfindən hazırlanan hesabatda Akkreditasiya Komissiyasının verdiyi bütün tövsiyələrin ümumi icrası və çatışmazlıqların aradan qaldırılması vəziyyəti əhatə olunmuşdur. Əksər tövsiyələr üzrə müvafiq addımlar atılmışdır. Yerinə yetirilməmiş bəndlərlə bağlı isə müvafiq səbəblər hesabatda öz əksini tapmışdır.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

ADNSU-da tələbələr arasında mütəmadi (semestrdə 1 dəfə) sorğular Elm və Təhsil Analitik Mərkəzi tərəfindən LMS üzərindən keçirilir, nəticələr Daxili keyfiyyət komissiyasına və dekanlıqlara göndərilir. Əlavə olaraq təhsilalanların rəyləri akademik məsləhətçilər vasitəsilə fakültə və kafedralara kommunikasiya edilir.

2.2.8 bəndində qeyd olunduğu kimi, digər daxili və xarici maraqlı tərəflərin rəyləri əsasən görüşlər müddətində toplanır, müvafiq tədbirlər görülür və iclaslarda müzakirə olunur.

Bütün maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin effektiv ölçülməsi məqsədilə yeni dövri sorğuların keçirilməsi tövsiyə olunur.

## 2.3 Keyfiyyət təminatı mədəniyyəti

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Akkreditasiya Komissiyasının ATM-ə səfəri zamanı ADNSU-nun Daxili keyfiyyət təminatı sektorunun heyəti bir əməkdaşdan ibarət olduğu məlum olmuşdur. Aparılan müsahibə zamanı sektor nümayəndəsinin daxili keyfiyyət sistemi barədə məlumatlı olduğu müəyyən edilmişdir. Lakin təhsilalanların və universitet heyətinin sayını nəzərə alaraq sektorda bir nəfərin səmərəli şəkildə keyfiyyət təminatı sistemini qurması və nəzarətdə saxlaması mümkün deyil.

Daxili Keyfiyyət Komissiyasının tərkibində ATM-in rektoru, prorektorları, inzibati struktur rəhbərləri, dekanlar və tələbələri təmsil edən nümayəndələr yer alır. ATM-ə səfər zamanı keçirilən müsahibələrin nəticəsində, bütün komissiya üzvlərinin keyfiyyət təminatı sistemi haqqında məlumatlılığı və bu prosesdə iştirak səviyyəsinin eyni olmadığı müəyyən edilmişdir. Komissiya üzvlərinin az hissəsi prosesə nəzarət mərhələsində iştirak edir, beləliklə idarəetmədə çətinliklər yaşanır. Bu səbəbdən sistemli işin qurulması, fəaliyyətlərin monitorinqi və qiymətləndirilməsi çətinləşir.

Keyfiyyət təminatı üzrə səmərəli kommunikasiyanın qurulması üçün struktur və komissiyanın tərkibi, vəzifə bölgüsü, müvafiq təlimatlar və hesabatlılığın təkmilləşdirilməsi məqsədəuyğundur.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

ADNSU-da keyfiyyət mədəniyyətinin inkişafında əhəmiyyətli olan KT sisteminin prinsipləri, prioritetləri və əsas vəzifələrini əks etdirən müxtəlif sənədlər mövcuddur. Buraya “Keyfiyyət Siyasəti”, “Daxili keyfiyyət təminatı barədə bəyannamə”, KT Komissiyasının əsasnaməsi aiddir. Həmin sənədlər həm ATM-in rəsmi veb-saytında, həm də daxili LMS platformasında yerləşdirilmişdir, beləliklə də tam əlçatanlıq təmin edilmişdir.

KT sistemi üzrə ayrılan insan resursu az olduğu, sistemdə vəzifə və səlahiyyət bölgüsünün bərabər paylanmaması, mövcud nümayəndələrə əsas qiymətləndirmə indikatorlarının təyin edilməməsi, ümumilikdə kommunikasiyaya mənfi təsir göstərir. Bu səbəbdən keyfiyyət təminatı mədəniyyətinin yüksəldilməsində çətinliklər yaşanmaqdadır. Bir sıra fəaliyyətlər üzrə tədbirlər görülsə də, onların əksəriyyəti pərakəndəlik təşkil edir.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının əsasını universitet rəhbərliyi təşkil edir. Əsasnaməyə görə Komissiyaya rektor sədrlik edir, rektor olmadığı hallarda isə səlahiyyət verilən prorektor. Keyfiyyət təminatı sistemi üzrə illik hesabat ATM-in Elmi Şurasında təqdim edilir.

ATM-də keyfiyyət mədəniyyətinin təşviqi məqsədilə akkreditasiya dövründə universitet heyəti üçün müxtəlif təlimlər keçirilmişdir. Buraya akkreditasiya prosesi ilə bağlı təlim, tyutorlar üçün keçirilən təlim və sertifikasiya, akademik heyət üçün xarici universitet nümayəndələri tərəfindən təşkil edilən seminarlar, həm də tələbələr üçün keçirilən müxtəlif təlim və seminarları aid etmək olar. Akkreditasiya Komissiyasına təqdim edilən məlumatlar ATM-in rəsmi saytında yerləşdirilən press relizlərdə öz əksini tapır. Aşağıda qeyd olunan keçidlərdə nümunələrin bir qismi yer alır:

- https://asoiu.edu.az/single_news/1459
- https://asoiu.edu.az/single_news/1865
- https://asoiu.edu.az/single_news/2298
- https://asoiu.edu.az/single_news/2157
- https://asoiu.edu.az/single_news/1965

ATM heyətinin və təhsilalan sayının yüksək olduğunu nəzərə alaraq, institusional dayanıqlılığın qurulması və saxlanması üçün keyfiyyət mədəniyyətinin inkişafı istiqamətində daha da təkmil və daim işlək olan mexanizmin qurulması böyük əhəmiyyət kəsb edir.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

Təhsil keyfiyyətinin artırılması istiqamətində görüləcək tədbirlər, hədəflər və meyarlar ATM-in prioritetləri üzrə hazırlanan illik fəaliyyət planlarında əks olunmuşdur. Sözügedən tədbirlərin icrasına ATM-in müxtəlif strukturları cəlb edilmişdir. Lakin 2.3.2-ci bəndə qeyd olunduğu kimi, keyfiyyət təminatı sistemində vəzifə və məsuliyyətlərin bərabər paylanmadığı müşahidə edilmişdir. Eyni zamanda KT sistemi üzrə əks əlaqə tələb olunan səviyyədə qurulmamışdır. Bu səbəbdən keyfiyyət təminatı istiqamətində ATM-in strukturları arasında koordinasiyanın təkmilləşdirilməsi tövsiyə olunur.

# 3. TƏLİM VƏ TƏDRİS

## 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

Keçirilən müsahibələr nəticəsində məlum olmuşdur ki, ADNSU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı universitetin təhsil və elm üzrə prioritetləri, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialı, məzunların işədüzəlmə imkanları, əvvəlki illərin faktiki qəbulu və s. nəzərə alınır.

Özünütəhlil Hesabatında tələbə qəbulu planının proqnoz layihəsi hazırlanarkən işəgötürənlərlə keçirilmiş müzakirələrin nəticəsinin də nəzərə alındığı qeyd olunsa da, həmin müzakirələrin iclas protokolları təqdim olunmamışdır.

Komissiyaya təqdim edilmiş sənədlər (Excel cədvəl 3) əsasında məlum olur ki, tədris illəri üzrə ADNSU-ya tələbə qəbulunun göstəriciləri aşağıdakı kimi olmuşdur.




**Şəkil 3.1.1.1 Tədris illəri üzrə ADNSU-ya tələbə qəbulu göstəriciləri**

Qrafikdən göründüyü kimi, bakalavriat səviyyəsi üzrə qəbul faizi ən az 2021/2022-ci tədris ilində (88.63%), ən yüksək isə 2022/2023-cü tədris ilində (98.10%) olmuşdur. Magistratura səviyyəsində isə qəbul faizi ən az 2022/2023-cü tədris ilində (80%), ən çox isə 2020/2022-ci tədris ilində (96%) olmuşdur.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ATM-də keçirilən müsahibələrdə əmək bazarının tələblərinin necə müəyyən edilməsi ilə bağlı suala konkret cavab verilməmişdir. Belə ki, cavab olaraq Dövlət Məşğulluq

Agentliyindən və məzun platformasından əldə olunan məlumatlar əsasında sifarişlərin müəyyənləşdirildiyi qeyd olunmuşdur.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı ilə bağlı müəyyən görüşlərin keçirilməsi qeyd olunsa da, həmin görüşlərin protokolları və digər bu kimi sənədlər təqdim edilməmişdir. Sifarişlərin formalaşmasında işəgötürənlər tərəfindən konkret bir təklifin və ya rəyin təqdim olunması ilə bağlı yazılı sənədə və ya hər hansı bir fakta rast gəlinməmişdir.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

ADNSU-nun müvafiq ixtisaslarına qəbul olmuş tələbələrin əvvəlki təhsili və qazanılmış kreditlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.05.2019-cu il tarixli 230 nömrəli qərarı ilə təsdiq olunmuş Qaydalara uyğun olaraq tanınır. Həm subbakalavrların qəbulunda, həm digər universitetlərdən köçürmə yolu ilə gələn tələbələrin qəbulunda, eyni zamanda mübadilədən qayıdan təhsilalanların kreditlərinin tanınması ilə bağlı komissiyalar təşkil olunaraq müvafiq qaydada kreditlər tanınmışdır. Bununla bağlı Komissiyaların iclas protokolları mövcuddur.

## 3.2 Təhsil proqramları

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ADNSU-da ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavr, magistratura və doktorantura) üzrə kadr hazırlığı aparılır. Belə ki, ATM-də bakalavriat səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2019-cu il tarixli, 45 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı” üzrə müvafiq fakültələrdə 30 ixtisas, magistratura səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı” üzrə müvafiq fakültələrdə 33 ixtisas (64 ixtisaslaşma), doktorantura səviyyəsində isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.03.2012-ci il tarixli, 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı”na uyğun olaraq 35 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

İxtisaslar üzrə təhsil proqramları (standartlar) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq qaydada yaradılmış komissiyalar tərəfindən hazırlanmış və Nazirlik tərəfindən təsdiq edilmişdir.

Komissiya tərəfindən keçirilmiş sorğuda tələbələrin sadəcə 44%-i məzun olduqda əmək bazarının tələblərini tam qarşılaya biləcəklərini qeyd etmişlər. Tələbələrin 41%-i müvafiq tələbləri qismən qarşılaya biləcəklərini düşünürlər.




**Şəkil 3.2.2.1 Əmək bazarının tələblərinin qarşılanması ilə bağlı sorğu**

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

ADNSU-da kadr hazırlığı həyata keçirilən ixtisaslar müvafiq peşə və kvalifikasiya standartlarına uyğundur. Belə ki, ixtisasların tədris planları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmrləri ilə təsdiq edilmiş ali təhsilin dövlət standartlarının – təhsil proqramlarının əsas tələbləri nəzərə alınaraq hazırlanmışdır. Akkreditasiya Komissiyası tərəfindən keçirilən müsahibələr zamanı beynəlxalq təcrübəsi olan professor-müəllim heyətinin seçmə fənlərin müəyyən edilməsində iştirakının təmin edilməsi və onların təkliflərinin nəzərə alındığı bildirilmişdir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğundur. Universitetdə təhsil səviyyələri üzrə təhsilalanlar tərəfindən müvafiq bilik və bacarıqların əldə olunması təmin edilir və yekunda təhsilalanlara kadr hazırlığı həyata keçirilən müvafiq təhsil səviyyələri üzrə təhsil haqqında rəsmi sənədlər - diplomlar verilir. Müsahibələr zamanı universitetdə əcnəbi tələbələr üçün Azərbaycan dili, yerli tələbələr üçün isə ingilis dili kursları təşkil edildiyi bildirilmişdir. Tələbələrin IELTS sertifikatı almaları təşviq olunur.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqramları ayrı-ayrı ixtisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluq təşkil edir. ADNSU-nun Elmi Şurasının qərarı ilə ixtisasların seçmə fənn bloklarına müasir dövrün tələbləri nəzərə alınaraq yeni fənlər əlavə olunur. Yeni fənlərin tədris planlarına əlavə edilməsi ilə bağlı müvafiq rəsmi sənədlər mövcuddur. Məsələn, texniki və texniki yönümlü bütün ixtisasların tədris planlarına "SƏTƏMM" (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) fənninin daxil edilməsi müsbət hal kimi qiymətləndirilə bilər.

Müsahibələr zamanı mütəmadi olaraq hər tədris ilinin sonunda kafedralar tərəfindən təlim nəticələrinin əldə olunma səviyyəsi araşdırılaraq, eləcə də tələbələrin təcrübə keçdikləri qurumların rəyləri əsasında müəyyən fənlərin məzmununda dəyişikliklər edildiyi, təcrübəyönümlü yeni fənlərin tədris planlarına daxil edildiyi bildirilmişdir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

İxtisaslar üzrə tədris proqramlarında Avropa Kredit Transferi və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə riayət olunur. Bakalavriat səviyyəsi üzrə ümumi dərs yükü 240 kredit, magistratura səviyyəsi üzrə 120 kreditdir. 1 kredit=30 saat prinsipi tətbiq edilir. Təhsilalanların həftəlik auditoriya və auditoriyadankənar saatlar nəzərə alınmaqla maksimal tədris yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatları həmin yükün 50 faizindən çox deyildir (22 saat). Dərs saatlarının bölgüsü müvafiq prinsiplərə uyğundur.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Tədris olunan fənlər təhsil proqramının tələblərinə uyğundur. Belə ki, təhsil proqramlarında olan məcburi fənlərin hamısı müvafiq ixtisasların tədris planlarına daxil edilmişdir. Ali təhsil müəssisəsinin müəyyən etdiyi 60 kreditlik seçmə fənn bloklarına günün və müvafiq təhsil proqramının tələblərinə görə yeni fənlərin əlavə edilməsi həyata keçirilir. Yeni fənlərin əlavə edilməsi ilə bağlı mavafiq qaydada rəsmiləşdirmə (Elmi Şura qərarı) aparılmışdır.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

ADNSU-da kadr hazırlığı aparılan ixtisasların tədris planlarında həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu təmin edilmişdir. Tələbənin həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 saatdır. Bakalavriat səviyyəsi üzrə ixtisasların tədris planlarında həftəlik auditoriya saatlarının həcmi 22 saat, magistratura səviyyəsində isə 15-16 saat olaraq müəyyən edilmişdir. ATM-də tədris prosesində aktiv və passiv sillabuslardan istifadə olunur. Passiv sillabuslar auditoriyadan kənar saatların tənzimlənməsinə xidmət edir. Bəzi ixtisaslarda auditoriyadan kənar fəaliyyət

kimi tələbələrin dərsdən sonra könüllü şəkildə müxtəlif qurumlara təcrübəyə göndərilməsi nümunə göstərilə bilər.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

ATM-in rəsmi internet səhifəsində ixtisaslar üzrə tədris planları yerləşdirilsə də, ayrı-ayrı ixtisasların təlim nəticələri qeyd olunmayıb. ATM-də fənn sillabuslarında da fənnin təlim nəticələri öz əksini tapmayıb. Bu baxımdan da müvafiq təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələri ictimaiyyət üçün əlçatan deyil. Təlim nəticələrinin əlaçatanlığının müvafiq qaydada təmin edilməsi tövsiyə olunur.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, ixtisasların tədris proqramlarının hazırlanması və rəsmiləşdirilməsində ADNSU ilə əməkdaşlıq edən müəssisələrin aparıcı mütəxəssisləri yaxından iştirak etmişdir. Buna baxmayaraq, işəgötürənlərin nümayəndələrinin bu prosesə cəlb olunması və bu istiqamətdə onlarla görüşlərin keçirilməsi ilə bağlı sənədlər təqdim olunmamışdır.

## 3.3 Tədrisin təşkili

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ADNSU-da tədris planları kredit sisteminin tələbləri gözlənilməklə tərtib edilmişdir. Bakalavr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 240 kredit və magistr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 120 kredit semestrlər üzrə hər semestrdə 30 kredit olmaqla (qiyabi təhsilalma formasında 24 kredit) bölünmüşdür. Bakalavriat səviyyəsində ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə 120 kredit, universitet tərəfindən müəyyən edilən seçmə fənlərə 60 kredit və təcrübəyə 30 kredit ayrılmışdır. Bəzi ixtisaslarda buraxılış işi nəzərdə tutulduğu üçün son 30 kreditin 21 krediti təcrübəyə, 9 krediti isə yekun dövlət attestasiyasına ayrılmışdır.

Bəzi ixtisasların tədris planlarında 6, 7 və 8 kreditlik ayrı-ayrı fənlərin auditoriya saatları eyni – 75 saat olaraq təyin edilmişdir. Müsahibələr zamanı bu bölgünün hansı mexanizmlə aparıldığı sualına cavab alınmamışdır.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında ixtisasların tədris planlarında göstərilmiş fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafiklərinin (Forma 2) mövcudluğu haqqında qeyd olsa da, baxış keçirilən fakültələrdə tədris qrafiklərinin olmaması müəyyənləşdirilmişdir.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

İxtisasların tədris planlarındakı məcburi və seçmə fənlərin bölgüsü Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqramlarına uyğundur. Belə ki, tədris planlarında 30 saat ümumi fənlərə, 120 saat ixtisas (məcburi) fənlərinə, 60 saat isə seçmə fənlərə ayrılmışdır.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planlarında ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır. Belə ki, ixtisaslar üzrə hazırlanmış tədris planlarında ümumi fənlər bloku üçün 30 kredit (o cümlədən 6 kredit seçmə fənlər üçün) və ixtisas fənləri bloku üçün 180 kredit (o cümlədən 60 kredit seçmə fənlər üçün) ayrılmışdır. Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Universitetdə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizminin monitorinqinin aparılması ilə bağlı hər hansı bir fəaliyyətin olması müəyyən edilməmişdir. Özünütəhlil Hesabatında da müvafiq indikator üzrə bu haqda qeyd yoxdur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Baxış keçirilən kafedralar tərəfindən təqdim olunan, eləcə də ATM tərəfindən Komissiyaya göndərilən sillabusların əksəriyyətində fənnin qısa xülasəsi və məqsədi qeyd olunsa da, fənnin təlim nəticələri qeyd olunmamışdır. Sillabusların hər bir fənnin konkret təlim nəticələri qeyd olunmaqla müasir formada yenidən hazırlanması tövsiyə olunur.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Tədris planlarında hər semestr üzrə akademik qruplarda 5-6 fənnin tədris edilməsi nəzərdə tutulmuşdur. ATM-də bakalavriat səviyyəsində həftəlik dərs yükü əsasən 22 saatdır. Bu da həftəlik ümumi yükün (45 saat) təxminən yarısıdır. Bu həcm ümumi tələblərə cavab verir.

Buna baxmayaraq, təhsilalanalar arasında Komissiyanın keçirdiyi sorğuda tələbələrin 35%-i həftəlik dərs yükünün dərsdənkənar məşğələlərə imkan vermədiyini qeyd etmişlər.




**Şəkil 3.3.7.1 Həftəlik dərs yükü və dərsdənkənar məşğələlərlə bağlı sorğu**

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Tələbələrin tədris ili ərzində tədris olunacaq fənləri, onların kreditlərini, tədris aparacaq müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları (Forma 4) mövcuddur. Baxış zamanı bir neçə fərdi tədris planında tələbənin adının, bəzilərində isə cari tədris ilinin ikinci semestrində tədris aparan müəllimlərin adının olmadığı aşkar edilmişdir. İkinci semestrdə müəllim adlarının olmamasını müəllimlərin gec təyin edilməsi ilə əsaslandırılmışdır. Halbuki fərdi tədris planları tədris ilinin əvvəlində hazırlanır. Buna baxmayaraq, ümumilikdə, universitetdə tələblərin fərdi tədris planlarının tərtib olunması müvafiq qaydalara uyğundur.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

İxtisasın (ixtisaslaşmanın) illik işçi tədris planları (Forma 3) mövcuddur və müvafiq ixtisasın tədris planlarının (Forma 1) əsasında hazırlanmışdır. İllik işçi tədris planları kredit sisteminin tələblərinə uyğundur.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Baxış keçirilən kafedralarda müəllimlərin illik işçi tədris planları (Forma 5) mövcud idi və müvafiq tələblərə uyğun hazırlanmışdır. Müəllimlərin illik işçi tədris planlarında tədris edilən fənn adları, fənlərə ayrılmış saatların miqdarı, tələbə sayı və s. ilə bağlı məlumatlar öz əksini tapmışdır.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Auditoriya saatları mühazirələr, seminar, praktik məşğələlər, laboratoriya dərsləri kimi tədris olunur. Kafedralar tərəfindən keçilən dərslərin keyfiyyətinin yoxlanılması məqsədilə açıq dərslər təşkil olunur.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Sahə səfəri zamanı kafedralarla müsahibələrdə bildiririlmişdir ki, müəllimlərin dərs yüklərində nəzərə alınmaqla, tədris etdikləri fənlərin tələbələr tərəfindən dərindən mənimsənilməsi üçün məsləhət saatlarının təşkili təmin edilmişdir. Həmçinin universitet üzrə müvafiq fakültələrdə tələbələrə akademik məsləhət dəstəyi vermək üçün tyutorlar fəaliyyət göstərir. Onlar tədris prossesində tələbələrə kredit sistemi ilə tədrisin təşkili, imathan qaydaları, biliyin qiymətləndirilməsi, LMS (Learning Management System) və onların bu platformada şəxsi hesablarından istifadə qaydalarının mənimsənilməsi, təhsil illəri üzrə fərdi təhsil planlarının hazırlanması istiqamətində akademik dəstək göstərirlər. Sahə səfəri zamanı Akkreditasiya Komissiyasının müxtəlif ixtisaslarda təhsil alan 322 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "akademik məsləhətçilərin fəaliyyətini necə qiymətləndirirsiniz" sorğusuna aid nəticələr Şəkil 3.3.12.1-də təsvir edilmişdir.




**Şəkil 3.3.12.1 Akademik məsləhətçilərin fəaliyyəti ilə bağlı sorğu**

Diaqramdan da göründüyü kimi universitet üzrə akademik məsləhətçilərin fəaliyyəti səmərəli şəkildə təşkil edilmişdir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ADNSU-da fənn müəllimlərinin rəhbərlikləri altında tələbələr sərbəst iş mövzularını təqdimat etdikdən sonra qiymətləndirilmə aparılır. Sahə səfəri zamanı müəllimlərə müsahibələrdə təqdimat mövzuları fənnin proqramına daxil olan passiv sillabusda öz əksini tapmaqla elektron sistemdə yerləşdirildiyi və həmin mövzuların final imtahanı zamanı imtahan biletinə də daxil edildiyi bildirilmişdir. LMS-də həmçinin tələbələrin təqdimatların hazırlanması və yerinə yetirilməsi üçün lazım olan metodiki mənbələr və materiallar da əlavə edilir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ADNSU-da təcrübələrin təşkili “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” Əsasnaməyə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 221 nömrəli, 19.09.2008-ci il tarixli qərarı) uyğun həyata keçirilir. Təcrübələr 14 həftə (21 kredit) olmaqla ixtisaslar üzrə müvafiq istehsalat müəssisələrində təşkil edilir. Tələbələrin təcrübə (texnoloji təcrübə, istehsalat təcrübəsi və buraxılış qabağı təcrübə) keçmələri üçün universitetlə müəssisələr arasında müqavilə bağlanır və universitetin əmri ilə rəsmiləşdirilir. ATM-də 2017-ci ildən başlayaraq ilboyu təcrübə layihəsi həyata keçirilir. Bakalavr səviyyəsində təhsil alan 2-ci, 3-cü kurs tələbələri dərsdən sonra tədris ili ərzində həftədə 2-3 dəfə olmaqla 2.5-3 saatlıq təcrübə keçmələri üçün bir sıra təşkilat və müəssisələrlə müqavilə bağlanmışdır. Sahə səfəri zamanı müsahibələrdə 200-dən çox müəssisə ilə müqavilə imzalandığı bildirilmişdir. Həmçinin universitetin balansında olan Daşkəsən rayonunun Kobalt kəndində “Daşkəsən Təcrübə Mərkəzi”ində istehsalat təcrübələrinin təşkilinin dayandırıldığı qeyd edilmişdir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında akademik və inzibati heyətin stajkeçməsi haqqında məlumat öz əksini tapmamışdır. Lakin sahə səfəri zamanı müsahibələrdə qeyd edilmişdir ki, akademik heyət üçün İT, ingilis dili kursları təşkil edilir, kafedralarda olan müəllimlərin müxtəlif yerli təlim və treninqlərdə iştirakı dəstəklənir. Hesabat dövrü ərzində universitet əməkdaşlarının peşəkar inkişafa yönəlik iştirak etdiyi beynəlxalq layihələr, beynəlxalq konfrans, seminar və görüşlərin sayı qənaətbəxş olmadığı müəyyənləşdirilmişdir. Belə ki, 2018-2023-cü illər ərzində akademik heyətin 2%-i, inzibatı heyətin 3%-i beynəlxalq peşəkar inkişaf proqramlarında iştirak etmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ADNSU-da kurs layihələrinin, referatların hazırlanması və müdafiəsi işinin təşkili birbaşa müvafiq kafedraların nəzarəti altında həyata keçirilir. Müəllimlər tərəfindən mövzular və tapşırıqlar müəyyən edilərək bu istiqamətdə tələbələrlə iş aparılır. Yekunda fənn müəllimlərinin rəyi əsasında kafedralarda tələbələrin mövzularının müdafiləəri təşkil olunaraq qiymətləndirmə aparılır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

Universitetdə "Buraxılış işlərinin" (Dövlət imtahanının) və "Magistrlik dissertasiyalarının" hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli, 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin tələbləri çərçivəsində həyata keçirilir. Bu istiqamətdə fakültə dekanlarının koordinasiyası ilə kafedra müdirləri tərəfindən buraxılış işlərinin mövzuları II kursda may ayından gec olmayaraq tələbələrə elan edilir və əmrləşdirilməsi həyata keçirilir. Hər bir tələbəyə buraxılış işinin tapşırığı ilə birlikdə buraxılış işinin rəhbəri və tələbənin imzaladıqları, eləcə də ixtisas kafedra müdirinin təsdiq etdiyi "buraxılış işinin tapşırığı" sənədləşdirilir. I kursa qəbul olunmuş magistrantlar üçün magistrlik dissertasiyalarının mövzularının, rəhbərlərinin əmrləşdirilməsi hər yeni tədris ilinin əvvəlində yekunlaşdırılır. Buraxılış işi və magistr dissertasiya işlərinin müdafiəsi müvafiq kafedralarda normativ tələblər gözləniməklə təlimatlara uyğun şəkildə təşkil edilir.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

ADNSU-da imtahan sessiyası "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında" Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1059 və 1060 saylı əmrləri və ADNSU rektorunun 06.12.2017-ci il tarixli imzası ilə təsdiq edilmiş "İmtahanların təşkili və keçirilməsi qaydaları", həmçinin "Ali təhsil müəsissələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun şəkildə təşkil edilir. Hər semestrin əvvəlində imtahan sessiyasının təşkilinə, gedişatına nəzarətin, yarana biləcək münaqişə və şikayətlərin yerində operativ həll edilməsinin, imtahanların qəbulunda obyektivliyin, şəffaflığın, gənclər təşkilatının iştirakının və ictimai nəzarətin təmini məqsədilə rektorun əmri ilə qərargah yaradılır və onun fəaliyyətinə təyin edilmiş məsul şəxslər nəzarət edir. ATM-də imtahanlar yazılı və şifahi formada təşkil olunur. Sahə səfəri zaman müsahibələrdə qeyd edilmişdir ki, imtahanların təşkili və nəzarəti Tədrisin Rəqəmsal İdarəolunması şöbəsi tərəfindən həyata keçirilir. Əyani təhsil forması üzrə imtahan sessiyası 5 həftəni, qiyabi təhsil forması üzrə isə 1 həftəni əhatə edir. İmtahan sessiyası zamanı imtahan

nəticələri ilə bağlı şikayətlərin araşdırılaraq dəyərləndirilməsi üçün Apellyasiya komissiyası yaradılır. Appelyasiya müraciətləri müvafiq kafedra müdirləri və fənn müəllimlərinin iştirakı ilə dəyərləndirilir.

ATM tərəfindən komissiyaya təqdim edilmiş imtahan sessiyasının nəticələrinə dair aşağıdakı cədvələ əsasən son 3 ildə təhsilalanların müvəffəqiyyət və keyfiyyət göstəricilərinin azalması müşahidə olunur.

**Cədvəl 3.3.18.1 Tədris illəri üzrə imtahan sessiyasının nəticələri**

| Tədris illəri | | Bakalavriat təhsil səviyyəsi | | | Magistratura təhsil səviyyəsi | | |
|---|---|---|---|---|---|---|---|
| | | Tələbə sayı | Müvəffəqiyyət göstəricisi, % | Keyfiyyət göstəricisi, % | Tələbə sayı | Müvəffəqiyyət göstəricisi, % | Keyfiyyət göstəricisi, % |
| 2017/2018 | payız | 8072 | 64,9 | 24,5 | 1069 | 96,1 | 77,4 |
| | yaz | 6390 | 66,3 | 25,3 | 689 | 98,0 | 69,1 |
| 2018/2019 | payız | 8874 | 66,7 | 22,4 | 1137 | 96,5 | 75,2 |
| | yaz | 7102 | 64,0 | 23,4 | 722 | 98,4 | 66,3 |
| 2019/2020 | payız | 9608 | 67,4 | 25,6 | 1288 | 98,7 | 78,7 |
| | yaz | 7623 | 87,6 | 34,7 | 781 | 96,5 | 81,3 |
| 2020/2021 | payız | 10501 | 93,3 | 35,1 | 1652 | 99,2 | 84,2 |
| | yaz | 8226 | 88,2 | 32,0 | 1035 | 98,3 | 80,2 |
| 2021/2022 | payız | 10747 | 73,9 | 21,0 | 2074 | 96,4 | 67,7 |
| | yaz | 8358 | 73,5 | 19,9 | 1241 | 93,8 | 55,2 |
| 2022/2023 | payız | 11248 | 75,8 | 20,2 | 2361 | 95,5 | 59,8 |
| | yaz | 8866 | 67,3 | 18,2 | 1398 | 86,6 | 50,5 |

Müsahibələr zamanı bu azalma tendensiyasının səbəbi üç il öncə imtahan suallarının öncədən hazır şəkildə tələbələrə verilməsinin dayandırılması ilə izah olunmuşdur.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Sahə səfəri zamanı bu istiqamət üzrə aidiyyətı bölmə əməkdaşları ilə müsahibələrdə bildirilmişdir ki, ADNSU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” qaydalarının “3.4. Yay semestrinin təşkili” bölməsinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftəlik yay məktəbi təşkil edilir. Müsahibələrdə bildirilmişdir ki, hər tədris ilinin sonunda Yay məktəbinin dekanı daxili

əmrləşmə ilə təyin edilir və müvafiq fakültələrdən gələn dərs yükü əsasında tədrisin təşkili təmin edilir.

**Cədvəl 3.3.19.1 2022/2023-cü tədris ilində Yay semestrində iştirak etmiş təhsilalanların sayı**

| №1 | Fakültələr | Ümumi | 1 fənn | 2 fənn | 3 fənn |
|---|---|---|---|---|---|
| 1 | GKF | 87 | 61 | 23 | 3 |
| 2 | QNMF | 111 | 77 | 32 | 2 |
| 3 | KTF | 74 | 54 | 16 | 4 |
| 4 | NMF | 175 | 121 | 51 | 3 |
| 5 | EF | 196 | 115 | 77 | 4 |
| 6 | İTİF | 245 | 174 | 63 | 8 |
| 7 | İMF | 127 | 97 | 26 | 4 |
| 8 | "Sabah" qrupları | 4 | 4 | - | - |
| 9 | Digər universitetlərdən | 2 | 2 | - | - |
| 10 | Təkrar ali təhsil | 3 | 2 | 1 | - |
| | CƏMİ | 1024 | 707 | 289 | 28 |

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Hesabat dövrü ərzində ATM-də bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin kredit borclarının sayında artım müşahidə edilmişdir. Qrafik 3.3.20.1-dən də göründüyü kimi pandemiya dövrü ərzində bu say azalmış, daha sonrakı illərdə artım dinamikası müşahidə edimişdir.




**Şəkil 3.3.20.1 2018-2023-cü tədris illəri üzrə bakalavriat səviyyəsi üzrə kredit borclarının dinamikası**




**Şəkil 3.3.20.2 2018-2023-cü tədris illəri üzrə magistratura səviyyəsi üzrə kredit borclarının dinamikası**

Magistratura səviyyəsi üzrə kredit borcları olan tələbərin sayını 3.3.20.2 qrafikinə əsasən təhlil edərkən görünür ki, 2020-2021-ci tədris ilindən başlayaraq bu sayda kəskin artım müşahidə edilmişdir. Sahə səfəri zamanı bu istiqamət üzrə müvafiq bölmələrlə müsahibələrdə saydakı kəskin artım tələbə qəbul sayının artması ilə əlaqələndirilmişdir. 2022-2023-cü tədris ilində magistratura səviyyəsinə tələbə qəbulu sayı əvvəlki tədris ili ilə müqayisədə 2 dəfə artmışdır.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

ADNSU-da 2018-2023-cü tədris illəri üzrə bakalavriatura səviyyəsində təhsilalanlar arasında kredit borcu yaranmış fənlərin sayının illər üzrə artım tendensiyası müşahidə edilmişdir. Bu istiqamət üzrə magistratura səviyyəsində 2021-2022-ci tədris ilində kəskin artım (632 ədəd), sonrakı tədris ilində isə kəskin azalma (91) müşahidə edilmişdir.




**Şəkil 3.3.21.1 Kredit borcu yaranmış fənlərin sayının tədris illəri üzrə dinamikası**

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd edilir ki, tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi müvafiq dekanlıq və kafedralar tərəfindən izlənilir və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülür. Sahə səfəri zamanı dekanlıq və kafedralarla müsahibələrdə bildirilmişdir ki, bu istiqamətdə tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsinə nəzarət çərçivəsində mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyətini yoxlamaq üçün açıq dərslər təşkil olunur, müvafiq dəyərələndirmələr aparılaraq tədbirlər həyata keçirilir. Daha səmərəli nəticələrin əldə edilməsi üçün Daxili Keyfiyyət Təminatı sektorunun da bu istiqamət üzrə məqsədyönlü fəaliyyət aparması tövsiyə edilir.

## 3.4 Tədris metodları və üsulları

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATM-də təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyətinin qiymətləndirilməsi məqsədilə dərs dinləmələri, həm də sorğular aparılmışdır. Mühazirələr Microsoft PowerPoint proqramında hazırlanan slaydlar vasitəsilə dialoq, müzakirə üsullarından istifadə ilə keçirilir.

Qeyd etmək lazımdır ki, müəllimlər tərəfindən dərslərdə müasir təlim metodlarından istifadə olunması ilə bağlı tələbələr arasında aparılan sorğunun nəticələrini aşağıdakı diaqramda görmək olar (300+ respondent).




**Şəkil 3.4.1.1. Müəllimlərin dərslərdə müasir təlim metodlardan istifadə etmələri haqda tələbələr arasında aparılan sorğu nəticəsi**

Mühazirə-məşğələ dərsləri veb-distant auditoriya formatında qurulmuş auditoriyalarda aparılsa da internetin sürəti, laboratoriya otaqlarının xüsusi avadanlıqlarla və kompüterlə təchiz olunmadığı müşahidə edilmişdir. Belə ki, komissiya tərəfindən müəllimlər arasında aparılan rəy sorğusuna əsasən "mövcud maddi-texniki bazanın laboratoriya dərslərinin

keyfiyyətli aparılması üçün kifayət etməsi” aşağıdakı kimi qiymətləndirilmişdir (160 respondent).




**Şəkil 3.4.1.2. Müəllimlər arasında mövcud maddi-texniki bazanın laboratoriya dərslərinin keyfiyyətli aparılması üçün kifayət etməsi barədə sorğu nəticəsi**

Universitet tərəfindən tələbələr arasında keçirdiyi sorğuya əsasən “Maddi-texniki bazamızdan razısınımı?” sualına verilən cavablar aşağıdakı kimidir:




**Şəkil 3.4.1.3. Universitetin tələbələr arasında maddi-texniki bazanın vəziyyəti barədə aparılan rəy sorğusu nəticəsi**

ATM-də aparılan sahə görüşlərində mühazirə dərslərində proyektorlardan və kompüterlərdən istifadə edilməsi müşahidə edilmişdir. Lakin bəzi ixtisas laboratoriyalarında hələ də müasir tələblərə cavab verən maddi-texniki bazanın olmadığı müşahidə edilmişdir. Bu baxımdan, ATM-də təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyaların istifadəsi tövsiyə olunur.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə olunması sahəsində bir sıra işlər aparırılır. Müsbət hal kimi qeyd etmək olar ki, təhsilalanlara buraxılış işləri üzrə mövzular istehsalat müəssisələrindən verilir. İxtisas üzrə seçmə fənlərin VI və VII semestrlərdə tədrisi bilavasitə istehsalat müəssisələrində, həmçinin kafedraların kənar müəssisələrdə yaradılmış filiallarında təşkil edilir.

Komissiya tərəfindən aparılan tələbə sorğularına əsasən “Müəllimlər tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edirlərmi?” sualının nəticəsi aşağıdakı kimi olmuşdur.




**Şəkil 3.4.2.1. Müəllimlər müxtəlif tədris yanaşmalarından istifadə etmələri barədə tələbələr arasında aparılan sorğu nəticələri**

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

Sahə görüşlərində bütün təhsil formalarında mühazirə dərslərinin təqdimatlardan isifadə edərək müzakirə, tələbə rəyinin öyrənilməsi ilə, laboratoriya dərsləri isə ixtisasdan asılı olaraq kompüter proqramları əsasında və digər müxtəlif tədris formalarından istifadə edilərək aparıldığı müşahidə edilmişdir.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Universitet dərindən öyrənməni tətbiq etmək məqsədilə (ATM-in Özünütəhlil Hesabatında qeyd edilmişdir) “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənninin tədrisi “British Council”in metodikasına uyğun təşkil edilir və IV semestrin yekun imtahanı APTİS imtahanlarına uyğunlaşdırılmış şəkildə keçirilir.

Komissiya tərəfindən aparılan sorğulara əsasən tələbələrin elmi fəaliyyətə cəlb olunmaları və tədris olunan fənlərə marağın yaradılması (bunun onlar üçün nə qədər faydalı olması) vəziyyəti aşağıdakı kimi qiymətləndirilmişdir:




**Şəkil 3.4.4.1. Tələbələrin elmi fəaliyyətə cəlb olunmaları və tədris olunan fənlərə marağın yaradılması barədə sorğu nəticələri**

Şəkil 3.4.4.1-ə əsasən nəticələrin 16%-i tələbələrin elmi fəaliyyətə cəlb olunmaları və tədris olunan fənlərə marağın yaradılması vəziyyətinin çox faydalı olmasını, 28%-i isə orta dərəcədə faydalı olmasını qeyd etmişdir.

Komisssiya tərəfindən aparılan digər sorğuda “Müəllimləriniz tərəfindən tədqiqatlara (və ya elmi konfranslara/seminarlara) cəlb olunursunuzmu?” sualı aşağıdakı kimi cavablandırılmışdır:




**Şəkil 3.4.4.2. Müəllimlər tərəfindən tədqiqatlara (və ya elmi konfranslara/seminarlara) cəlb olunma vəziyyəti barədə sorğunun nəticəsi**

Həm diaqramlaradan, həm də sahə səfərləri zamanı müsahibələr əsasında məlum olmuşdur ki, tədrisin təşkilində ənənəvi üsul və vasitələrdən istifadə üstünlük təşkil edir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Sahə səfəri, dərs müşahidələri və müsahibələr zamanı tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsulları tətbiq olunmadığı müşahidə olunmuşdur. 3.4.4-də qeyd olunuğu kimi tədris prosesində daha çox ənənəvi tədris metod və üsullarından istifadə olunur.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

ATM-də tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlar kimi proyektorlar, kompüterlər və kompüterləşdirilmiş laboratoriya avadanlıqlarını misal göstərmək olar. Lakin sahə səfərində ixtisasa uyğun olaraq laboratoriya dərslərində kompüterlərin çatışmaması, köhnə avadanlıqların mövcudluğu müşahidə olunmuşdur. Bu nöqteyi-nəzərdən tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsinə ehtiyac vardır.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

ATM tərəfindən yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə sahəsində müəyyən işlər aparılmaqdadır. Belə ki, ATM-in professor-müəllim heyətin və tədrisə cəlb edilmiş köməkçi heyətin İT bacarıqlarının yoxlanması ilə əlaqəli imtahanlar keçirilimişdir və bu öz əksini 14 mart 2019-cu il №04-309 saylı əmrdə tapmışdır.

Bundan başqa ATM-in təqdim etdiyi "ADNSU-nun stajkeçmə planı 2020-2025" sənədində müəllimlər mütəmadi olaraq stajkeçməyə göndərilməsi ilə bağlı qeyd edilmişdir. Müəllimlərin peşəkar bacarıqlarının artırılması məqsədilə "Müəllimlərin pedaqogika və psixologiya fənləri üzrə ixtisasartırma kurslarına cəlb edilməsi və müvafiq xidmətlərin göstərilməsinə dair göstəriş verilməsi barədə təqdimat (26 fevral 2024-cü il, 3-29-50/3-1326/2024) verilmişdir.

ATM-də müəllimlərinin tədris prosesində klassik metodlarla yanaşı interaktiv üsullardan da - "brainstorming", "case study", "buzz session", "debat" kimi metodlarda da istifadə etmələri, bu istiqamətdə müvafiq təlimlərin keçirilməsi tövsiyə olunur.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti universitet rəhbərliyi, ETAM, Tədris metodik şöbə, fakültə dekanlıqları tərəfindən dövrü monitorinqi aparılır, ehtiyac olduğu halda təkmilləşdirilmə işləri görülür.

Sahə səfəri zamanı monitorinqlərin əsasən ETAM tərəfindən aparıldığı və Tədris-metodik şöbənin monitorinqlərdə iştirak etmədiyi müşahidə edilmişdir. Tədris-metodik şöbə

ADNSU PHŞ-nin Elmi Şurasının 30 dekabr 2023-cü il tarixli iclasında (protokol No 4) qəbul olunmuş “Tədris departamenti haqqında əsasnamə”nin 2.1 bəndinə əsasən tədris prosesinin səmərəli, mövcud standartlara uyğun təşkili və ona nəzarəti həyata keçirilməlidir.

Tədris şöbəsinə tədris metod və üsullarının dövri olaraq monitorinqinin və preventiv tədbirlərin dövri olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi tövsiyə olunur.

## 3.5 Təlim və tədris resursları

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi – LMS sistemi mövcuddur. Tədris materialları (mühazirə,təqdimat, laboratoriya işləri) bu sistemə yüklənilir və elə burada hər bir dərsdə tələbələrin davamiyyəti, qiymətləndirilməsi aparılır. Tələbələr arasında sorğunun keçirilməsi də bu sistem üzərindən aparılır.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti Özünütəhlil Hesabatına əsasən 19 kompüter laboratoriyası mövcuddur. Hazırda istifadə olunan 1955 kompüterdən 1834-ü internetə qoşulmuşdur. Lakin sahə səfərində yerində baxış zamanı ixtisasdan asılı olaraq laboratoriya və məşğələ dərslərinin aparılmasında kompüterlə təchiz olunmuş auditoriyaların çatışmazlığı müşahidə olunmuşdur.

Bundan başqa ATM tərəfindən veb masaların illər üzrə artım dinamikası sənədinə əsasən II tədris binasında veb masaların sayı 2019-cu ildən dəyişməmişdir.

Komissiya tərəfindən müəllimlər arasında aparılan sorğuda “Təmsil etdiyiniz struktur vahidinin maddi-texniki imkanları sizi qane edirmi?” sualına cavab aşağıdakı kimi olmuşdur.




**Şəkil 3.5.2.1 Müəllimlər arasında struktur vahidinin maddi-texniki imkanlarının qənaətbəxş olması barədə aparılan sorğu nəticəsi**

Cavablardan göründüyü kimi 34.6% kafi, 25.2% qeyri-kafi, 19.5% isə çox pis olduğunu bildirmişdir. Bu da təlim və tədris prosesinin səmərəli və keyfiyyətli aparılması üçün maddi-texniki bazanın yaxşılaşdırılmasına ehtiyac olduğunu göstərir.

ATM-də müasir təlim prosesini aparmaq üçün auditoriyalarda və laboratoriyalarda maddi-texniki bazanın yaxşılaşdırılması tövsiyə olunur.

#### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan elektron tədris platforması və jurnal mövcuddur. Bu LMS sistemidir və funksiyaları barədə yuxarıda qeyd olunmuşdur. Müsahibələr və yerində baxış zamanı platformanın tam funksional işləmədiyi üçün onun yeni versiya ilə əvəz olunması üzərində iş getdiyi bildirilmişdir.

#### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Qeyd etmək lazımdır ki, müsahibələr zamanı tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğunun monitorinqinin aparılmadığı müşahidə edilmişdir. ETAM tərəfindən tədris prosesi ilə bağlı tələbə məmnuniyyəti sorğuları keçirilsə də qeyd olunan məsələ bu sorğularda öz əksini tapmır.

#### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti barədə ATM tərəfindən təqdim olunan Özünütəhlil Hesabatında 143 kompüter veb auditoriyalarda, 203 kompüter və 79 notebook kompüter labortoriyalarında, 5 kompüter Fərman Salmanov adına SOCAR-ADNSU Elm-Tədris Mərkəzində (117 №-li auditoriya), 20 kompüter HPC Mərkəzində, 1505 kompüter (121-i internetə qoşulmayb) professor-müəllim heyəti, əməkdaşlar və bəzi auditoriyalarda olmaqla cəmi 1955 kompüterin olduğu qeyd edilmişdir.

Həm sorğu nəticələrinə əsasən, həm də sahə görüşlərində bu say və internetin sürəti mühazirə və laboratoriya dərslərinin keyfiyyətli aparılmasına tam imkan vermədiyi müşahidə edilmişdir.

Müəllimlər arasında Komissiya tərəfindən aparılan sorğuda "Tədris prosesində kompüter və internetin sürəti sizi nə dərəcədə qane edir?" sualına cavab aşağıdakı kimi olmuşdur:




**Şəkil 3.5.5.1 Tədris prosesində kompüter və internetin sürəti barədə aparılan sorğu nəticəsi**

Diaqrama əsasən müəllimər tərəfindən tədris prosesində kompüter və internetin sürəti barədə aparılan sorğuda 30% tam uyğun olduğunu, 57,5% qismən uyğun olduğunu qeyd etmişdir. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının sayının və internetin sürətinin artırılması tövsiyə olunur.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğunun Özünütəhlil Hesabatında təmin olunması qeyd olunsa da, sahə səfəri zamanı bu sahədə çatışmazlıqların olduğu müşahidə olunmuşdur. Komissiya tərəfindən tələbələr arasında aparılan sorğuda "Auditoriyalarda tələbə sıxlığı ilə bağlı" sual aşağıdakı kimi cavablandırılmışdır:




**Şəkil 3.5.6.1 Auditoriyalarda sıxlığın olması ilə bağlı sorğu nəticəsi**

Sahə səfəri zamanı bəzi auditoriyaların sahəsinin tələbə sayına uyğun olmadığı müşahidə olunmuşdur.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi ATM-də akademik heyətin fəaliyyəti üçün 170 otaq, inzibati heyətin fəaliyyəti üçün 68 otaq mövcuddur. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikasını göstərən hər hansı sənəd təqdim olunmasa da, sahə səfərində son illərdə ADNSU-da bu məsələ nəzərə alınaraq bəzi

mərtəbələrdə anbar kimi istifadə olunan boş yerlər təmir olunmuş, əsas binaya 5-ci mərtəbə əlavə edilmiş, keçidlər təmir edilmiş, yeməkxanaların həyətə köçürüldüyü məlum olmuşdur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

ADNSU-da kitabxananın xidmət imkanlarının dinamikası aşağıdakı diaqramda göstərilmişdir.




**Şəkil 3.5.8.1. ATM üzrə son 7 ildə tələbələrin və akademik oxucu-istifadəçilərin sayı**

Diaqramdan göründüyü kimi son 7 ildə bakalavr oxucu-istifadəçilərin sayında ümumi olaraq azalma müşahidə olunur. Lakin 2022-2023-cü illərdə dinamika artan istiqamətdə olmuşdur. Professor-müəllim heyəti nisbətən dayanıqlı, doktorant və magistrlarda dinamika artan istiqamətdə müşahidə olunur.




**Şəkil 3.5.8.2. Son 7 ildə kitab verilişi dinamikası**

Kitab verilməsi dinamikasına baxsaq (şəkil 3.5.13.2), korona virus pandemiyasından sonra ənənəvi xidmətlər üzrə dinamika artan, elektron sifarişlər üzrə azalan istiqamətdədir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Kitabxana fondunun son 7 ildə artım dinamikası aşağıdakı diaqramda göstərilmişdir.




**Şəkil 3.5.9.1. Kitabxana fondunun son 7 ildə artım dinamikası**

Qrafikdən aydın görmək olar ki, 2020-ci ildən sonrakı dövrdə elmi və ictimai fondda artım müşahidə olunsa da, dərslik və bədii ədəbiyyatlarda bu dinamika azalan istiqamətdədir. ADNSU-nun kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) dinamikası yuxarıda göstərilən diaqrama əsasən azalan istiqamətdədir.

Qeyd etmək lazımdır ki, ADNSU-da kitabxana fəaliyyətinin həm ənənəvi, həm onlayn formada xidmət göstərməsi təşkil olunmuşdur. Bunu aparılan sorğularda da görmək olar. Komissiya tərəfindən tələbələr arasında aparılan sorğularda “Kitabxanada axtardığınız resursları tapa bilirsinizmi?” sualına 46% - bəli, 31% - bəzən, 22% - xeyir kimi cavablandırmışlar.




**Şəkil 3.5.9.2. Kitabxanada resursların tapılması barədə aparılan sorğu nəticəsi**

Bu nəticə özünü Komissiya tərəfindən tələbələr arasında aparılan sorğuda da göstərir. Belə ki, "İstifadə olunan tədris materiallarının çap olunma tarixi son 5 ildən çoxdurmu?" sualına cavab aşağıdakı kimi olmuşdur:




**Şəkil 3.5.9.3. İstifadə olunan tədris materiallarının çap olunma tarixi barədə sorğu nəticələri**

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Tədris dillərinə uyğun kitab fondu ilə bağlı Özünütəhlil Hesabatında təqdim edilmiş cədvəldə kitab fondunun mövcudluğu və artım dinamikası haqqında məlumat öz əksini tapmışdır.

**Cədvəl 3.5.10.1. Tədris dillərinə uyğun kitab fondu haqqında məlumat**

| İl | Azərbaycan | Rus | İngilis və digər dillərdə |
|---|---|---|---|
| 2017 | 76680 | 572998 | 7309 |
| *2018* | 65033 | 531386 | 7562 |
| 2019 | 65208 | 531648 | 7597 |
| *2020* | 65738 | 531945 | 7663 |
| *2021* | 67227 | 532194 | 7740 |
| *2022* | 68213 | 532281 | 7760 |
| *2023* | 69238 | 532435 | 8762 |

Hesabat dövrü ərzində Azərbaycan və rus dillərində olan kitabların artım dinamikasında ümumilikdə azalma müşahidə olunmuşdur. İngilis və digər dillərdəki kitabların sayında dinamika artan istiqamətdə olduğu müşahidə olunmuşdur.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım dinamikası

ADNSU-da son 7 ildə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitlərin həcmində dinamikanı aşağıdakı histoqramlarda görmək olar.




**Şəkil 3.5.11.1 ATM-də son 7 ildə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin dinamikası**

Histoqramlardan göründüyü kimi, son iki il üzrə ADNSU-nun göstəricilərində azalan dinamika müşahidə olunur. Belə ki, 2022-ci ildə 19 nüsxəyə 630.8 manat, 2023-cü ildə isə 5 nüsxə və cəmi 500 manat vəsait ayrılmışdır. Bununla bağlı olaraq ali təhsil müəssisəsinə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcminin artırılması tövsiyə olunur.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

ADNSU-da təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin aparılmasını təsdiq edəcək sənədlər təqdim olunmamışdır. Sahə səfəri zamanı müsahibələrdə tələb olunan resursların kafedralar tərəfindən dekanlıqlara təqdim olunduğu bildirilmişdir. İl üzrə alınmalı avadanlıq və ləvazimatların siyahısı rektor tərəfindən təsdiq olunaraq inventarizasiya komissiyasına göndərilir**.**

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Özünütəhlil Hesabatında təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığının təmin edildiyi göstərilir. Təhsilalanların bu resurslara əlşatanlığı LMS sistemi vasitəsilə təmin edilir.

Təlim və tədris resurslarının istifadəsi və yenilənməsi vəziyyətini təsdiq edəcək sənədlər təqdim olunmamışdır. Lakin ATM tərəfindən təqdim olunan təhsilin kəmiyyət və keyfiyyət göstəriciləri cədvəlinə əsasən belə monitorinqlərin aparılmasına ehtiyac olduğu müşahidə olunur.

Aşağıdakı diaqramlarda bakalavr və magistr tələbələrinin illər üzrə sayı və onların müvəffəqiyyət və keyfiyyət göstəriciləri verilmişdir.




**Şəkil 3.5.13.1. Bakalavr tələbələrinin illər üzrə sayı və onların müvəffəqiyyət və keyfiyyət göstəriciləri**




**Şəkil 3.5.13.2. Magistr tələbələrinin illər üzrə sayı və onların müvəffəqiyyət və keyfiyyət göstəriciləri**

Diaqramlardan göründüyü kimi, hər iki göstərici üzrə tələbə sayında artan dinamika müşahidə olunsa da, son iki tədris ilində müvəffəqiyyət və keyfiyyət göstəricilərində azalan dinamika müşahidə edilir.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

Sağlamlıq imkanları məhdud olan şəxslər üçün ATM-də uyğunlaşdırılmış şərait yaradılmamışdır, onların tədrisə onlayn qoşulması təmin edilir. Səfər zamanı məlum oldu ki, universitetdə (UFAZ istisna olmaqla) pilləkənlərdə xüsusi konstruksiyalar, panduslar, auditoriyalarda sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi oturacaqlar və digər köməkçi vasitələr nəzərdə tutulmamışdır.

Sağlamlıq imkanları məhdud şəxslər üçün tədris resurslarının əlçatanlığını təmin etmək məqsədilə ATM-də müvafiq şəraitin yaradılması tövsiyə olunur.

### 3.5.15.Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

ATM-də təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

ATM-də yeni dərs vəsaitlərinə nəşr hüququnun verilməsi üzrə 26 yanvar 2016-cı il tarixli 01-I/07 saylı "ADNSU-da Tədris vasitələrinə nəşr hüququnun verilməsi işinin təkmilləşdirilməsi haqqında" əmr verilmişdir.

Təlim və tədris resurslarının əldə olunması bir sıra sənədlərdə öz əksini tapır, məsələn, İnventarizasiya komissiyasının yaradılması haqqında 17 avqust 2023-cü il tarixli, 3-29-50/3-1-2422/2023 saylı əmri, Elmi Şuranın 27 oktyabr 2023-cü il tarixli 2 saylı protokolunda bu məsələnin universitetin prioritet məsələlərindən olduğu göstərilir.

Sahə səfərində müsahibələrdə verilən məlumata əsasən, lazım olan avadanlıq və ləvazimatlarla bağlı məlumat dekanlıqlar tərəfindən kafedraların sorğuları əsasında toplandıqdan sonra rəhbərlik tərəfindən təsdiqlənən siyahı şəklində icra üçün İnventarizasiya komissiyasına təqdim olunur.

Komissiya tərəfindən aparılan sorğuda verilən sifarişlərin tam təmin olunmaması gösərilir (məsələn, sorğunun qeydlər hissəsindən nümunə: "ildə verilən sifariş üzrə heç olmasa 1 avadanlığın alınması tədrisin keyfiyyətinə müsbət təsir göstərərdi"). Həmçinin sahə səfərlərində laboratoriyalarda müasir avadanlıqların olmaması, ixtisas laboratoriyalarında müasir kompüterlərin çatışmaması müəyyən edilmişdir. ADNSU-da təlim-tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ADNSU-da tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün tələbə klubları mövcuddur. Belə ki, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Həmkarlar İttifaqı, rəqs, teatr, futbol, basketbol klubları, həmçinin tələbələrin fərdi inkişafı üçün easy START klubu fəaliyyət göstərir (https://asoiu.edu.az/tec_data, https://asoiu.edu.az/syo, https://asoiu.edu.az/student_union, https://asoiu.edu.az/theatre, https://asoiu.edu.az/dance, https://asoiu.edu.az/football, https://asoiu.edu.az/basketball).

Komissiya tərəfindən tələbələr arasında keçirilən sorğuda universitetdə tələbə klublarının mövcudluğu ilə bağlı suala cavab aşağdakı kimi olmuşdur.




**Şəkil 3.5.16.1. Universitetdə tələbə klubunun mövcudluğu barədə sorğu nəticəsi**

Universitet tərəfindən aparılan sorğularda “Universitetin təklif etdiyi dərsdənkənar fəaliyyətlərdən nə dərəcədə razısınız?” sualına cavablar aşağıdakı kimi olmuşdur:




**Şəkil 3.5.16.2. Universitetin təklif etdiyi dərsdənkənar fəaliyyətdən razılıq barədə sorğu nəticəsi**

Tələbələrlə müsahibə və sorğu nəticələrinə əsasən universitetdə tələbə klublarının, tələbələrin əksəriyyətinin sosial, mədəni və idman fəaliyyətlərinin təşkilindən razı olduqları müşahidə olunur.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti ilə bağlı sahə səfərində bütün universitet üzrə bir psixoloqun fəaliyyət göstərdiyi müəyyənləşdirilmişdir. O, fəaliyyətinə yeni başladığı üçün hər hansı statistika və ya sənəd təqdim edə bilməmişdir. ADNSU-da 18000-dən çox tələbə, 620-dən çox professor-müəllim heyətinin olmasını nəzərə alaraq psixoloji məsləhət xidmətinin inkişaf etdirilməsi tövsiyə olunur.

## 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ATM üzrə kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı qaydalar və mexanizm mövcuddur. Belə ki, kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi AR Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun formalaşdırılır.

İmtahanların kecirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli, 1060 saylı əmri təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi” haqqında Əsasnamə) təşkil olunur. Cari, aralıq və dövlət attestasiyası zamanı təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi

müvafiq qaydalar əsasında müəyyənləşdirilir. Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi 100 ballı sistemlə həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli, 75 nömrəli qərarı ilə təsdiq "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli, 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin tələbləri çərçivəsində YDA-nın (Yekun Dövlət Attestasiya) təşkili həyata keçirilir. Dekanlıqlar və kafedralar tərəfindən fənlərin sillabuslarında göstərilən təlim nəticələrinin təmin edilməsinə nəzarət olunur.




**Şəkil 3.6.1.1 Qiymətləndirmə göstəriciləri**

Komissiya tərəfindən aparılan müsahibələr zamanı Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzi tərəfindən prosedur və qaydalar toplusunu özündə cəmləşdirən qiymətləndirmə haqqında təlimat olduğu qeyd edilsə də həmin sənəd Komissiyaya təqdim edilməmişdir.

Qiymətləndirmə, imtahanların keçirilməsi qaydaları haqqında təlimatların, əsasnamələrin işlənib hazırlanması istiqamətində optimallaşdırma işlərinin aparılması tövsiyə olunur.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ADNSU-da "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq, tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə meyarları ölçüləbilən və etibarlıdır. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar müvafiq qanunvericiliyin (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun həyata keçirilir.

ATM-də qiymətləndirmə 100 ballı və hərfli qiymətləndirmə sisteminə əsaslanır. ATM-də bakalavr səviyyəsində imtahanaqədərki keçid balı 50-dir.

**Cədvəl 3.6.2.1 Təhsilalanların bal göstəriciləri.**

| Göstəricilər | Ballar | | | |
|---|---|---|---|---|
| | Mühazirə, mühazirə və məşğələ | Mühazirə, məşğələ və laboratoriya | Mühazirə, məşğələ, laboratoriya və k.l. (k.i.) | Mühazirə, məşğələ və k.l. (k.i.) |
| Semestr ərzində aktivliyə görə (semestrin sonunda, 1 dəfə) | 10 | 10 | 5 | 10 |
| Təqdimat | 20 | 10 | 10 | 10 |
| Laboratoriya | - | 10 | 10 | - |
| Kurs layihəsi (kurs işi) | - | - | 10 (min. 5) | 10 (min. 5) |
| Aralıq imtahan | 20 | 20 | 15 | 20 |

Hər ilin payız və yaz semestrlərində imtahan sessiyasından öncə ADNSU-nun Elmi Şurası tərəfindən "Payız və yaz imtahan sessiyasının təşkili və keçirilməsi haqqında" əmr, "Cari qiymətləndirmənin keçirilməsi qaydaları" təsdiq edilir. Qiymətləndirmə müxtəlif formalarda (yazılı, yazılı-şifahi, "açıq kitab") həyata keçirilir.

ADNSU-da 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi rektorun 24 noyabr 2023-cü il 3-29-50/3-1-4101/2023–cü il tarixli əmrinə əsasən tənzimlənmişdir.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının mütəşəkkil keçirilməsi məqsədi ilə Təhsil Nazirliyinin 1060 nömrəli, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında müvəqqəti Əsasnaməyə", Təhsil Nazirliyinin 1059 nömrəli, 11.09.2008-ci il tarixli "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları barədə müvəqqəti Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 nömrəli, 4 dekabr 2013-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 78 nömrəli, 07.03.2018-ci il tarixli qərarına uyğun şəkildə aparılması nəzərdə tutulmuşdur.

ADNSU-da yazılı, yazılı-şifahi və "açıq kitab" üsulu ilə keçiriləcək imtahanlar üçün suallar çətinlik dərəcəsinə görə bloklar üzrə tərtib edilərək, kafedra iclaslarında müzakirə olunur, təsdiq edildikdən sonra sessiyanın başlanmasına 1 ay qalmış Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzinə təqdim edilir. Yekun imtahanlar bir qayda olaraq yazılı, yazılı-şifahi formada keçirilir.

İmtahan müddəti 3 saat olaraq müəyyən edilir. İmtahan günü fənn müəllimləri tərəfindən yazılı imtahanların nəticələrinin yoxlanılmasının və həmin gün müvafiq fakültə dekanına, yazılı cavabların isə İmtahan Mərkəzinə verilməsinin təşkili təmin olunur.

**Cədvəl 3.6.3.1 2021/2022-ci və 2022/2023-cü tədris illərinin yaz semestrlərinin imtahan sessiyalarının nəticələrinin müqayisəsi**

| Fakültənin adı | Müvəffəqiyyət göstəricisi, % | | Keyfiyyət göstəricisi, % | |
|---|---|---|---|---|
| | 2021/2022 | 2022/2023 | 2021/2022 | 2022/2023 |
| GKF | 61,7 | 45,7 | 9,2 | 4,8 |
| QNMF | 78,4 | 61,9 | 22,9 | 13,2 |
| KTF | 72,7 | 68,5 | 16,5 | 16,7 |
| NMF | 54,0 | 49,0 | 7,3 | 7,2 |
| EF | 60,1 | 53,1 | 8,0 | 7,6 |
| İTİF | 81,5 | 77,6 | 23,4 | 22,2 |
| İMF | 57,5 | 55,0 | 10,2 | 8,0 |
| BBA | 93,2 | 97,4 | 48,1 | 54,5 |
| ZU | 94,9 | 96,8 | 44,7 | 53,1 |
| ADNSU | 73,5 | 67,3 | 19,9 | 18,2 |

Qeyd: 1.Müvəffəqiyyət göstəricisi müsbət qiymət alanların ümumi tələbələrin sayına faizlə nisbəti əsasında müəyyən edilir.

Qeyd: 2.Keyfiyyət göstəricisi əla, çox yaxşı və yaxşı qiymət alanların ümumi tələbələrin sayına faizlə nisbəti əsasında müəyyən edilir.

Cədvəldən göründüyü kimi 2021/2022-ci və 2022/2023-cü tədris illərinin yaz semestrlərinin imtahan sessiyalarının nəticələrinin müqayisəsi bəzi fakültələrin müvəffəqiyyət və keyfiyyət göstəricilərində aşagı dinamikanı göstərir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

ADNSU-da imtahanlar əsasən yazılı, yazılı-şifahi, “açıq kitab” formalarda keçirilir. Qiymətləndirmədə obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə imtahan sessiyasında imtahan işləri “Elektron tədris və imtahanlara nəzarət” şöbəsinin əməkdaşları tərəfindən kodlaşdırılır. Kodlaşdırılma aparıldıqdan sonra işlər yoxlanmaq üçün müəllimlərə təqdim edilir və bir gün ərzində yoxlanılır. Kodlaşdırılmış işlərin hansı təhsilalana aid olduğu müəllimlər tərəfindən bilinmir. Bu isə müəllimi tələbənin qiymətləndirilməsində daha obyektiv olmağa sövq edir. Bakalavr səviyyəsində ingilis dilində tədris aparılan qruplarda və “SABAH” qruplarında bütün fənlər yazılı-şifahi üsulla, magistratura səviyyəsində isə yazılı üsulla keçirilir. İmtahan sessiyasının 5 suallı imtahan biletləri əsasında, imtahanların təsdiq olunmuş imtahan cədvəllərində göstərilən auditoriyada və saatlarda bütün təhsilalanların iştirakı ilə 3 saat

müddətində aparılır. İmtahanlar yazılı üsulla keçiriləcək fənlər üzrə çətinlik dərəcəsinə görə qruplaşdırılır. Yazılı-şifahi üsulla keçirilən imtahanların nəticələri Unibook-da yerləşdirilir. İmtahanlar yazılı formada, imtahan sualları tələbələrə təqdim edilmədən həyata keçirilir. Bu hal obyektivliyin və şəffaflığın təmin edilməsinə şərait yaradır (ADNSU-da 2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi haqqında 3-29-50/3-1-1488/2023 saylı, 27.04.2023-cü il tarixli əmri).

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

ATM-də təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması istiqamətində bir strategiya mövcuddur. Belə ki, fənn sillabuslarının strukturu, tapşırıqların hazırlanması, tələbələrdə öyrənmə məsuliyyəti və dərs prosesində aktivliyi təmin edir. Kurs işləri, laboratoriya işləri, tədqiqat işləri, layihələrin hazırlanması və s. tipli tapşırıqlar tələbələrə öyrənmə məsuliyyətinin aşılanmasına xidmət edir.

Akkreditasiya Komissiyası tərəfindən məşğələ dərslərinin müşahidəsi aparılmış, tələbələrin dərs prosesində yüksək aktivliyi müşahidə olunmuşdur.

Tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması məqsədilə dərsin sonunda müəllim tərəfindən hazırlanmış sorgular vasitəsilə tələbələrin özünü qiymətləndirilməsinə müəyyən vaxtın ayrılması məqsədəuyğun hesab edilir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

2016/2017-cı tədris ilindən tədris prosesini idarə edən, qiymətləndirmə imkanları olan elektron təhsil sistemi (LMS) istifadəyə verilmişdir. Bu sistem təhsilalanların bütün fəaliyyət növləri üzrə qiymətləndirməsini aparır və yekun qiymət avtomatik olaraq sistem tərəfindən hesablanır. Elektron universitet sistemi tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydiyyata almağa imkan verir. Yekun Dövlət Attestasiyasının qiymətləndirilməsi (yekun dövlət imtahanı) elektron sistemə məsul şəxslər tərəfindən qeyd olunur. Sözügedən sistem təhsilalana aid bütün məlumatların əldə edilməsinə imkan verir. Eyni zamanda sistem aralıq və yekun imtahan nəticələri barədə hesabatların hazırlanması üçün də imkan yaradır.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ATM-də sağlamlıq imkanları məhdud təhsilalanlara münasibətdə xüsusi yanaşma mövcud deyil. Belə ki, sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təmin olunması üçün universitetdə tədris infrastrukturu qənaətbəxş deyil. Təhsilalanlarla müsahibə zamanı məlum oldu ki, saglamlıq imkanları məhdud təhsilalanlar bir cox cətinliklərlə qarşılaşırlar. Belə ki, saglamlıq imkanları məhdud təhsilalanların dərslərinin yuxarı mərtəbələrdə keçirilməsi və

liftdən istifadənin yalnız müəllimlər üçün nəzərdə tutulması bu tələbələr üçün çətinliklər yaradır.

Lakin müsbət hallardan biri kimi onu da qeyd etmək olar ki, ATM tərəfindən saglamlıq imkanları məhdud tələbələrin bir cox hallarda dərslərinin onlayn şəkildə təşkili həyata keçirilir.

Komissiya tərəfindən tələb olunan sənədlər siyahısında sağlamlıq imkanları məhdud şəxslərlə bagli statistika istənilsə də, ATM tərəfindən sağlamlıq imkanları məhdud olan tələbələrin sayı barədə məlumat təqdim olunmamış, yalnız I və II qrup əlil təhsilalanların statistik məlumatı təqdim edilmişdir.

**Cədvəl3.6.7.1 Sağlamlıq imkanları məhdud tələbələrin sayı (I və II qrup əlillər)**

| **Tədris illəri** | **I qrup** | **II qrup** | **18 yaşa qədər sağlamlıq imkanı məhdud olanlar** |
|---|---|---|---|
| 2019/2020 | - | 12 | - |
| 2020/2021 | - | 14 | 5 |
| 2021/2022 | 1 | 10 | - |
| 2022/2023 | 1 | | 5 |
| 2023/2024 | 1 | 7 | - |

ADNSU-da əlilliyi olan təhsilalanlara dəstək məqsədilə Psixoloji mərkəzin yaradılması, bu sahədə təlimlərin kecirilməsi, əlilliyi olan tələbə və məzunların işlə təmin olunmasında yaxından iştirak etmək üçün müvafiq tədbirlərin görülməsi tövsiyə edilir.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

ATM-də kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi AR Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun formalaşdırılır. Hər ilin payız və yaz semestrlərində universitet Elmi Şurası tərəfindən “Cari qiymətləndirmənin keçirilməsi qaydaları” və “Payız (və ya yaz) semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi haqqında” əmr müzakirə olunaraq təsdiq edilir. Qiymətləndirmə prosesi təhsilalanlardan gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verir.

Lakin bəzi spesifik fənlərdə, məsələn “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə təlimin nəticələri beynəlxalq təcrübəyə əsasən “Dinləmə”, “Oxu”, “Yazı” və “Danışıq” (Listening, Reading, Writing, Speaking) bacarıqları üzrə qiymətləndirilir.

“Xarici dildə işgüzar və akademik kommunikasiya” fənninin tədrisi “British Council”ın metodikasına uyğun təşkil edilir və IV semertin yekun imtahanı APTİS imtahanlarına uygunlaşdırılmış şəkildə keçirilir. “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə tədris planlarına əsasən IV semestrdə nəzərdə tutulmuş imtahanlar “British Council”ın metodikasına uyğun APTİS və IELTS imtahanları səviyyəsində keçirilr.

Təhsilin İnkişafı Fondu və 6 ali təhsil müəssisəsi arasında 28.10.2022-ci il tarixli

“Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında” əməkdaşlıq müqaviləsi çərçivəsində “British Council” tərəfindən ATM-də IELTS imtahanları təşkil edilmişdir. İmtahanda iştirak etmiş tələbələrin nəticələri diaqramda göstərilir.

**Cədvəl 3.6.8.1. IELTS imtahanında iştirak edən tələbələrin statistikası**




### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ADNSU Elmi Şurasının Qərarına əsasən imtahan sessiyasının nəticələrinə görə ÜOMG 80 baldan yüksək olan təhsilalanlar buraxılış işi müdafiə edir, ÜOMG 80 baldan az olan təhsilalanlar üçün isə Dövlət İmtahanı təşkil edilir.

ADNSU-da Yekun Dövlət Qiymətləndirilməsinin təşkilində Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında, “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş qaydalar, eyni zamanda “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə” və “Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə”lərin (https://e-qanun.az/framework/27030) qaydalarına əməl olunur .

Eyni zamanda, ATM-in 28 aprel 2016-cı il tarixli iclasında “Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin bakalavr buraxılış işlərinin magistrlik dissertasiyalarının tərtibat qaydaları, müdafiəsinin təşkili üzrə metodik göstərişləri” qəbul edimişdir. Bu metodik göstərişdə Azərbaycan Respublikası Təhsil Nazirinin 54 nömrəli 21.01.97-ci il tarixli əmri ilə

təsdiq olunmuş “Azərbaycan Respublikası Ali Təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində Dövlət Attestasiyası haqqında” Əsasnamə, Azərbaycan Respublikası Təhsil Nazirinin 13.03.97-ci il tarixli 152 nömrəli əmri ilə təsdiq olunmuş “Ali məktəblərin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması” Qaydaları, Azərbaycan Respublikası Təhsil Nazirinin 202 nömrəli, 20.04.98-ci il tarixli əmri ilə təsdiq olunmuş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları” haqqında Əsasnamə öz əksini tapmışdır.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Müsahibələr zamanı aydın olmuşdur ki, universitet və fakültə Elmi Şuralarında bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq müzakirə olunur, onların təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. ATM-də bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillər, bilik və bacarıqların qiymətləndirilməsi üzrə hesabatlar universitet Elmi Şurasında mütəmadi olaraq müzakirə olunur. Tələbələrin illər üzrə bilik və bacarıqlarının qiymətləndirilməsi üzrə statistik göstəricilər müvafiq şöbələrdə saxlanılır.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ATM-də tələbələrlə müsahibə zamanı təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada tələbələrə tyutor (akademik məsləhətçilər) tərəfindən izah edildiyi qeyd edilmişdir. ATM-də tələbələr üçün informasiya bazasının əlçatanlığı təmin edilir. Belə ki, LMS e-tədris sistemində hər bir tələbə öz kabinetində əks olunan tədris planında müəyyənləşdirilmiş bloklar, məcburi və seçmə fənlər üzrə kreditləri müəyyən edə bilir.

Lakin müsahibələr zamanı tələbələr tərəfindən ATM-də təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olmasıını izah edən təlimatın olmadığı qeyd olunmuşdur.

Tələbələr üçün ATM-də təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri ilə bağlı təlimatın, “Yaddaş kitabça”sının, “Tədris bələdçisi”nin işlənib hazırlanması sahəsində təkmilləşdirilmə məqsədəuyğundur.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Ali təhsil pilləsinin bakalavriat və ya magistratura səviyyəsini bitirən məzunlara dövlət nümunəli təhsil sənədinin verilməsi, təhsil səviyyəsini bitirməyən şəxslərə isə ATM tərəfindən oxuduğu fənlərə dair rəsmi transkriptin, Elm və Təhsil Nazirliyi tərəfindən tərtib edilən xüsusi rəsmi arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır.

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5

sentyabr 2009-cu il tarixli, 156 nömrəli Fərmanının 1.23-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti müvafiq qərarına (https://e-qanun.az/framework/28204) əsasən tənzimlənir.

### 3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər

#### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ADNSU-da akademik heyətin işə qəbulu və digər vəzifələrə təyinatla baglı mexanizmi mövcuddur. ATM-də akademik heyətin və inzibati strukturun işə qəbulunu həyata keçirən komissiya fəaliyyət göstərir. Belə ki, işə qəbuldan öncə akademik heyət üçün 3 pilləli açıq dərslər (kafedra, dekanatlıq və universitet səviyyələrində) keçirilir və komissiya tərəfindən qiymətləndirmə aparılır. Müsahibələrdən müəyyən olmuşdur ki, ATM-ə işə qəbul zamanı akademik heyətin qiymətləndirilməsi üçün meyarlar mövcuddur. Lakin akademik heyətin işə qəbulu zamanı müəyyən edilmiş meyarlar sənədi komissiyaya tərəfindən istənilsə də təqdim edilməmişdir.

ATM-in texniki heyətinin işə qəbulu tədris binaları üzrə məsul şəxslər-komendantlar tərəfindən aparılır.

ADNSU-nun Elmi Şurasının 1 saylı protokoluna əsasən inzibati işçilərin işə qəbulu prosesində dəyişiklik edilmiş, 2 pilləli işə qəbul ləğv edilmiş, 1 pilləli işə qəbul komissiyası yaradılmışdır.

Laborant vəzifəsinə təyin olunmaq üçün aşagıdakı meyarlar müəyyən edilmişdir;

- Magistrant və ya doktorant səviyyəsində təhsil alan;
- Baza təhsilinin fəaliyyət sahəsinə uyğunluğu;
- Dil bilikləri (İngilis dili B2 səviyyəsi);
- İT üzrə bilikləri;
- Sənədləşmə etmək, texniki dəstək və yaradıcılıq qabiliyyəti ;
- Kafedra müdirinin təqdimatı.

Tyutor vəzifəsinə təyin olunmaq üçün meyarlar:

- Magistrant və ya doktorant səviyyəsində təhsil alan;
- Tədris sənədlərinin tərtibi qaydalarını bilməli;
- Baza təhsilinin fəaliyyət sahəsinə uyğunluğu;
- Dil bilikləri (İngilis dili B2 səviyyəsi);
- İT üzrə bilikləri;
- Tədris aparılan dillər üzrə sənədləşmə işlərini icra etmək, texniki dəstək, ünsiyyətcilik və yaradıcılıq qabiliyyəti;
- Fakültə dekanının təqdimatı.

ATM fəaliyyətində AR Əmək Məcəlləsinə əsaslanır (https://www.e-qanun.az/framework/37434). Onu da qeyd etmək lazımdır ki, universitetdə son illər gənc kadrların işə cəlb edilməsi istiqamətində aparılan işlərin nəticəsi olaraq, hazırda orta yaş həddi 61-dən yuxarı olan professor-müəllim heyətinin payı 36,0% təşkil edir.

**Cədvəl3.7.1.1 Akademik heyətin və inzibati strukturun orta yaş həddi**

| N | Heyət | Orta yaş həddi |
|---|---|---|
| **1** | Profesor-müəllim | 53 |
| **2** | Rəhbər-inzibati | 41,7 |

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ATM-də 2023-cü ildən professor-müəllim heyətinin hər il üçün müxtəlif göstəricilər əsasında (səriştə və bacarıqları, xarici dil bilikləri, elmi-pedaqoji fəaliyyəti, beynəlxalq jurnallarda çap olunan məqalələrinin, dərsliklərinin, və s.) reytinq sıralaması tərtib edilir. Reytinq sıralamasında ilk 100 yeri tutan professor-müəllim heyətinin mükafatlandırılması planlaşdırılır.

Elmi Şuranın 27.12.2017-ci il qərarı ilə “Professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat” sənədi işlənmiş və rektor tərəfindən təsdiqlənmişdir. Bu təlimat kitabının hər il üçün nəşri həyata kecirilir. Eyni zamanda professor-müəllim heyəti üçün elmi məqalələrin impakt faktorlu beynəlxalq jurnallarda nəşrini təmin etmək məqsədilə stimullaşdırma sistemi tətbiq edilir. Belə ki, hər bir fakültənin elmi jurnalı, bundan əlavə HPC Mərkəzinin Azerbaijan Journal of High Performance Computing jurnalı, “Ümumi və tətbiqi riyaziyyat” kafedrasının isə Baku Mathematical Journalı təsis edilərək nəşr olunur (ADNSU özünütəhlil hesabatı). Professor-müəllım heyətinə yaradıcılıq fəaliyyətinə görə veriləcək əlavə maaşların hesablanması universitetin axtarış sistemi olan ELM-Təhsil Analitik Mərkəzi (ETAM) tərəfindən həyata keçirilir.

Eyni zamanda ATM-də akademik heyətin texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar mövcuddur. Belə ki, pandemiya dövründə onlayn təhsildə tədrisin səmərəliliyi məqsədilə müxtəlif internet resurslarından istifadəyə geniş yer verilmişdir. (Microsoft Teams, Zoom).

ATM-də akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar və onları dəstəkləyən sənədlər mövcuddur.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

ATM-də pandemiya dövründə akademik heyətin dərsləri Microsoft Teams, Zoom, platformaları üzərindən onlayn şəkildə (distant) təşkil olunmuşdur. Dərslər üzrə lazımi elektron materiallar tələbələr üçün Teams platformasında yerləşdirilmişdir. ATM-də akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlər keçirilmiş və müvafiq təlimatlar elektron qaydada əməkdaşlara təqdim edilmişdir. Pandemiya dövründə əməkdaşların elektron təhsil sistemindən istifadə etməklə onlayn dərsləri Teams platforması üzərindən təşkil olunmuşdur.

Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş

tövsiyələrdən biri universitetdə kadr hazırlığı sistemində distant təhsildən istifadə ilə bagli başlanılmış layihələndirmə işlərinin davam etdirilməsi və bu məsələyə diqqətin daha da artırılması olmuşdur.

Lakin Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrası və çatışmazlıqların aradan qaldırılması vəziyyətindən aydın olur ki, distant təhsilin təşkili istiqamətində hələ də konkret addımlar atılmamışdır.

Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlərin sistemli şəkildə keçirilməsinin təşkili tövsiyə olunur.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

Professor-müəllim heyətinin xaricdə ixtisaslarını artırmaları məsələsi universitetin 2021 – 2030-cu illəri əhatə edən Strateji İnkişaf Planına daxildir. ATM-in Ömürboyu təhsil mərkəzinə sahə baxışı zamanı əməkdaşlarla müsahibədən aydın oldu ki, ATM-də akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma kursları təşkil olunmur və bununla bagli struktur vahidi mövcud deyil. Bu məsələ tərəfdaş xarici universitetlərin rəhbərləri ilə dəfələrlə müzakirə edilsə də, onun həlli maliyyə təminatı tələb etdiyindən mövcud problemlər öz həllini tapmamışdır.

Lakin təlim-tədris prosesini müasir tələblərə uyğun təşkil etmək məqsədilə professor-müəllim heyəti mütəmadi olaraq stajkeçmə və təlim kurslarında iştiraka cəlb edilir. Akademik heyət üçün stajkeçmə Ömürboyu təhsil mərkəzi tərəfindən həyata keçirilir. Lakin mərkəzin nə əsasnaməsi, nə də fəaliyyət planı mövcud deyil. Mərkəz tərəfindən kafedralardan daxil olan təqdimatlar əsasında akademik heyətin 2020-2025-ci illər ücün nəzərdə tutulmuş stajkeçmə qrafiki tərtib edliir və sənəd şöbədə saxlanılır.

Müsahibələr zamanı ATM tərəfindən akademik heyət üçün mütəmadi olaraq ingilis dili və İT bacarıqlarının təkmlləşdirilməsi üçün kursların təşkil edildiyi bildirilmişdir. Professor-müəllim, işçi heyətinin bilik və bacarıqlarında olan boşluqlar müəyyən edilir, müvafiq olaraq onların fəaliyyət göstəricilərinin yüksəldilməsi üçün təlimlər təşkil edilir.

Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlərin sistemli şəkildə keçirilməsinin təşkili tövsiyə olunur.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

ATM-in akademik heyətinin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı bir çox hallada ADNSU-nun qoşuldugu beynəlxalq qrant layihələri hesabına maliyyələşdirilir və universitet tərəfindən dəstəklənir. İcra edilən layihələr ADNSU-nun tərəfdaşı olduğu, Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linkopinqs Universitetinin rəhbərliyi ilə icra olunan “Tərəfdaş universitetlərdə “Mobil tətbiqlərin və oyun dizaynı” magistr proqramlarının hazırlanması (MAGNUS)” adlı Erasmus+ KA2 layihəsi çərçivəsində aparılmışdır (https://asoiu.edu.az/file/26).

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Müsahibələr zamanı ATM-də Daxili Keyfiyyət təminatı sektoru tərəfindən hər semestrin sonunda ildə 2 dəfə elektron təhsil sistemi (LMS) vasitəsilə sorğular təşkil olunduğu qeyd edilmişdir. Tələbə sistemdə semestr ərzində topladıgı yekun balı görə bilməsi üçün mütləq şəkildə təqdim olunan sorğuda iştirak etməlidir. ATM-in Özünütəhlil Hesabatında mütəmadi olaraq ETAM, Tədris metodiki şöbə, fakültə dekanlıqları tərəfindən dövri monitorinqlərin aparıldıgı, fərqli kateqoriyalar üzrə sorğuların keçirildiyi qeyd edilsə də, bu sahədə təkmilləşdirmə işlərinin aparılmasına ehtiyac duyulur. Sorğuların keçirilməsi qaydalarını əks etdirən sənədin olması vacib məqamlardan biridir, lakin ATM tərəfindən “Sorğuların təşkili proseduru” sənədi komissiyaya təqdim edilməyib.

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyətini müəyyən edən meyarlardan biri açıq dərslərin təşkili və keçirilməsidir. Komissiyaya təqdim olunan hesabatda ATM-də mütəmadi olaraq akademik heyətin açıq dərsləri keçirildiyi qeyd olunur. Belə ki, Tədris-Metodiki Komissiya tədris prosesində dərslərin keyfiyyətini yoxlamaq məqsədilə fakültələr üzrə açıq dərslərə nəzarət komissiyaları, tədris prosesinin keyfiyyətinin artırılması məqsədilə komissiya daxili keyfiyyət təminatı mexanizmlərinin fəaliyyətini əks etdirir (Özünütəhlil Hesabatı). Hər bir kafedra üzrə açıq dərslərin qrafikləri tərtib olunur və kafedra iclaslarında müzakirəsi həyata keçirilir. Açıq dərslərin qiymətləndirmə meyarları ATM-də mövcud olsa da, müsahibə zaman açıq dərslərinin qiymətləndirilməsi prosesinin tam aydın olmadığı müəyyən edilmiş və Komissiyaya qiymətləndirmə meyarları sənədi təqdim edilməmişdir. Eyni kafedranın müəllimlərinin bir-birinin açıq dərslərində iştirak etməsi və qiymətləndirməsi subyektiv qiymətləndirməyə səbəb ola bilər. Tövsiyə olunur ki, qiymətləndirmədə keyfiyyətin təminatı üzrə struktur bölmə və dekanlığın əməkdaşları iştirak etsinlər.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ATM-də ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf yanaşma mövcuddur. Belə ki, bu bölgü AR Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli, 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” normativlərinə uyğun şəkildə həyata keçirilir. Professor-müəllim heyətinin dərs yükünün təyin edilməsi (auditoriya və auditroriyadan kənar) dərs saatlarının 40/60 nisbəti normativ tələblərə uyğunlaşdırılmışdır (https://edu.gov.az/az/printpage/13804).

**Cədvəl 3.7.7.1 Professor-müəllim heyətinin dərs yükünün bölgüsü**

| Tədris illəri | Ümumi yük, saat | Orta yük, saat | Təsdiq olunan ştat, nəfər | Kənardan dəvət olunan professor-müəllim heyətinin sayı | |
|---|---|---|---|---|---|
| | | | | Əvəzçi | Saathesabı |
| 2017/2018 | 394539,85 | 637,9 | 599,5 | 32 | 17 |
| 2018/2019 | 440017,55 | 639,1 | 639,75 | 45 | 33 |
| 2019/2020 | 459462,5 | 640,4 | 652,75 | 74 | 65 |
| 2020/2021 | 426037,27 | 620,2 | 645 | 79 | 56 |
| 2021/2022 | 455673,2 | 636,2 | 641 | 90 | 88 |
| 2022/2023 | 425112,1 | 612,2 | 614 | 87 | 132 |

Cədvəldən göründüyü kimi 2017/2018-ci tədris ili ilə 2022/2023-cü tədris ilinin müqayisəsi ümumi yükün artım dinamikasının oldugunu göstərir. Əvəzçi və saathesabı müəllimlərinin də sayında illər üzrə artımın olduğu müşahidə olunur.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

ADNSU-da 583 (UFAZ 37) nəfər ştatda olan professor müəllim heyətinin, əvəzçiliklə 122 nəfər, saathesabı qaydada 107 nəfər tədris prosesinə cəlb olunmuşdur. Tədris prosesində təhsilalanlarda bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə təkmilləşdirilməsi məqsədilə hər müəllimə düşən tələbə sayının beynəlxalq standart olan 1/15 nisbətinin gözlənilməsi əsas şərtlərdən biridir.

**Cədvəl 3.7.8.1 Professor-müəllim heyətinin tələbə sayına nisbəti**

| Fakültə | Professor-müəllim heyətinin sayı ştat/kənar | Tələbə sayı | Nisbət |
|---|---|---|---|
| Geoloji-kəşfiyyat | 38 / 31 | 1007 | 1:14,6 |
| Qaz-neft mədən | 79 / 43 | 2383 | 1:19,7 |
| Kimya-texnologiya | 101 / 58 | 1935 | 1:12,2 |
| Neft-mexanika | 50 / 21 | 1480 | 1:20,8 |
| Energetika | 55 / 13 | 1484 | 1:21,5 |
| İnformasiya texnologiyaları və idarəetmə | 154 / 81 | 4862 | 1:20,7 |
| İqtisadiyyat və menecment | 106 / 3 | 1561 | 1:14,3 |
| BA Proqramları, MBA | 18 / 81 | 569 | 1:5,7 |
| “Sabah” qrupları | (76) / 48 | 726 | 1:5,9 |
| Təkrar ali təhsil | (197) / 4 | 1514 | 1:7,5 |
| UFAZ | 37 / 16 | 679 | 1:12,8 |
| Worwik Universiteti ilə | - / 8 | 35 | 1:8,8 |
| Əcnəbilərin Hazırlıq kursları | (11) / - | 50 | 1:4,5 |
| **Cəmi** | **1045** | **18285** | **1:17,5** |

Cədvəldən də göründüyü kimi, Geoloji-kəşfiyyat fakültəsi üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/14,6, Qaz-neft mədən fakültəsi üzrə sözügedən nisbət 1/19,7, Kimya-texnologiya fakültəsi üzrə nisbət 1/12,2, Neft-mexanika fakültəsi üzrə nisbət 1/20,8, Energetika fakültəsi üzrə 1/21,5, İnformasiya texnologiyaları və idarəetmə fakültəsi üzrə 1/20,7, İqtisadiyyat və mencment fakültəsi üzrə nisbət 1/14,3, BA Proqramları, MBA üzrə 1/5,7, “Sabah” qrupları üzrə 1/5,9, Təkrar ali təhsil üzrə 1/7,5, UFAZ üzrə 1/12,8, Worwik Universiteti ilə 1/8,8, Əcnəbilərin Hazırlıq kursları isə 1/4,5 olmuşdur.

Universitetinin bütün fakültələrində 2022/23-cü tədris ili üzrə ümumi professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/17,5 olmuşdur.

Lakin, təhlil göstərir ki, beynəlxalq standart olan 1/15 nisbət göstəricisi, müəyyən fakültələrdə 1/19 səviyyəsindən 1/21 səviyyəsinə qədər yüksəlmişdir. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyətinin optimallaşdırılması tövsiyə olunur.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Hal-hazırda ATM üzrə ştatda olan professor-müəllim heyətinin və sabit kadr potensialının oldugu müşahidə olunur. Bu isə sabit kadr potensialının və dayanıqlı professor-müəllim heyətinin sayının yüksək olmasının göstəricisidir.

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 80%-dən çoxunun əsas iş yerini ADNSU təşkil edir. Belə ki, ATM-də 583 (UFAZ 37) nəfər ştatda olan professor müəllim heyəti, əvəzçiliklə 122, saathesabı qaydada 107 nəfər tədris prosesinə cəlb olunmuşdur.

**Cədvəl 3.7.9.1. Akademik heyətin illər üzrə sayı (Özünütəhlil Hesabatı).**

| İllər | Akademik heyətin sayı (tədris ili üzrə) | Elmlər doktoru | Professor |
|---|---|---|---|
| 2017/2018 | 573 | 66 | 50 |
| 2018/2019 | 564 | 71 | 50 |
| 2019/2020 | 571 | 64 | 47 |
| 2020/2021 | 579 | 64 | 48 |
| 2021/2022 | 563 | 53 | 34 |
| 2022/2023 | 570 | 46 | 31 |

Cədvəldən də göründüyü kimi, 2017/2018-ci tədris ili ilə 2022/2023-cü tədris ilinin müqayisəsi zamanı professorların akademik heyətdə nisbəti dinamikasının aşagı düşdüyü müşahidə olunur.

**Cədvəl 3.7.9.2. Akademik heyətin illər üzrə sayı (Özünütəhlil Hesabatı)**

| İllər | Akademik heyətin sayı (tədris ili üzrə) | Elmi dərəcəsi olanlar | Elmi dərəcəsi olanların akademik heyətə olan nisbəti %-lə |
|---|---|---|---|
| 2017/2018 | 573 | 348 | 60,7 |
| 2018/2019 | 564 | 321 | 56,9 |

| | | | |
|---|---|---|---|
| 2019/2020 | 571 | 332 | 58,1 |
| 2020/2021 | 579 | 331 | 57,1 |
| 2021/2022 | 563 | 306 | 54,4 |
| 2022/2023 | 570 | 358 | 62,8 |

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ADNSU-nun Özünütəhlil Hesabatında kənardan cəlb edilən professor-müəllim heyətinə tələbatın olduğu qeyd edilmişdir. Xüsusən də müasir ixtisaslar üzrə gənc kadrlara, eləcə də SABAH qruplarında müsabiqə yolu ilə əvəzçiliklə xaricdən müəllimlərin cəlb olunmasına xüsusi önəm verilir.




**Şəkil 3.7.10.1 Akademik heyət (saathesabı, əvəzçi)** *(Diaqramdakı məlumatlar Tədris departamenti tərəfindən təqdim edilmişdir.)*

Təhlillər göstərir ki, 2017/2018-ci tədris ilində tədris prosesinə 32 əvəzçi, 17 saathesabı müəllim cəlb edilmişdirsə, 2022/2023-cü tədris ilində isə əvəzçi müəllimlərin sayı 87, saathesabı müəllimlərin sayı 132 olmuşdur. 2022/2023-cü tədris ilində cəlb edilmiş əvəzçi akademik heyətin ümumi akademik heyətdə payı 15,2%, cəlb edilmiş saathesabı akademik heyətin ümumi akademik heyətdə payı 23,2%-dir. UFAZ-da pedaqoji heyətin 37 nəfəri tam ştatda, 4 nəfər əcnəbi müəllim daimi, 12 nəfər isə saathesabı qaydada işləyir.

İllər üzrə aparılan təhlilə əsasən kənardan dəvət olunan müəllim sayında artım dinamıkasının olduğu müşahidə edilir.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

ATM-də professor-müəllim heyətinin elmi və pedaqoji fəaliyyətinin qiymətləndirilməsi məqsədilə Elmi Şuranın 2017-ci ildə “Professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat” sənədi işlənmiş və rektor tərəfindən təsdiqlənmişdir. Bu təlimat kitabının hər il üçün nəşri həyata kecirilmişdir. Əlavə maaşın verilməsi üçün müsabiqə

universitetin nəzdindəki Elm və Təhsil Analitik Mərkəz (ETAM) tərəfindən aparılır. Bu məslənin müzakirəsi hər il Elmi Şurada keçirilir və müvafiq qərarlar qəbul edilir (25 yanvar 2023-cü il, 07 saylı protokol). "ADNSU-nun professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün Təlimat"a əsasən 2023-cü il üçün əlavə maaşın verilməsinin mümkünlüyü və miqdarı iddiaçının son 12 ayda (01.01.2022-31.12.2022) əldə etdiyi elmi-pedaqoji nailiyyətlərdən asılıdır və xüsusi metodikaya əsasən müəyyən olunur. ETAM müsabiqəyə təqdim olunmuş sənədləri araşdırıb nəticələri iddiaçılara elan edir.

Ümumi fəaliyyət balı:

- Professor-40-80 bal
- Dosent- 35-65 bal
- Elmi dərəcəli assistent-30-55 bal
- Elmi dərəcəsi olmayan assistent-25-45 bal

Bundan başqa, ingilis dilində tədris aparan müəllimlərin illik tədris yükü 500 saat həcmində planlaşdırılır və tədris olunan saatlara görə əmək haqqı 1,5 əmsalla verilir.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ADNSU-da professor-müəllim heyətinin təxminən 2,5%-i (15 nəfər) xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş və dünyanın müxtəlif ATM-lərində təcrübə keçmiş professor-müəllim heyətidir.

**Cədvəl 3.7.12.1. Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş akademik heyət.**

| İl | Akademik heyətin sayı | Xarici ölkələrin təhsil müəssisələrindən məzun olmuş akademik heyətin sayı | Xarici ölkələrin təhsil müəssisələrindən məzun olmuş akademik heyətin ümumi akademik heyətdə payı (%) |
|---|---|---|---|
| **2023** | 583 | 15 | 2.5 |

ATM-ə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş akademik heyətin sayının artırılması üçün müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

## 3.8 Tələbəyönümlü tədris

### 3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

ATM-də hər bir tələbənin fərdi tədris planı mövcuddur. Belə ki, Komissiya tərəfindən tələbələr arasında aparılan sorğuya əsasən "Tədris ili ərzində təhsil alacağınız fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planı mövcuddurmu?" sualına cavab aşağıdakı kimi cavab verilmişdir.




**Şəkil 3.8.1.1 Tədris ili ərzində fərdi tədris planının mövcudluğu haqqında sorğu nəticəsi**

Özünütəhlil Hesabatında təhsilalanların fərdi tədris planlarının tərtib edilməsində bilavasitə iştirak etdikləri qeyd olunur. Sahə səfərində ATM-in akademik məsləhətçiləri (tyutorları) ilə müsahibə zamanı, eyni zamanda Akkreditasiya Komissiyasının tələbələr arasında keçirdiyi anonim sorğular zamanı məlum oldu ki, tələbələr fərdi tədris planının tərtibi ilə bağlı məlumatlıdırlar və bu prosesdə akademik məsləhətçilərdən dəstək alırlar.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyi qismən təmin olunur. Belə ki, müsahibələr zamanı məlum olmuşdur ki, tyutorlar tələbələrə seçmə fənlərin adlarını təqdim edir və onlara hansı fənni seçmək istədikləri ilə bağlı məsləhət verirlər. Aralarında ziddiyyət olduğu təqdirdə, səs çoxluğu ilə fənn təyin olunur. Komissiya tərəfindən aparılan sorğuda “Sərbəst şəkildə istədiyiniz seçmə fənni seçə bilirsinizmi?” sualı aşağıdakı kimi cavablandırılmışdır:




**Şəkil 3.8.2.1 Seçmə fənlərin seçiminin mümkünlüyü barədə sorğu nəticəsi**

Diaqramdan göründüyü kimi, seçmə fənlərin sərbəst şəkildə seçilməsi ilə bağlı sorğunun nəticəsinə əsasən tələbələrin əksəriyyəti (59%) seçmə fənləri sərbət şəkildə seçmədiyi müəyyənləşdirilmişdir.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

"Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il 348 saylı Qərarına əsasən təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyi təmin edilməsi bildirilir. Lakin, sahə görüşlərindən məlum olmuşdur ki, ATM-də tyutorlar və təhsilverənlər tərəfindən Bolonya prinsipinə uyğun olaraq tələbələrə seçim sərbəstliyi təmin edilmir.

ATM-in təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçim sərbəstliyinin təmin edilməsi tövsiyə edilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Tələbələr arasında anonimlik qorunmaqla rəy sorğuları keçirilir. Sorğular onlayn şəkildə keçirilir və komissiya tərəfindən nəticələrə baxılır, nəticələrə uyğun olaraq addımlar atılır. Sorğular UNİBOOK da aparılır. Bunun təsdiqi özünü Komissiya tərəfindən aparılan sorğuda "Universitet tərəfindən tədrisin keyfiyyətindən məmnunluğunuzu ölçmək üçün sorğular aparılırmı?" sualına cavabda da görmək olar.




**Şəkil 3.8.4.1. Tədrisin keyfiyyətindən tələbələrin məmnunluğuyla bağlı sorğu nəticəsi**

Diaqramdan göründüyü kimi universitet tərəfindən tələbələrin tədrisin keyfiyyətindən məmnunluğunun öyrənilməsi məqsədilə sorğular aparılır (84%). ATM tərəfindən təqdim olunan sorğu nəticələrinin hesabatı fayllarına əsasən rəy sorğuları fənlər üzrə tədris materiallarının vəziyyəti, keyfiyyət, müəllimin qiymətəndirilməsi, məmnunluq və s. üzrə aparılır.

Komissiya tərəfindən tələbələr arasında aparılan sorğuda məlum olmuşdur ki, 66% - sorğuların semestrdə bir dəfə, 19% isə “ildə bir dəfə” keçirilir kimi cavablandırmışdır. Müsahibələr zamanı ATM-də sorğuların sessiya sonu LMS sistemi vasitəsilə aparıldığı bildirilmişdir. Rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası ETAM tərəfindən aparılır və nəticələr müvafiq orqanlara təqdim edilir.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-in təqdim etdiyi Özünütəhlil Hesabatında universitetdə tələbə və məzunların təklifləri əsasında qərarların qəbul edildiyi göstərilmişdir. Bu təkliflər əsasən əmək bazarına hazırlıq üçün gündəlik təcrübələrin təşkili, müxtəlif layihələrdə iştirak kimi məsələləri əhatə etməsi qeyd olunsa da, bunu təsdiq edəcək sənədlər təqdim edilməmişdir.

Qeyd etmək lazımdır ki, müsahibələr zamanı tələbələr onların rəyləri əsasında qərar qəbul edilmədiyini bildirmişlər. Həmçinin Komissiya tərəfindən keçirilən sorğuda “Universitet tərəfindən önəmli qərarlar alınarkən tələbələrin fikri öyrənilirmi?” sualı aşağıdakı kimi cavablandırılmışdır:




**Şəkil 3.8.5.1 Universitet tərəfindən önəmli qərarlar alınarkən tələbələrin fikrinin öyrənilməsi barədə sorğu nəticəsi**

ATM-də tələbə və məzunların təklifləri əsasında yeniliklərin (qərarların) tətbiq edilməsi tövsiyə edilir.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

ADNSU tərəfindən aparılan sorğular sistemli şəkildə ETAM tərəfindən toplanılır. Sahə görüşündə məlum oldu ki, sorğu nəticələri toplanaraq rəhbərliyə, dekanlıqlara ötürülür. Bu nəticələrin analizi və qərarvermə prosesindəki istifadəsini təsdiqləyəcək sənəd(lər) Komissiyaya təqdim edilməmişdir. Qeyd etmək lazımdır ki, ATM-də aparılan sorğu,

monitorinq və digər proseslərin analizi, dinamikası və təhlilinə ehtiyac vardır.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Dekanlıqlara sahə səfəri zamanı müəyyən olunmuşdur ki, tələbələr rəhbərlik və dekanlarla görüşməkdə sərbəstdirlər, onların şikayət və təkliflərini bildirmələri üçün universitetin binalarında qutular yerləşdirilib. Həmçinin LMS-də tələbələrin müəllimlərini qiymətləndirməsi mexanizmi mövcuddur. Bunlarla yanaşı ATM tərəfindən anonim sorğular aparılır. 3.8.6-da qeyd olunduğu kimi bu məlumatlar ETAM təfərindən toplanlır və statistik nəticələr aidiyyəti qrumlara ötürülür.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər (tyutor) mövcuddur. Komissiya sahə səfərində onların fəaliyyətləri ilə yaxından tanış olmuş, müsahibələr zamanı onların fəaliyyəti ilə bağlı suallar ünvanlanmışdır. Bununla yanaşı akademik məsləhətçilərin (tyutorların) fəaliyyəti universitetin Elmi Şurasının 23.02.2022-ci il tarixli iclasında (Protokol № 7) qəbul olunmuş “Akademik məsləhətçilərin vəzifə təlimatı” əsasında həyata keçirilir. Həmçinin, tyutor xidmətinin əsasnaməsi mövcuddur. Bu əsasnamə ADNSU-nun Elmi Şurasının 28 aprel 2016-cı il tarixli iclasında (Protokol № 10) qəbul edilmişdir.

Tyutorlar magistr dərəcəsi (ADNSU-da magistratura təhsili alan), bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan şəxslərdən seçilir. Tyutor bu vəzifəyə rektorun əmri ilə təyin olunur və dekanlığın tərkibində fəaliyyət göstərir.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tyutorlarla müsahibələr zamanı onların dərslərdə iştirak etdikləri, dərs cədvəllərini qurub UNİBOOK-a yerləşdirdikləri, tələbələrin dərslərə qeydiyyatı və s. məsələlərlə bağlı tələbələrə dəstək göstərdikləri məlum olmuşdur. Eyni zamanda, tyutorlar WhatsApp vasitəsilə tələbələrlə mütəmadi olaraq əlaqə saxlayırlar. Komissiya tərəfindən aparılan sorğuda “Akademik məsləhətçinizin dəstəyini necə qiymətləndirirsiniz?” sualına cavabdan görmək olar ki, tələbələrin 55% tyutorların işini “çox faydalı” və ya “faydalı” olaraq qiymətləndirmişdilər.




**Şəkil 3.8.9.1 Akademik məsləhətçilərin tələbələrə dəstək göstərməsi barədə sorğu nəticələri**

Diaqramdan göründüyü kimi akademik məsləhətçilərın (tyutorların) işinin səmərəli təşkil edildiyi müşahidə olunur.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Sahə səfəri zamanı tyutorlarla müsahibələrdə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alındığı bildirilmişdir. Zəruri hallarda elektron sistemin imkanlarından istifadə olunur. Lakin onların auditoriyalarda, kitabxanada rahat hərəkət etmələrini təmin edəcək xüsusi təminat və eləcə də universitet binasının pilləkənlərində əlil arabaları üçün xüsusi sistemin olmadığı müəyyən edilmişdir. Belə ki, “Universitetdəki şərait və dərslərin formatı sağlamlıq imkanları məhdud olan tələbələr üçün uyğundurmu?” sualı aşağıdakı kimi qiymətləndirilmişdir.




**Şəkil 3.8.10.1 Universitetdəki şərait və dərslərin formatı sağlamlıq imkanları məhdud olan tələbələr üçün uyğunluğunun vəziyyəti barədə rəy sorğusu nəticəsi**

Sorğu olunan tələbələrin 44%-i bu suala “əmin deyiləm”, 20%-i “xeyr”, 34%-i “bəli” kimi cavab vermişdir. Komissiya tərəfindən aparılan sorğu nəticələri bu sahədə əsaslı işlərin aparılmasına ehtiyac olduğunu göstərir.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ATM-də sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı müvafiq normativ tələblər çərçivəsində təmin edilir. Bu tələbələrin Təhsil Tələbə Krediti Fondu, Azərbaycan Respublikası Prezidentinin yanında Gənclər Fondu kimi qurumlarının təklif etdiyi imkanlardan yararlanmalarına köməklik göstərəcək məsul şəxslər qismində fakültə dekanları təyin edilmişdir. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyətini özündə əks etdirən sənəd və ya təlimat Komissiyaya təqdim edilməmişdir.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Təhsilalanlara tədris göstəricilərinə görə təqaüdlərin verilməsi mövcud qanunvericilik əsasında aparılır (https://e-qanun.az/framework/32086). Özünütəhlil Hesabatında universitetin Elmi Şurası tərəfindən çox sayda adlı təqaüdlərin təsis edildiyi qeyd olunsa da, təqaüdlərin veilməsi dinamikasını göstərəcək məlumatlar təqdim olunan materiallarda öz əksini tapmamışdır.

Komissiya tərəfindən tələbələr arasında keçirilən sorğuda “Tələbə mübadilə proqramlarında iştirak haqqında məlumatlısınızmi?” sualı belə cavablandırılmışdır.




**Şəkil 3.8.12.1 Tələbə mübadilə proqramlarında iştirak haqqında məlumatlandırma barədə sorğusu nəticələri**

Diaqramdan göründüyü kimi sorğuda iştirak edən tələbələrin 49%-i tələbə mübadilə proqramları barədə məlumatlı deyillər, 29%-i qismən məlumatlı, 22%-i məlumatlıdırlar.

## 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ADNSU-da təhsil proqramları monitorinqi və təkmilləşdirilməsi üzrə fəaliyyətlər ATM-in inkişaf strategiyasında aşağıda qeyd olunan bəndlərdə əks olunmuşdur:

- Tədris planlarının, fənn proqramlarının yenilənməsi və onun tədris-metodiki baza təminatının yaxşılaşdırılması;

- Tədrisin məzmununun əmək bazarının və sənaye müəssisələrinin tələblərinə müvafiq olaraq təkmilləşdirilməsi.

Monitorinq çərçivəsində tələbələrin üstünlük verdiyi proqramlar, təhsil proqramlarının məzmunu, mənimsəmə nəticələri, dünya universitetlərinin təcrübələri, müasir əmək bazarı tələbləri nəzərə alınır. Bu proses kafedra səviyyəsində başlayır, daha sonra fakültə iclaslarında müzakirə olunur, sonda isə ADNSU-nun Elmi Şurasında müzakirə edilir və təsdiq olunur. Təhsil proqramlarının monitorinqi üzrə ayrıca təsdiq olunmuş strategiya, fəaliyyət planına və ya təhlil mexanizmini əks etdirən təlimat Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

ATM-də fakültələr üzrə vahid təlim nəticələrinin təhlili və monitorinqi mexanizmi tətbiq olunmur. Mənimsəmənin təkmilləşdirilməsi və qiymətləndirmənin obyektiv yoxlanılması istiqamətində işlərin görülməsi və mexanizmin yaradılması, sillabusların təkmilləşdirilməsi, ADNSU-nun Elmi Şurasının 2023-2024-cü tədris ili üçün fəaliyyət planına daxil edilib.

Təlim nəticələrini ölçmək məqsədilə kafedralarda açıq dərslərin qiymətləndirilməsi təşkil olunur, imtahan sualları müvafiq qərargahın nəzarətindən keçir, yekun sessiyanın nəticələri təhlil olunur. İmtahan sessiyaları üzrə nəticələrin müzakirəsi Elmi Şuranın illik iş planlarında təsdiq edilmişdir.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Təhsil proqramlarının təkmilləşdirilməsi təsdiq olunan tədris proqramlarına yeni fənlərin əlavə olunması ilə müşahidə edilir. Müasir əmək bazarında tələb olunan istiqamətlər üzrə fənlərin tədris planlarına əlavə edilməsi Elmi Şuranın protokollarında öz əksini tapır. Eyni zamanda bir sıra ixtisaslarda fənn qiymətləndirilməsi ilə bağlı təkmilləşdirilmə üzrə fəaliyyətlər aparılmışdır. Lakin Akkreditasiya Komissiyasının tələbələr arasında keçirdiyi sorğuya əsasən bir sıra tələbə ixtisasları üzrə əmək bazarında tələb olmayan əlavə fənlərin tədris edildiyini qeyd etmişdir. Təhsil proqramlarının monitorinqini səmərəli təşkil etmək məqsədilə maraqlı tərəflərin cəlb edildiyi mexanizmin hazırlanması tövsiyə edilir.

Daxili Keyfiyyət Komissiyasının hesabatına əsasən tədris planlarının nəzərdən keçirilməsi istiqamətində ixtisaslar üzrə müəyyən işlər görülmüşdür. Bu kimi fəaliyyətlərin keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması ilə bağlı hər hansı bir dəstəkləyici sənəd təqdim edilməmişdir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ADNSU-da tədris olunan təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş proqramların təsnifatına əsasən hazırlanır. Təhsil proqramların illik özünüqiymətləndirmə hesabatları

təqdim edilməmişdir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Tədris planlarına əmək bazarı tələblərinə uyğun olan yeni fənlərin əlavə olunması ANDSU-nun Elmi Şurasının protokollarında öz əksini tapmışdır. Əmək bazarının tələbləri müasir tendensiyaların nəzərdən keçirilməsi, dünya universitetlərin təcrübəsinin izlənməsi və işəgötürən şirkətlərlə keçirilən görüşlər vasitəsilə aparılır. Lakin kurikulumlara və sillabuslara baxış, tələbələr arasında keçirilən sorğular və səfər müddətində keçirilən müsahibələr nəticəsində bu işin bütün ixtisaslar üzrə vahid mexanizm üzrə aparılmaması müşahidə edilmişdir.

## 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ADNSU-nun Məzun-karyera mərkəzinin əsasnaməsi və təsdiq edilmiş strukturu mövcud deyil. Bu xidmət UFAZ və ADNSU-da ayrı meyar və kriteriyalar, tələblər və yanaşmalarla fəaliyyət göstərir. ADNSU-dakı məzunlarla iş ilə bağlı bir çox məsələnin icrası İctimaiyyətlə əlaqələr və marketinq departamentinə həvalə edilmişdir. Həmin departamentin fəaliyyəti təsdiq edilmiş əsasnamə üzərində qurulmadığından strukturlar arasında funksional qarışıqlıq mövcuddur. Karyera və məzunlarla iş mərkəzinin strukturlu və əsaslandırılmış formada təşkil edilməsi məqsədəuyğundur.

Karyera mərkəzi tərəfindən öz imkanları hesabına məzunlarla iş üçün platforma yaradılsa da, ATM tərəfindən təsdiqlənməmişdir.

ADNSU-da 2010-cu ildən etibarən sosial şəbəkə hesabları da daxil olmaqla 12000-ə yaxın məzunun məlumatları toplanmışdır. Hər dekanlıqda mərkəzin təmsilçisi mövcuddur.

Məzunlarla iş və əmək yarmarkaları ilə bağlı iş funksiyaları İctimaiyyətlə əlaqələr və marketinq departamenitinin tərkibindən çıxarılması məqsədəuyğundur.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Həm ADNSU-da, həm də UFAZ-da məzun və tələbələrə karyera məsləhətləri xidmətləri təşkil edilmişdir. UFAZ-ın məzun və tələblərinin sayı az olduğundan iş həcminin verdiyi fürsətlər baxımından bu iş UFAZ-da daha sistemli və planlı təşkil edilmişdir. ADNSU-da məsləhət xidmətlərinin daha sistemli, daha planlı və daha da çox məzuna əlçatan olmaqla təşkil edilməsi məqsədəuyğundur.

ADNSU-da və UFAZ-da ümumi say nəzərə alındıqda kifayət qədər məzunun elektron poçt və əlaqə vasitələrindən ibarət baza mövcuddur. Həm ADNSU, həm UFAZ-da mərkəz sosial şəbəkə kanallarından və ümumi istifadədə olan mobil tətbiq imkanlarından aktiv istifadə edir. Məzun Karyera Mərkəzinin işlərinin təkmilləşdirilməsi məqsədilə Universitet tərəfindən dəstək göstərilməsi tövsiyə edilir. Belə ki, proqram təminatı kimi tətbiq və texniki imkanlardan

istifadə imkanlarının yaradılması Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi üçün məqsədəuyğundur.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

UFAZ məzunların iş yerlərinin qeydiyyatı ilə bağlı ildə 2 dəfə sorğu aparır. UFAZ-da məzunların sayının az olması onlarla daha planlı işləmək imkanları yaradır. Hər iki qurumda bununla bağlı statistika aparılmaqdadır. Məzun yarmarkaları təşkil edilir və bu yarmarkalarda işin nəticəsinə dair statistik məlumatlar toplanılır. Yarmarkaların işinin nəticələri təhlillərlə zənginləşdirilməli, ATM-in imici ilə yanaşı, məzunların karyera imkanlarını genişləndirilməli, eləcə də işəgötürənlərin real tələblərinin ödənilməsinə xidmət etməlidir.

Məzunların işlə təmin olunma statistikası ilə bağlı təcrübə və ya iş yerləri ilə bağlı şirkətlərdən məlumat alınır. Məzunların işlə təmin edilməsi üçün, xüsusilə də tələbələrin iş həyatına hazırlığı üçün xüsusi proqramlar mövcud deyil.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Müsahibələr zamanı məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı sorğunun keçirilmədiyi üçün nəticələr ilə işlənilmədiyi müəyyən edilmişdir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Həm ADNSU, həm də UFAZ-da məzunlarla əlaqənin qurulması məqsədilə ekektron baza mövcuddur və bu baza davmalı olaraq genişləndirilir, yenilənir. Bu məsələ ilə bağlı tətbiq edilən platformaların birləşdirilməsi və ADNSU-nun planlı dəstəyi çərçivəsində təkmilləşdirilməsi tövsiyə edilir.

# 4.ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ADNSU-nun Elmi Şurasının 31.03.2021-ci il tarixli iclasının 7 nömrəli protokolu ilə təsdiq edilmiş "ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası"nda 10 bənddən ibarət ayrıca "Elmi fəaliyyət" adlı bölmə vardır. Bu Strategiyaya uyğun "ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası üzrə Fəaliyyət Planı" da hazırlanmışdır. Hər iki sənəd ADNSU-nun rəsmi saytında yerləşdirilmişdir.

Bununla yanaşı, ADNSU-nun Elmi Şurasının 24.11.2021-ci il tarixli iclasının 3 nömrəli protokolu ilə 3 bölmədən ibarət "ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası" təsdiq edilmişdir (Özünütəhlil Hesabatında bu haqda heç bir şey qeyd edilməsə də, bu sənəd Akkreditasiya Komissiyasına təqdim edilmişdir).

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

"ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası"nda yer almış ümumi müddəalar, innovativ elmi-tədqiqat fəaliyyəti, universitet-sənaye iş birliyi, universitet texnoparklarının yaradılması və startap ekosisteminin inkişaf etdirilməsi kimi prioritet olaraq müəyyən edilmiş fəaliyyətlər bütövlükdə ADNSU-nun missiyasına və hədəflərinə uyğun hazırlanmışdır.

Həmçinin "ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası"ndakı "Elmi fəaliyyət" adlı bölmədə qeyd olunmuş müddəalar da ADNSU-nun missiyasına və hədəflərinə çatmağa xidmət edir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

"ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası"nda ADNSU-nun "milli tədqiqat univertsiteti"nə çevrilməsi, qlobal, yüksək rəqabətli, ən vacib elmi istiqamətlərin IV Sənaye İnqilabı tələblərinə uyğunlaşdırılması, doktoranturada mövzu seçiminin müasir dövrün aktual məsələlərinin və IV Sənaye İnqilabının tələblərinə uyğunlaşdırılması, strateji hədəflər kimi müəyyən edilmiş, təşviq mexanizmi kimi professor-müəllim heyətinin elmi dərəcələr və vəzifələr əldə etməsi prosesində bal sisteminin tətbiqi, əmək haqqının diferensiallaşdırılması və s. məqsəd və hədəflər nəzərdə tutulmuşdur. Eyni zamanda, "ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası"nda universitet-sənaye işbirliyinin, universitet texnoparklarının yaradılması, startap ekosisteminin inkişaf etdirilməsi kimi məsələlər də yer almışdır.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

“ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası”nda əksini tapmış elmi-tədqiqat məqsədləri və fəaliyyətləri “ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”nda qeyd olunan orta və uzun müddətlər üçün nəzərdə tutulan hədəflərə uyğundur.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

“ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası”nda tədris prosesinin tədqiqatlarla üzvi şəkildə bağlılığı, praktik biliklərin verilməsinin diqqətdə saxlanılması, Təhsil proqramlarının Akkreditasiyası Agentliyinin (ASIIN) və Beynəlxalq Biznes İnzibatçılığı Akkreditasiyası Fondunun (FIBAA) tədqiqatlarının nəticələrinin tədrisdə nəzərə alınması xüsusi qeyd edilsə də, “ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”ndakı “Elmi fəaliyyət” adlı bölmədə bu barədə qeyd yoxdur.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Sözügedən inkişaf strategilayalarından heç birində professor-müəllim heyətinin performansının nəzərə alınmasını əks etdirən açıq mətn şəklində müddəalar yoxdur. Lakin “ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”nda professor-müəllim heyətinin elmi dərəcələr və vəzifələr əldə etməsi prosesində bal sisteminin tətbiqi, əmək haqqının differensiallaşdırılması kimi məqsəd və hədəflərin müəyyən edilməsini bu indikatora aid etmək olar. Eyni zamanda, “ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası”nda yer alan “Beynəlxalq səviyyəli elmi jurnallarda nəşrlərin və konfransların təşkili” yarımbölməsində də müəyyən dərəcədə bu məsələyə yer verilir.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

“ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası” ADNSU-nun rəsmi veb-saytında – “Rəsmi sənədlər” bölməsində yerləşdirilmişdir. “ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası” isə saytda yerləşdirilməmişdir. Bu isə onun ADNSU-nun akademik heyəti, həmçinin universitetin tərəfdaşları üçün əlçatanlığına mane olur. Sözügedən hər iki Strategiyanın xarici tərəfdaşlar üçün də əlçatan olmasını təmin etmək üçün onların ingilis dilinə tərcümə olunmuş variantlarının da hazırlanması və saytda yerləşdirilməsi məqsədəuyğun olardı.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatından və sahə görüşləri zamanı aparılmış müsahibələrdən bəlli olur ki, Strategiyanın hazırlanması üçün xüsusi işçi qrup yaradılmış, ADNSU-nun müvafiq struktur bölmələrinin, o cümlədən dekanlıq və kafedraların rəyləri öyrənilmiş, elmi şura və işçi iclaslarda müzakirələr aparılmış, əmək bazarı və sənayenin maraqlarına diqqət yetirilmiş, universitet-sənaye əməkdaşlığına xüsusi önəm verilmişdir, ümumiyyətlə, bütün maraqlı tərəflərin iştirakı üçün müvafiq şərait yaradılması təmin edilmişdir. Lakin qeyd olunanlar, əsasən, şifahi formada edilmiş, bu barədə sənədləşmə lazımi səviyyədə aparılmamışdır, belə ki, Akkkreditasiya Komissiyasına bunları təsdiqləyən protokol və ya yazılı heç bir sənəd təqdim edilməmişdir.

## 4.2 Tədqiqat resursları

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən “Neftin-qazın geotexnoloji problemləri və kimya” elmi-tədqiqat İnstitutu, 2 elmi-tədqiqat laboratoriyası (“Nanomateriallar və nanotexnologiyalar” elmi-tədqiqat laboratoriyası və “Sənayedə və iqdisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri” elmi-tədqiqat laboratoriyası), müxtəlif elmi-tədqiqat mərkəzləri və konstruktor bürosu fəaliyyət göstərmişdir. Onların maddi və texnoloji resursları, eləcə də ADNSU-nun büdcəsindən ayrılan maliyyə resursları ümumilikdə ADNSU-nun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğun olaraq istifadə edilmişdir.

Lakin Akkreditasiya Komissiyasına təqdim edilmiş ”Maliyyə təminatı” sənədinin fraqmenti olan aşağıdakı cədvəldən göründüyü kimi, ADNSU-nun büdcəsindən elmi-tədqiqata ayrılan vəsaitdə 2020-ci ildən sonra azalma dinamikası müşahidə olunur (həm vəsaitin miqdarında, həm də bu fəaliyyətə ayrılan vəsaitin ADNSU-nun ümumi büdcəsində payında).

**Cədvəl 4.2.1.1 Elmi tədqiqata ayrılan maliyyə vəsaiti (”Maliyyə təminatı” sənədinə əsasən)**

| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən | 331076,00 | 385910,00 | 412192,00 | 460856,00 | 393041,00 | 257477,00 | 263088,00 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ayrılan vəsait, manat | | | | | | | |
| Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı | 1,59 | 1,55 | 1,36 | 1,28 | 0,87 | 0,43 | 0,36 |

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Aşağıdakı cədvəldən də göründüyü kimi, akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da professor-müəllim heyətinin sayı 563–583 nəfər arasında, o cümlədən elmi dərəcəsi olan əməkdaşların sayı 306–358 nəfər arasında olmuşdur:

**Cədvəl 4.2.2.1 Professor-müəllim heyətinin mövcudluğu**

| İllər | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2021 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Professor-müəllim heyətinin ümumi sayı | 573 | 564 | 571 | 579 | 563 | 583 |
| Elmi dərəcəsi olan əməkdaşların sayı | 348 | 321 | 332 | 331 | 306 | 358 |

Professor-müəllim heyətinin böyük əksəriyyəti öz kafedralarında aparılan beşillik planlı elmi-tədqiqat işlərində, elmi-tədqiqat xarakterli müxtəlif qrant layihələrində iştirak edirlər. Hazırda doktoranturada təhsil alan və öz dissertasiya mövzusu üzrə elmi-tədqiqat aparan 305 nəfər doktorant və dissertantın 80 nəfərə yaxını bilavasitə ADNSU-nun kafedralarında, əsasən, müəllim kimi çalışırlar. Həmçinin "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunda və 2 elmi-tədqiqat laboratoriyasında çalışan əməkdaşların bir hissəsi həm də professor-müəllim heyətinin üzvü  kimi tədrislə məşğul olurlar. Bütün bunlar, ən əsası isə, elmi nəşrlərdə dərc olunan məqalələrin sayı bariz şəkildə göstərir ki, ADNSU-da aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyəti mövcuddur.

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

ADNSU-da aktiv elmi tədqiqatla məşğul olan gənc doktorant və dissertantların fəaliyyəti bilavasitə Doktorantura şöbəsi tərəfindən, magistrantların fəaliyyəti fakültələrdəki magistratura bölmələri tərəfindən koordinasiya edilir. Eyni zamanda, elmi-tədqiqat institutunda və laboratoriyalarında çalışan gənc tədqiqatçılar da həmin laboratoriyaların əməkdaşları ilə birgə mütəşəkkil komanda şəklində müvafiq mövzular üzrə aktiv elmi tədqiqatla məşğul olurlar. Tədqiqata meyli və potensialı olan tələbələr üçün Tələbə Elmi Cəmiyyəti, Startap  Mərkəzi təşkilati dəstək verir.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ADNSU-da tədqiqatçıların Web of Science və Scopus kimi mühüm beynəlxalq elmi məlumat bazalarına çıxışı təmin olunmuşdur. Eyni zamanda ADNSU-nun Əsaslı kitabxanasının bazasında yaradılmş "AzİI e-Kitab Evi" fasiləsiz (24/7) rejimdə fəaliyyət göstərməklə tədqiqatçılara xidmət göstərir. Azərbaycan Kitabxanalararası Konsorsiumun üzvü olan "AzİI e-Kitab Evi" həmin Konsorsiumun xətti ilə "EBSCO" beynəlxalq nəşriyyat bazasına abunə olmuşdur və həmin bazanın universitet üzrə informasiya təminatçısıdır. Tədqiqatçılar bu bazanın da imkanlarından istifadə edirlər.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

ADNSU-da nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizm kimi 2018-ci ildən "ADNSU-da professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat" işlənib hazırlanmışdır və ötən illər ərzində təkmilləşdirilmişdir. Bu mexanizm bilavasitə ADNSU-nun axtarış sistemi olan Elm-Təhsil Analitik Mərkəzi (ETAM) tərəfindən icra edilir. ETAM tərəfindən hazırlanmış nəticələr ADNSU üzrə təyin olunmuş xüsusi komissiyaya təqdim edilir və komissiyanın qərarı əsasında növbəti il ərzində əlavə maaş veriləcək tədqiqatçı müəllimləri və onlara veriləcək əlavə maaşın miqdarı müəyyən edilir. Bu mexanizmdən faydalanan müəllimlərin sayı ilbəil dəyişir və əsasən artır.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

2017-ci (5000 manat) və 2021-ci ildən (4785 manat) savayı, akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində elmi-tədqiqat fəaliyyəti nəticəsində heç bir gəlir əldə edilməmişdir (bu barədə məlumatlar Özünütəhlil Hesabatında (səh. 56) və Akkreditasiya Komissiyasına təqdim edilmiş hesabat dövrünü əhatə edən "ADNSU-nun maliyyə təminatı (ADNSU PHŞ) cədvəlində verilmişdir).

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU 580-dan çox müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri qurmuşdur. Bu müddət ərzində ADNSU bir çox ölkələrin, o cümlədən Türkiyənin, Rusiyanın, Belarusun, Ukraynanın, Qazaxıstanın, Çinin, Portuqaliyanın, Monteneqronun, Yunanıstanın, Əlcəzairin universitetləri, elmi müəssisə və təşkilatları ilə əməkdaşlıq etmişdir. Yalnız 2023-cü ildə xarici ölkələrin 12 universiteti və şirkəti ilə əməkdaşlıq memorandumu imzalanmışdır.

## 4.3 Elmi-tədqiqat fəaliyyəti

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Digər ali məktəblərdə olduğu kimi, ADNSU-da da Elmi işlər üzrə prorektor universitetdə aparılan elmi-tədqiqat fəaliyyətinin ümumi koordinasiyasını həyata keçirir. Elmi-tədqiqat fəaliyyətinin bilavasitə idarə edilməsi isə Elmi işlər üzrə prorektorun kurasiyasında olan struktur bölmələr – Doktorantura şöbəsi, fakültələrdəki magistratura bölmələri, elmi-tədqiqat laboratoriyaları, Tələbə Elmi Cəmiyyəti və Startap məktəbi üzərindən həyata keçirilir. Kafedralarda ADNSU Elmi Şurası tərəfindən təsdiq edilmiş beşillik plan əsasında mərhələli şəkildə elmi-tədqiqat işləri aparılır. Eyni zamanda, ADNSU-nun nəzdində fəaliyyət göstərən, Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi-Tədqiqat İnstitutunda 10 istiqamət üzrə 14 elmi-tədqiqat işi yerinə yetirilir.

“ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”na uyğun olaraq, magistrlik və doktorluq dissertasiyalarının mövzuları bilavasitə istehsalatla bağlı olmaqla, sənaye problemlərinin həllinə həsr edilir.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-nun təşkilatçlığı ilə 15-i respublika, 49-u beynəlxalq səviyyəli olmaqla, ümumilikdə 64 konfrans və simpozium keçirilmişdir. Yalnız 2023-cü ildə ADNSU-da beynəlxalq səviyyəli 15, respublika səviyyəli 4 konfrans və simpozium keçirilmişdir. Beynəlxalq konfrans və simpoziumların bir qismi xarici ölkələrin – Türkiyə, Rusiya, Ukrayna, Fransa, Çexiya, ABŞ, Kanada, Monteneqronun və s. universitetləri və elmi müəssisələri ilə birgə təşkilatçılıqla keçirilmişdir. Ümumiyyətlə, ADNSU-da beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların, elmtutumlu digər tədbirlərin keçirilməsi ənənəsi formalaşmışdır.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Qeyd etdiyimiz kimi, elmi-tədqiqat xarakterli beynəlxalq konfrans və simpoziumların bir qismi xarici ölkələrin universitetləri və elmi müəssisələri ilə birgə təşkilatçılıqla keçirilir. Bu konfrans və simpoziumlarda ilk növbədə həmtəşkilatçı olan həmin universitet və elmi müəssisələrin tədqiqatçıları fəal iştirak edirlər.

Keçirilmiş respublika səviyyəli elmi konfranslarda isə, bir qayda olaraq, ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları aktiv iştirak edirlər.

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-nun təşkilatçılığı ilə keçirilmiş konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və xarici ölkələrdən ümumilikdə 1050 tədqiqatçı iştirak etmişdir.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində həm ADNSU-nun təşkilatçılığı ilə keçirilmiş (məsələn, 4 may 2023-cü il tarixində keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Gənc Tədqiqatçı və

Doktorantların Respublika Elmi Konfransı), həm də digər ali təhsil müəssisələrinin keçirdikləri elmi konfrans və simpoziumlarda ADNSU-nun doktorant və dissertantları aktiv iştirak etmişlər. Bunu həmin konfransların materialları toplularındakı məqalə və tezislərdən görmək olar. Qeyd etmək lazımdır ki, hər il Tələbə Elmi Cəmiyyətinin xətti ilə ayrıca tələbələrin elmi-texniki konfransı keçirilir. Bunlardan son 7 ildə keçirilmiş aşağıdakı konfransları xüsusi qeyd etmək olar:

- 19 – 22 aprel 2017-ci il tarixlərində Avropa Yer Elmləri və Mühəndisləri Assosiasiyasının (EAGE) Azərbaycan bölməsi və Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilmiş Tələbə və Gənc Tədqiqatçıların Beynəlxalq Konfransı;
- 05 – 11 dekabr 2017-ci il tarixində Tələbələrin 66-cı elmi-texniki konfransı;
- 19 – 20 aprel 2019-cu il tarixlərində Neftçi-Geoloqlar Cəmiyyəti ilə ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilmiş “Mükəmməl təhsil neft istehsalında uğurun açarıdır” adlı tələbə və gənc tədqiqatçıların beynəlxalq konfransı;
- 2019-cu il dekabr ayında keçirilmiş görkəmli alim Saleh Qocayevin anadan olmasının 120 illiyinə həsr olunmuş Tələbələrin 68-ci elmi-texniki konfransı;
- 11 dekabr 2023-cü il tarixində keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Tələbələrin 72-ci elmi-texniki konfransı və s.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU əməkdaşları elm və təhsil sahəsində ümumilikdə 22 qrant layihəsində iştirak etmişlər. Bunlardan 10-u respublika, 12-si beynəlxalq qrant layihələridir. Respublika qrant layihələri, əsasən, Azərbaycan Prezidenti yanında Elm Fondu (*əvvəlki adı: Elmin İnkişafı Fondu*) tərəfindən elan edilmiş müsabiqələrdə qalib gələn layihələrdir. Nəzərədən keçirilən dövr ərzində ADNSU-nun bilavasitə cəlb olunduğu 8 belə layihədən 7-si başa çatmışdır, biri – “İqlim dəyişikliyinin Qarabağın su resurslarına təsirinin innovativ metodlarla qiymətləndirilməsi” layihəsi 2024-2025-ci illəri əhatə etməklə hazırda davam edir.

ADNSU-nun qoşulduğu beynəlxalq qrant layihələri, əsasən, Avropa İttifaqının Horizon 2020, ERASMUS+MAGnUS, Erasmus KA2 proqramları, İsveç İnstitutunun “Academic collaboration in the Baltic Sea region” proqramı, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurası (TÜBİTAK), Səudiyyə Ərəbistanının Taif Universiteti tərəfindən dəstəklənən layihələrdir. Hazırda belə layihələrdən üçü davam etməkdədir:

- CAMPAIGNers “Məqsəd təyinedən şəbəkənin fəal şəkildə tətbiqi yolu ilə təsirlərin azaldılması yolları üzrə fəaliyyət göstərən vətəndaşlar” Avropa İttifaqının Horizon 2020 tədqiqat və innovasiya layihəsi;
- WORK4CE “XXI əsrdə sağlam və təhlükəsiz iş üçün sahələrarası bacarıqlar” Erasmus+ layihəsi;
- “ELECTRON rEsilient and seLf-healed EleCTRical pOwer Nanogrid” Avropa İttifaqının Horizon 2020 elmi tədqiqat layihəsi.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU əməkdaşları tərəfindən edilmiş ixtiralardan 30-u patent alınmışdır, bunlardan 22-i respublika, 8-i beynəlxalq patentlərdir (sahə görüşləri zamanı bu patentlər Akkreditasiya Komissiyasına təqdim edilmişdir). Patentlərin 10-u 2023-cü ildə alınmışdır. Lakin bu patentlərin kommersiallaşdırılması ilə bağlı nəticələr yoxdur.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

ADNSU-nun “2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”nda “Elmi istiqamətlərin milli iqtisadiyyatın inkişafına yönəldilməsi, dünya elm məkanına inteqrasiyanı təmin etməklə beynəlxalq elm, təhsil və istehsalat mərkəzləri, onların alim və mütəxəssislərinin iştirakı ilə müştərək elmi-tədqiqatların aparılması təcrübəsinin genişləndirilməsi” hədəf və məqsədlərdən biri kimi müəyyən edilmişdir.

Hazırda ADNSU-da 2017-ci ildə ADNSU və Almaniyanın “İxun Lasertechnik GmbH” şirkətinin təşkilatçılığı və texniki dəstəyi ilə yaradılmış “Lazer” Mərkəzi fəaliyyət göstərir. MDB məkanında ilk dəfə olaraq yaradılmış bu mərkəz, müxtəlif təyinatlı yeni örtük materialların alınması və aşınmaya məruz qalmış sənaye avadanlıqlarının işçi səthlərinin bərpasına imkan verən müasir texnoloji avadanlıqlarla təchiz edilmişdir.

İnstitutsional əməkdaşlığa nümunə kimi aşağıda qeyd edilən birgə keçirilmiş elmi tədbirləri göstərmək olar:

- 2023-cü ilin oktyabr ayında ADNSU-nun və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) birgə təşkilatçılığı ilə keçirilmiş Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş “Türk Dünyasının Enerji Lokomotivləri” adlı beynəlxalq elmi-praktiki konfrans;
- 17 noyabr 2023-cü il tarixində ADNSU-nun, Fransanın Burgundy Franche-Comté Universitetinin, ALİM elmi assosiasiyasının və “Bakı sağlamlıq” klinikasının birgə təşkilatçılığı ilə keçirilmiş Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Biotibbi muhəndislik üzrə “Ağıllı texnika və texnologiya əsaslı biotibbi cihazlar və aparatları” adlı V elmi-praktiki seminar.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ADNSU-da həyata keçirilən birgə tədqiqat proqramı kimi Azərbaycan tərəfindən ADNSU və UFAZ, Fransa tərəfindən isə Strasburq Materialların Fizikası və Kimyası İnstitutu olmaqla, “Nanomateriallar və nanotexnologiyalar” elmi-tədqiqat laboratoriyasında “Maqnetik

topoloji izolyator xassəli monokristallik nümunələrin alınması, kristalloqrafik, maqnit və keçirici xassələrinin tədqiqi" mövzusunda aparılan birgə elmi-tədqiqat işini qeyd etmək olar.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

ADNSU-nun tədqiqatçılarının beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirakı, əsasən, aşağıdakı formalarda həyata keçirilir:

- beynəlxalq səviyyəli nüfuzlu elmi jurnallarda məqalələr dərc etdirməklə;
- beynəlxalq səviyyəli layihələrdə, ilk növbədə Avropa İttifaqının Horizon 2020, ERASMUS+MAGnUS, Erasmus KA2 proqramları çərçivəsində həyata keçirilən layihələrdə iştirak etməklə;
- həyata keçirilərkən müəyyən dərəcədə tədqiqat komponenti də nəzərə alınan ali təhsil layihələrində iştirak etməklə.

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

ADNSU-da yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələrindən tədris-metodiki vasitələrdə qismən istifadə olunur. Bu, ilk növbədə doktorluq dissertasiyalarına aiddir – dissertasiyanın nəticələrinin tədris prosesində istifadəsi uyğun fənni tədris edən kafedranın müvafiq mütəxəssislərinin tövsiyəsi ilə qəbul edilmiş qərar əsasında müəyyən olunur.

Alimlərin apardıqları elmi-tədqiqat işlərinin nəticələrini, istifadə etdikləri tədqiqat metodlarını özlərinin hazırladıqları tədris-metodiki vasitələrdə bu və ya digər dərəcədə əks etdirirlər.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

ADNSU əməkdaşları öz elmi tədqiqatlarının nəticələrini məqalələr şəklində həm ADNSU-da, həm respublikada, həm də xaricdə keçirilən yerli, respublika və beynəlxalq səviyyəli elmi konfrans və simpoziumların materialları toplularında dərc etdirirlər.

Hazırda ADNSU-da "Azərbaycan ali texniki məktəblərinin xəbərləri", HPC Mərkəzinin "Azerbaijan Journal of High Performance Computing" jurnalı, "Ümumi və tətbiqi riyaziyyat" kafedrasının "Baku Mathematical Journal"ı, eləcə də bəzi fakültələrin jurnalları təsis edilərək nəşr olunur. Bu jurnallarda məqalə dərc etdirilməsi ADNSU əməkdaşları üçün ödənişsizdir.

ADNSU-nun 2022-ci ildə BP şirkətinin maliyyə dəstəyi ilə əsaslı şəkildə təmir olunmuş, yeni, müasir avadanlıqlarla təchiz edilmiş nəşriyyatı – mətbəəsi var. ADNSU jurnalları, əməkdaşların hazırladıqları bütün monoqrafiyalar, dərsliklər, proqramlar, tədris-metodiki vəsaitlər, doktorant və dissertantların dissertasiya işləri, avtoreferatları təmənnasız şəkildə burada nəşr olunur.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə ADNSU əməkdaşları tərəfindən 16 monoqrafiya, 17 dərslik, 86 dərs vəsaiti, 209 proqram və metodik vəsait hazırlanaraq nəşr edilmişdir. Bununla yanaşı, ADNSU əməkdaşlarının 766-ı respublikada, 837-i xaricdə (onlardan 502-i impakt-faktorlu jurnallarda) olmaqla, ümumilikdə 1630 məqaləsi müxtəlif elmi jurnallarda dərc

edilmişdir. ADNSU əməkdaşlarının 300-ü respublikada, 238-i xaricdə olmaqla, ümumilkdə 538 məqalə və tezisləri elmi konfransların materialları toplularında yer almışdır.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da tədqiqatçılar tərəfindən 2017 – 2023-cü tədris illərində nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksini (“citation index") əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, bu göstəricidə artım dinamikası vardır.

**Cədvəl 4.3.12.1 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası.**

| Tədris illəri | Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası |
|---|---|
| 2016/2017 | 435 |
| 2017/2018 | 651 |
| 2018/2019 | 905 |
| 2019/2020 | 1840 |
| 2020/2021 | 2299 |
| 2021/2022 | 2395 |
| 2022/2023 | 2775 |

COVID-19 pandemiyası dövründə də, 2020 və 2021-ci illərdə dinamika artan istiqamətdə olmuşdur.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

ADNSU-da magistratura səviyyəsində müəyyən ixtisaslarda tədris planlarında tədqiqat yönümlü fənlər (məsələn, “Tədqiqat metodları” fənni) nəzərdə tutulur və tədris olunur. Lakin doktorantura səviyyəsində aparılan təhsil zamanı bu və ya digər dərəcədə tədqiqat yönümlü komponent nəzərə alınsa da, bilavasitə tədqiqat yönümlü fənlər tədris olunmur.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Akademik heyətin beynəlxalq qrant müsabiqələrinə qatılması, qrant layihələrində, beynəlxalq konfrans, simpozium və digər elmtutumlu tədbirlərdə fəal iştirak etməsi, həmçinin beynəlxalq səviyyəli nüfuzlu elmi jurnallarda dərcedilmə imkanlarının genişləndirilməsi üçün onların xarici dil, ilk növbədə, ingilis dili biliyi səviyyəsinin yüksəldilməsi zəruridir. ADNSU-da bu məsələyə xüsusi önəm verilir. Bu məqsədlə ADNSU 22 aprel 2019-cu ildə British Petroleum Exploration (bp) və “British Council”ın Azərbaycandakı ofisi ilə üçtərəfli müqavilə

imzamışdır. Bu müqavilə əsasında, ilkin olaraq, "British Council" tərəfindən ADNSU-nun 90 nəfər akademik heyət üzvünə intensiv ingilis dili təlimi keçirilmişdir.

ADNSU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün keçirilmiş digər təlimlərə aşağıdakıları misal göstərmək olar:

- 2022-ci ilin fevral-mart aylarında YUNESKO-nun təşkilatçılığı ilə Qaz-Neft-Mədən Təhsili üzrə Beynəlxalq Kompetensiya Mərkəzi və Sankt-Peterburq Mədən Universitetinin distant şəkildə keçirdikləri qısamüddətli təhsil proqramları çərçivəsində həmin universitetin professor-müəllim heyəti tərəfindən neft-qaz mühəndisliyi ixtisası üzrə ADNSU-nun aidiyyətı olan professor-müəllim heyəti üçün təşkil edilmiş onlayn təlim;
- ADNSU ilə Azərbaycan Layihələrin İdarəedilməsi Assosiasiyasının (AzPMA) əməkdaşlığı çərçivəsində təşkil edilən "Layihələrin idarə olunması" mövzusunda 3 istiqamətdə keçirilmiş təlimlər:
  - "Ali təhsil müəssisələrində layihələrin idarəedilməsini sistemləşdirmək və effektivliyi artırmaq",
  - "Ali təhsil müəssisələrinin tələbələrinin layihə menecmentinə maraqlarını stimullaşdırmaq və onları beynəlxalq bilik və təcrübə mübadiləsi sisteminə inteqrasiya etmək",
  - "Ali təhsil müəssisələrində layihə menecmenti kursunun müasir tələblərə uyğun olaraq keyfiyyətini artırmaq".
- Erasmus+ KA2 proqramı çərçivəsində icra edilən layihələr çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi üçün ADNSU-nun tərəfdaşı olduğu, Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linkopinqs Universitetinin rəhbərliyi ilə icra olunan "Tərəfdaş universitetlərdə mobil tətbiqlərin və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)" adlı Erasmus+ KA2 layihəsi çərçivəsində keçirilmiş "Təlimçilər üçün təlim" vörkşopu.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

ADNSU-da müxtəlif elm sahələrini əhatə edən 35 ixtisas üzrə doktorantura səviyyəsində elmi kadr hazırlığı aparılır, bu fəaliyyət Doktorantura şöbəsinin koordinatorluğu və nəzarəti ilə həyata keçirilir. Doktoranturaya qəbul planı hər il tam dolur. Doktorant və dissertantlar mövcud qaydalar üzrə öz fərdi planları əsasında təhsil alırlar və ildə bir dəfə hesabat verərək, müvafiq attestasiyadan keçirlər.

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da doktoranturada təhsil alanların statistikasını əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, illər üzrə doktorant və dissertantların sayında ümumən azalma dinamikası yoxdur:

**Cədvəl 4.3.15.1 Doktorantura proqramları üzrə təhsilalanların sayı**

| İllər (ilin əvvəlinə) | Fəlsəfə doktoru proqramı üzrə | | Elmlər doktoru proqramı üzrə | | Cəmi kontingent |
|---|---|---|---|---|---|
| | doktorant | dissertant | doktorant | dissertant | |
| 2017/2018 (01.01.2018) | 73 | 91 | 26 | 27 | 217 |
| 2018/2019 (01.01.2019) | 94 | 122 | 28 | 38 | 282 |
| 2019/2020 (01.01.2020) | 105 | 128 | 31 | 34 | 298 |
| 2020/2021 (01.01.2021) | 131 | 137 | 35 | 32 | 335 |
| 2021/2022 (01.01.2022) | 151 | 103 | 32 | 31 | 317 |
| 2022/2023 (01.01.2023) | 205 | 69 | 22 | 30 | 326 |
| 2023/2024 (01.01.2024) | 233 | 43 | 15 | 14 | 305 |
| Cəmi | 992 | 693 | 189 | 206 | 2080 |

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində 1028 nəfər davam edən doktorant və ya dissertant ADNSU-da daimi ştatda pedaqoji və ya elmi-tədqiqat fəaliyyətinə cəlb edilmişlər. Hazırda doktorantlardan 80 nəfəri müvafiq kafedralarda müxtəlif vəzifələrdə çalışırlar.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5 %-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən 6 il ərzində ADNSU-da ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların xüsusi çəkisini əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, bu göstərici 13.2 – 21.5 % arasında dəyişməklə, həmişə 5 %-dən yuxarı olmuşdur:

**Cədvəl 4.3.16.1 Tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayı**

| İllər | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Professor-müəllim heyətinin ümumi sayı | 573 | 564 | 571 | 579 | 563 | 574 |
| Elmlər doktoru | 66 | 71 | 64 | 64 | 53 | 46 |
| Professor | 50 | 50 | 47 | 48 | 34 | 31 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların xüsusi çəkisi (faizlə) | 20,2 | 21,5 | 19,4 | 19,3 | 15,5 | 13,2 |

Lakin cədvəldən də göründüyü kimi, həm elmlər doktoru və professorların mütləq sayında, həm də onların professor-müəllim heyətinin ümumi sayında xüsusi çəkisində getdikcə azalma müşahidə olunur.

**4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

Akkreditasiya zamanı nəzərdən keçirilən 6 il ərzində ADNSU-da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətini əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, bu göstərici 0.54 – 0.61 arasında dəyişmişdir, bu göstəricidə azalma dinamikası müşahidə olunmur:

**Cədvəl 4.3.17.1 Elmi dərəcəsi olan tədqiqatçıların sayı**

| İllər | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2021 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Professor-müəllim heyətinin ümumi sayı | 573 | 564 | 571 | 579 | 563 | 583 |
| Elmi dərəcəsi olan əməkdaşların sayı | 348 | 321 | 332 | 331 | 306 | 358 |
| Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti | 0,61 | 0,57 | 0,58 | 0,57 | 0,54 | 0,61 |

**4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu**

ADNSU-da 9 ixtisas üzrə 3 Dissertasiya Şurası (ED 02.02, ED 02.03 və ED 2.48) fəaliyyət göstərir. Elmi dərəcələrin alındığı bütün istiqamətlərin kvalifikasiyası ADNSU-nun ümumi profilinə və elmi-tədqiqat hədəflərinə uyğundur.

**4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

ADNSU-da hər il üçün yerinə yetirilmiş elmi-tədqiat işləri haqqında illik hesabatlar hazırlanır və Elmi Şurada təsdiq olunaraq, Elm və Təhsil Nazirliyinə təqdim edilir.

Professor-müəllim heyətinin hər bir üzvünün illik elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi “ADNSU-da professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat” əsasında müsabiqə vasitəsilə həyata keçirilir. Bu qiymətləndirmə prosesi bilavasitə Elm-Təhsil Analitik Mərkəzi (ETAM) tərəfindən yerinə yetirilir. ETAM tərəfindən hazırlanmış nəticələr ADNSU üzrə təyin olunmuş xüsusi komissiyaya təqdim edilir və komissiyanın qərarı əsasında növbəti il ərzində əlavə maaş veriləcək tədqiqatçı müəllimləri və onlara veriləcək əlavə maaşın miqdarı müəyyən edilir. 2018-ci ildən tətbiq olunan bu

mexanizmdən faydalanan müəllimlərin sayı ilbəil dəyişir və əsasən artır. Hazırda 178 nəfər müəllim əlavə maaş alır.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

ADNSU-da doktorluq dissertasiyalarının hazırlanması, əsas etibarilə, ADNSU-nun kafedralarında çalışan alimlərin elmi rəhbərliyi və məsləhətçiliyi ilə həyata keçirilir (zəruri olan hallarda ikinci rəhbər digər müəssisələrdən təyin olunur). Dissertasiya mövzusunun işlənməsi ilə bağlı ehtiyac yarandıqda doktorantların xaricdə tədqiqat aparmasına şərait yaradılır. Müvafiq vaxtlarda doktorantlara elmi məzuniyyət verilməsi təmin olunur.

Hazırlanmış doktorluq dissertasiyaları 3 Dissertasiya Şurasında (ED 02.02, ED 02.03 və ED 2.48) müdafiəyə çıxarılır. Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ED 02.02 Dissertasiya Şurasında 3 ixtisas üzrə, ED 02.03 Dissertasiya Şurasında 3 ixtisas üzrə, ED 2.48 Dissertasiya Şurasında 2 ixtisas üzrə müdafiələr keçirilmişdir.

Akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da dissertasiya müdafiə etmiş doktorant və dissertantların sayında ümumi artım dinamikasını aşağıdakı cədvəldən görmək olar (2020 və 2021-ci illərdə müdafiə edənlərin olmaması COVID-19 pandemiyası səbəbilə yaranmış məlum vəziyyətlə bağlıdır).

**Cədvəl 4.3.20.1 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti**

| İllər (ilin əvvəlinə) | Fəlsəfə doktoru proqramı üzrə | | Elmlər doktoru proqramı üzrə | | Cəmi müdafiə edənlər |
|---|---|---|---|---|---|
| | doktorant | dissertant | doktorant | dissertant | |
| 2017/2018 (01.01.2018) | 10 | 7 | 0 | 0 | 17 |
| 2018/2019 (01.01.2019) | 6 | 5 | 0 | 0 | 11 |
| 2019/2020 (01.01.2020) | 0 | 0 | 0 | 0 | 0 |
| 2020/2021 (01.01.2021) | 0 | 0 | 0 | 0 | 0 |
| 2021/2022 (01.01.2022) | 5 | 4 | 3 | 1 | 13 |
| 2022/2023 (01.01.2023) | 8 | 21 | 1 | 4 | 34 |
| 2023/2024 (01.01.2024) | 4 | 4 | 0 | 1 | 9 |
| Cəmi | 33 | 41 | 4 | 6 | 84 |

Bu cədvəl ilə 4.3.15 indikatoru üzrə cədvəldəki statistik göstəricilərin müqayisəsindən göründüyü kimi, akkreditasiya zamanı nəzərdən keçirilən son 7 il ərzində ADNSU-da doktoranturada təhsil aldıqları müddət başa çatanadək dissertasiya müdafiə edənlərin sayı doktorant və dissertantların ümumi sayının 3-10 faizini təşkil etmişdir (COVID-19 pandemiyası

səbəbilə yaranmış məlum vəziyyətlə bağlı 2020 və 2021-ci illərdə müdafiə edənlərin olmaması nəzərə alınmaqla).

### 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

ADNSU-da elmi etika və akademik dürüstlük diqqətdə saxlanılır və buna riayət olunur. Lakin antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən ayrıca yazılı sənəd mövcud deyil.

#### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

ADNSU-nun Elmi Şurasının 20.10.2015-ci il tarixli iclasının qərarı əsasında rektorun 03.11.2015-ci il tarixli 01-I/36 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Antiplagiat sisteminin istifadəsi Qaydaları” tətbiq olunur. Qaydalar Plagiat.pl MMC təklif etdiyi “Strikeplagiarism” proqram təminatı vasitəsilə tədqiqat və tədris prosesində köçürmə hallarının qarşısının alınması ilə bağlı yazılı prosedurları müəyyən edir. ADNSU 2015-ci ildə Polşanın “Plagiat.pl” MMC şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Həmin müqavilə hər il yenilənir (ödənişlə əlaqədar olaraq). “Strikeplagiarism” proqramı vasitəsilə ADNSU-da hazırlanmış hər bir iş – elmi-tədqiqat əsərinin və ya tədris metodiki vəsaitinin orijinallığı daxili məlumatlar bazasında (ADNSU-nun öz bazasında), məlumatlar bazalarının mübadilə proqramlarında (“Strikeplagiarism” proqramından istifadə edən digər müəssisələrin bazalarında) və internetdə olan işlər (əsərlər) əsasında yoxlanılır.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

“Strikeplagiarism” proqram təminatı əsasında işləyən antiplagiat sistemi ADNSU-da təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətinin bütün üzvlərini əhatə edir. Bu sistem vasitəsilə bakalavriat səviyyəsində təhsil alanların buraxılış işlərinin, magistrlik və doktorluq dissertasiyalarının, monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodiki vəsaitlərin, habelə elmi jurnallara və konfranslara təqdim edilən məqalə və tezislərin orijinallıq səviyyəsi yoxlanılır. Bu yoxlama prosesi kafedralarda, UFAZ-da və elmi jurnallarda təyin edilmiş operator vasitəsilə həyata keçirilir. Operatorlar aparılmış yoxlamaların nəticələri ilə bağlı ADNSU üzrə təyin olunmuş administratora, administrator isə öz növbəsində elmi işlər üzrə prorektorun müavininə illik hesabat verirlər.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

ADNSU-nun idarə edilməsi ilə bağlı məsələlər ADNSU-nun Nizamnaməsinin 4-cü bəndinə əsasən tənzimlənir. Nizamnaməyə görə, universitetin ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın tərkibi ali təhsil müəssisəsi tərəfindən təsdiq olunur. ADNSU-nun Elmi Şurasında ADNSU-nun Tələbə Gənclər Təşkilatının sədri, ADNSU-nun Tələbə Həmkarlar Təşkilatının sədri, İctimai Şuranın üzvləri təmsil olunur.

Universitetin ali idarəetmə orqanı olan Elmi Şura Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrinin Elmi şurası haqqında Əsasnamə”si və ADNSU-nun nizamnaməsi əsasında yaradılmışdır. ADNSU-da Elmi Şuranın tərkibi 60 nəfərdən ibarətdir. Elmi Şura mütəmadi iclaslarını keçirir və iclaslarda gündəlikdən asılı olaraq maraqlı tərəflərin iştirakı təmin edilir. Elmi Şuranın reqlamenti mövcuddur.

Universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla Nazirlik təsdiq edir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi əsasnamə və ATM-in Nizamnaməsi ilə müəyyən olunur. Universitetdə tədris-metodiki işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-Metodiki Şura yaradılır. Elmi-Metodiki Şuranın yaradılması qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi əsasnamə ilə müəyyən olunur.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

İdarəetmə orqanlarında tələbələrin iştirakı təmin edilir. Lakin təmsil edilən tələbələr xüsusi qaydada seçim ilə müəyyən edildiyi üçün onların idarəetmədə heç bir təsir gücü yoxdur. İşəgötürənlər ilə zəruri görüşlər keçirilir, onların rəyləri qismən nəzərə alınır. Bu əsasən məzunların işlə təmin edilməsi məqsədilə, həmçinin müəyyən əməkdaşlıqlar çərçivəsində edilən görüş və müzakirələr zamanı reallaşdırılır. Bu görüşlərin protokollaşdırılması məqsədəuyğundur.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Xüsusi əhəmiyyətli iclas və yığıncaqların protokolları tutulmaqla yanaşı, təlim-tədris proseslərini tənzimləyən fəaliyyətlərin tədbirlər planları tərtib edilməkdədir. Lakin, müəyyən

şöbələrdə sənədləşmə işləri zəif təşkil olunmuşdur. Misal olaraq, işə qəbul müsabiqələrinin iclaslarında tutulan protokolları göstərmək olar.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması ilə bağlı qaldırılmış məsələlərin müzakirəsi, qərarların verilməsinin reqlamentləşdirilməsinə dair institusional vərdişlər və təlimatlar mövcuddur.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Verilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu tam şəkildə qorunur, qərarlar aidiyyəti üzrə strukturlara və aidiyyəti şəxslərə bildirirlir. Qərarların icra vəziyyətinə kifayət ölçüdə nəzarət edilir.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

ATM-də müsahibələr və yerində baxış zamanı idarəetmə orqanları arasında qarşılıqlı əlaqə, kommunikasiyanın lazımi səviyyədə qurulmadığı müşahidə olunmuşdur.

İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın gücləndirməsi zərurəti vardır.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

İdarəetmə orqanlarının fəaliyyəti əsasnamə və onun əsasında tərtib edilmiş vəzifə təlimatları əsasında tənzimlənir. Əməkdaşların iş bölgüsü onların potensiallarına uyğun olaraq struktur rəhbərləri tərəfindən aparılır.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

Keyfiyyətə nəzarət funksiyasını həyata keçirən struktur bölmənin müstəqil qaydada fəaliyyət göstərmədiyi müşahidə edilmişdir. Həmçinin heyətinin sayının məhdud olması zəruri fəaliyyətlərin görülməsində çətinliklər yaradır. Bununla yanaşı ATM-in əsas fəaliyyət sahəsi olan təlim-tədris prosesinin idarə edilməsi və ona nəzarət yaxşı səviyyədə təşkil edilir.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti ilə bağlı mövcud fəaliyyətlər əsasnamələrdə qeyd edilən istiqamətləri tam qarşılamır. İdarəetmənin nəticəsinin ölçülməsi üçün zəruri alətlərdən istifadə edilməsi tövsiyə edilir.

## 5.2 İnsan resurslarının idarə edilməsi

### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

ADNSU-da işə qəbul və işdən azadolunma üzrə Daxili Qaydalar təsdiq edilmişdir və bu sahədə müvafiq Komissiya fəaliyyət göstərir. Komissiyanın fəaliyyətinə aidiyyəti struktur bölmələrinin mütəxəssisləri cəlb edilir. Lakin, müsahibələr zamanı İnsan resursları strukturunun rəhbəri və eyni zamanda işə qəbul komisiyyasının sədri sualları dolğun cavablandıra bilməmişdir.

İşə qəbul elanları saytda yerləşdirilmir və potensial namizədlərə çatdırılmır. Vakansiyaların sayı məlum deyil.

İşə qəbul zamanı ilkin seçimləri və ümumiyyətlə, namizədlərlə ilk görüşləri struktur rəhbərləri, dekanlar və kafedra müdirləri edir. Ondan sonrakı sənədləşmə bu seçimlərin öz təsdiqini tapmasına xidmət edir. İnzibati heyətin seçimi təqdimat əsasında olur. Namizədlərin işə qəbulu, seçim prosesi, müəyyənləşdirilməsinə dair mexanizm yoxdur.

İşəqəbul meyarları ümumi olaraq tərtib edilib. Onların qiymətləndirilməsi üsulları işlənilməyib. Bütün işə qəbul məsələləri protokol ilə tənzimlənir. İşə qəbulla bağlı müsahibələrin keçirilməsinə dair protokolların 2023-cü ildən etibarən tutulduğu bildirilmişdir.

ATM-də işə qəbul prosedurunun şəffaf və əlçatan formada həyata keçirilməsi üçün həmin sahədə islahatlar aparılmalıdır.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

ADNSU-nun Strateji İnkişaf Planının məqsədi fəaliyyətinin bütün sahələrində maksimum nəticələrin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, şöbələrin və əməkdaşların əlaqələndirilməsinin yüksəldilməsi, universitetin idarə edilməsi sisteminin optimallaşdırılmasıdır. Hazırda, Strateji inkişaf Planına əsasən universitetdə akademik heyət və tədris-köməkçi heyətin rəhbərlik və inzibati heyətə nisbəti 2,4:1 kimidir.

Akademik və inzibati heyətinin onun SİP-ə uyğunluğu və bu heyətin qarşıya qoyulmuş hədəflərə çatmaq üçün lazımi kompetensiya və səriştələrinin inkişaf etdirilməsi məqsədəuyğundur.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

İnsan resurslarının idarə edilməsi strukturu əmrlərin verilməsi və əmək haqqının hesablanması prosesində iştirak etmir. Tabellər kafedralar və şöbələr tərəfindən birbaşa mühasibatlığa göndərilir.

Differensial və stimullaşdırıcı əmək haqqı sistemi tətbiq edilsə də, mövcud meyarlar, mexanizm, model əhatəli deyil.

Əmək haqqı sisteminin ATM səviyyəsində hesablanmasına və ödənilməsinə dair təlimat mövcud deyildir.

#### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sistemi mövcuddur. Mövcud əmək haqqı sisteminə ildə bir dəfədən az olmayaraq yenidən baxılır və dəyişikliklər edilir. ADNSU-da işçilərin kollektiv və fərdi motivasiyası və mükafatlandırılması vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsinə, səmərələşdirici təkliflər verilməsinə, təşəbbüskarlıq göstərilməsinə, işdə yeni forma və metodların tətbiqi, gənc mütəxəssislərə lazımi köməklik göstərilməsinə, rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə, normativ hüquqi aktların layihələrinin hazırlanmasında və qəbul edilməsində fərqlənmələrinə əsasən həyata keçirilir (“ADNSU-nun professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat”, 30.01.2019, Protokol №05). Lakin sistemli olaraq, nəticələrdən asılı, hədəflərə istiqamətlənmiş fəaliyyəti təşviq edən diferensial əmək haqqı sisteminin təkmillşdirilməsinə ehtiyac vardır.

Mükafatların təyin olunması əsasən bayramlarda həyata keçirilir. Məsələn, yeni ildə hər əməkdaşa 200 azn, 8 martda isə bütün xanımlara 100 azn mükafat verilir. Bununla yanaşı, bəzi xüsusi günlərlə bağlı mükafatlar verilir. Məsələn, Milli Mətbuat və Jurnalistika Günü ilə bağlı marketinq və ictimaiyyətlə əlaqələr funksiyasını icra edən heyətə 400-500 azn məbləğində mükafat verilmişdir.

#### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-də heyətin qiymətləndirilməsini ETAM həyata keçirir. Mərkəz universitet əməkdaşlarının fəaliyyət səmərəliliyinə təsir edəcək amillərin müəyyənləşdirilməsi məqsədilə bütün heyət üzrə anket sorğuları aparır, bütün struktur bölmələri üzrə analizlər həyata keçirir, analizin nəticəsinə əsasən cari vəziyyəti təhlil edir və təkmilləşdirilməsi yönündə müvafiq təkliflər hazırlayır. ETAM 2023-cü ildən başlayaraq professor-müəllim heyətinin hər il üçün müxtəlif göstəricilərə əsasən (tədris metod və formaları, şəristə və bacarıqları, xarici dil bilikləri, elmi-pedaqoji fəaliyyəti, yüksək reytinqli beynəlxalq jurnallarda çap olunan məqalələrinin, dərsliklərinin, dərs vəsaitlərinin sayı və s.) reytinq sıralamasını tərtib edir. Reytinq sıralamasında ilk 100 yeri tutan professor-müəllim heyətinə əlavə maaşın verilməsi planlaşdırılır.

ETAM strukturun tərkibində 4 sektor mövcuddur:

- Daxili keyfiyyət;
- Elmmetriya;
- İnteqrasiya və akkreditasiya;
- Strategiya və təbliğat.

Elmi fəaliyyətin qiymətləndirilməsi ETAM tərəfindən yaradılan platforma vasitəsilə həyata keçirilir.

Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mövcud olsa da, qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mexanizmi və sisteminin mövcud olmadığı müəyyən edilmişdir. Müəllimlərin qiymətləndirilməsi əmək haqqının stimullaşdırılması çərçivəsində yalnız elmi fəaliyyətə görə aparılır.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

ADNSU əməkdaşları müxtəlif ixtisasartırma və yenidən hazırlıq təlimlərinə cəlb edilirlər və bu proses əsas etibarı ilə universitetin Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlama İnstitutu (SMİİYİ) tərəfindən həyata keçirilməkdədir. Lakin bu təlim ehtiyaclarının necə müəyyən edildiyi və hər hansı bir mexanizmin olub-olmamasını müəyyən etmək mümkün olmamışdır. 5 ildən bir rektorun təsdiqi ilə stajkeçmə planı təsdiq edilir. Heyətin inkişafı ilə bağlı sistemli təlimlər verilmir. Ömürboyu təhsil mərkəzi yalnız ikinci ali təhsili təşkil edir. Müəllimlərin ixtisasartırması sistemli olaraq mövcud deyildir.

Həmçinin, Akkreditasiya Komissiyası tərəfindən universitet əməkdaşları üçün keçiriləcək təlim proqramları və müvafiq təlim cədvəlləri təqdim edilməsi üçün sorğu edilmiş, lakin bununla bağlı sənəd(lər) təqdim edilməmişdir. Bu baxımdan, ixtisasartırma, ADNSU-nun insan kapitalının rasional idarə edilməsi, heyətin peşəkar inkişafı üçün ehtiyacların təhlili müvafiq mexanizminin (prosedurun), müvafiq fəaliyyət planın və təlim planının (təlim proqramları/cədvəlləri) formalaşdırılması tövsiyə edilir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ADNSU əməkdaşlarının sosial mədəni həyatının təşviqatı və yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Bu istiqamətdə müxtəlif mədəni sosial tədbirlər, Heydər Əliyev İli məzmunlu silsilə tədbirlər həyata keçirilir. Bununla yanaşı, ADNSU-nun Həmkarlar İttifaqı Komitəsi də öz növbəsində təsdiq edilmiş illik iş planı əsasında müxtəlif mövzulu tədbirlər təşkil edilr.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətin seçimi təqdimat əsasında həyata keçirilir. Namizədlərin seçimi və müəyyənləşdirilməsinə, işə qəbulun həyata keçirilməsinə dair qayda, təlimat proseduru

mövcud deyil. Meyarlar ümumi olaraq tərtib edilmiş, onların qiymətləndirilməsi üsulları işlənilməmişdir. Komissiyanın fikrincə, bu hallar işə qəbul prosesi zamanı qeyri-obyektivliyə səbəb ola bilər.

#### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

ATM-də qeyri-akademik heyətin fəaəliyyətinin qiymətləndirilməsi sistemi mövcud deyildir, bununla bağlı mexanizm, prosedur, təlimat və s. yoxdur.

#### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

ADNSU-da əmək və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20.12.2017-ci il tarixli, 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın və digər qanunvericilik aktlarının tələbləri nəzərə alınır. Proqram təminatı kimi SİNAM platformasından istifadə edilir. Müsahibələr zamanı kardlarla bağlı statistik məlumatların toplanıb təhlil edilmədiyi məlum olmuşdur. Sənədlərin arxivləşməsi aparılır, eyni zamanda təkmilləşdirilməyə ehtiyac vardır.

### 5.3 Maliyyə resurslarının idarə edilməsi

#### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

ADNSU-nun Nizamnaməsi 12 avqust 2022-ci ildə Azarbaycan Respublikası Nazirlər Kabinetinin 300 nömrəli qərarı ilə təsdiq olunmuş və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 20 oktyabr 2022-ci ildə qeydiyyata alınmışdır. ADNSU-nun maliyyə resursları, mənbələri onun Nizamnaməsinə uyğundur. Nizamnamənin 5.2 bəndində qeyd edildiyi kimi, ali məktəbin əmlakı nizmanamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitlərdən formalaşır.

Nizamnamənin 5.13 bəndində qeyd edildiyi kimi, universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanlarin və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyan edilmiş digər məqsədlərə yönəldilir.

Universitet tərəfindən əldə olunan vəsaitlərin xərclənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uygun olaraq tənzimlənir.

ADNSU-nun maliyyə resursları universitetdən təqdim olunan məlumata əsasən 2017-2023-cü illər üzrə aşağıdakı kimi formalaşmışdır:

**Cədvəl 5.3.1.1. ADNSU-nun 2017-2023-cü illər üzrə maliyyə resursları**

| Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Büdcədən ayrılan vəsait | 13856978.78 | 15903107.50 | 21067418.00 | 28610363.00 | 31234472.50 | 37379289.00 | 51975004.00 |
| Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr, magistr, doktorantura) | 13856978.78 | 15903107.50 | 21067418.00 | 28610363.00 | 31234472.50 | 37379289.00 | 51975004.00 |
| Büdcədənkənar vəsaitlər | 6923881.86 | 7520895.83 | 7416564.97 | 5462060.35 | 9335116.30 | 9429043.47 | 8879662.37 |
| Qrant və layihələrdən əldə olunan gəlirlər | 0.00 | 0.00 | 6253.32 | 185962.50 | 68500.35 | 189372.82 | 1737029.75 |
| Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersiyalaşdırılması və s.) | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər | 5000.00 | 0.00 | 0.00 | 0.00 | 4785.00 | 0.00 | 0.00 |
| Ümumi gəlir | 20785860.64 | 23424003.33 | 28483982.97 | 34072423.35 | 40574373.80 | 46808332.47 | 60854666.37 |
| Müəssisənin ümumi büdcəsi | 20785860.64 | 24866518.69 | 30350361.77 | 35901648.52 | 45403095.06 | 60091230.70 | 73202953.81 |

Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcminin növbəti illərdə artırılması istiqamətində fəaliyyətin gücləndirilməsi tövsiyə olunur.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

ADNSU tərəfindən təqdim olunmuş Özünütəhlil Hesabatında 2021-2030-cu illər üçün qısa (1 illik) və ortamüddətli (5 illik) İnkişaf Strategiyası üzrə Fəaliyyət Planında maliyyə imkanlarının genişləndirilməsi və diversifikasiyası məqsədilə, yerli və əcnəbi müəssisələrlə

birgə təsərrüfat müqaviləsi əsasında elmi-tədqiqat işlərinin aparılması, ADNSU-nun təsisçisi və həmtəsisçisi olduğu müəssisələr vasitəsilə kommersiya məqsədli istehsalatın təşkili, milli və beynəlxalq elm fondlarının qrant layihələrində fəal iştirak hədəfi qoyulmuşdur. Fəaliyyət Planınında qeyd olunan hədəflərin qısa və orta müddətli dövr üçün həyata keçirilməsi məqsədilə Elmi işlər üzrə prorektorun, Beynəlxalq əlaqələr üzrə prorektorun və Təsərrüfat işləri üzrə prorektorun iştirakı ilə mütəmadi iclaslar keçirilir və rektora məruzə olunur.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

ADNSU-nun Təsərrüfat işləri üzrə prorektorunun təqdim etdiyi məlumata əsasən 2017-2023-cü illər üzrə maliyyə resurslarının istifadəsi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 5.3.3.1. ADNSU-da 2017-2023-cü illər müxtəlif istiqamətlər üzrə ayrılan vəsaitlər**

| Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | 331076.00 | 385910.00 | 412192.00 | 460856.00 | 393041.00 | 257477.00 | 263088.00 |
| Elmi-tədqiqat fəaliyyəti üçün ayrılan büdcənin ümumi büdcədə payı | 1.59 | 1.55 | 1.36 | 1.28 | 0.87 | 0.43 | 0.36 |
| Elmi ədəbiyyatdan və elmi bazalardan istifadə üçün ayrılan vəsit | 2500.00 | 12487.00 | 18151.00 | 3506.00 | 34566.09 | 3130.80 | 22606.11 |
| Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsait | 12200.00 | 16610.00 | 18310.00 | 22001.25 | 17788.75 | 30680.00 | 14220.00 |
| Maddi-texnikanın bazanın qurulması üçün ayrılan vəsait | 283200.00 | 283200.00 | 283200.00 | 283200.00 | 283200.00 | 48000.00 | 179436.00 |
| Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsit | 0.00 | 0.00 | 98176.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 0 | 0 | 0 | 20000.00 | 10000.00 | 149800.00 | 250000.00 |
| Müəssisənin ümumi büdcəsi | 20785860.64 | 24866518.69 | 30350361.77 | 35901648.52 | 45403095.06 | 60091230.70 | 73202953.81 |
| Ümumi xərclər | 19343345.28 | 2300139.89 | 28521136.60 | 31072927.26 | 32120196.83 | 38023777.35 | 46278788.33 |

Cədvələ diqqət yetirdikdə, elmi-tədqiqatlara büdcədən ayrılan vəsaitlərin həcmində ciddi azalma müşahidə olunur. Belə ki, 2017-ci ildə elmi fəaliyyətə 331076.00 AZN ayrılıbsa, 2023-cü ildə bu rəqəm 263088.00 AZN olmuşdur.

Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayrılan vəsaitlərdə artıb-azalan dinamika hiss olunur. Bu istiqamət üzrə pik həddə 2021-ci ildə çatmaq mümkün olub. Həmin il elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün 34566.09 AZN vəsait sərf olunub.

Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsaitə nəzər saldıqda, 2017-2022-ci illərdə artım dinamikası müşahidə olunur. Yalnız 2023-cü ildə 14220.00 AZN olmaqla nisbətən geriləmə nəzərə çarpır.

Universitetin maddi-texniki bazasının yenilənməsi üçün ayrılan vəsait üzrə 2017-2021-ci illərdə stabillik müşahidə olunur. 2017-2021-ci illər üzrə stabil olaraq hər il 283200.00 AZN ayrılırdısa, 2022-ci ildə bu rəqəm yalnız 48000.00 AZN və 2023-cü ildə 179436.00 AZN olmuşdur.

Kitabxana resurslarının yenilənməsi üçün büdcədən yalnız 2019-cu ildə 98176.00 AZN ayrılmışdır.

Beynəlmiləlləşmə siyasətinin icrası üçün büdcədən ayrılan vəsaitdə artan dinamika müşahidə olunur. 2023-cü ildə beynəlmiləlləşmə siyasətinin icrası üçün büdcədən 250000.00 AZN ayrılmışdır.

Ümumilikdə, universitet büdcəsindən ayrılan xərclərdə ciddi artım nəzərə çarpır. Belə ki, 2017-ci ildə ümumi xərclər 19343345.28 AZN təşkil edirdisə, 2023-cü ildə bu rəqəm 46278788.33 AZN olmuşdur. ADNSU tərəfindən maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətləri SİP-ə uyğunluq təşkil edir.

ADNSU büdcəsində elmi-tədqiqat fəaliyyətlərinə ayrılan büdcənin həcminin artırılması tövsiyə olunur.

Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsaitlərin müsbət dinamikasının təmin edilməsi, universitetin maddi-texniki bazasının və kitabxana resurslarının yenilənməsi üçün büdcədən lazimi vəsaitin ayrılması tövsiyə olunur.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ADNSU tərəfindən təqdim olunan məlumatda təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti haqqında aşağıdakı məlumat təqdim olunmuşdur:

**Cədvəl 5.3.4.1 Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti**

| Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti | 2.27 | 3.22 | 2.48 | 4.56 | 0.83 | 1.71 | 4.03 |

Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbətinə illər üzrə baxdıqda, ən yüksək nəticə (4.56) 2020-ci ildə müşahidə olunub. Dinamikanı izlədikdə artıb-azalan dinamika müşahidə olunur.

ADNSU-ya əlavə maliyyə resurslarının, xüsusilə də, elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan vəsaitlərin cəlb olunması istiqamətində fəaliyyətin artırılması tövsiyə olunur.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ADNSU tərəfindən əldə olunan maliyyə resursları haqqında məlumatlar maraqlı tərəflər üçün şəffaf və əlçatandır. Əldə olunan maliyyə resursları haqqında hər il ADNSU Elmi Şurası qarşısında hesabat verilir.

ADNSU Nizamnaməsinin 3.1.18. bəndində qeyd olunduğu kimi, universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək universitetin əsas vəzifələrindən biridir.

Əldə olunan maliyyə resursları haqqında müvafiq məlumatlar rüblük və illik olmaqla Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, AR Dövlət Statistika Komitəsi) təqdim olunur.

ADNSU-da daxili audit mexanizminin yaradılması tövsiyə olunur.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

ADNSU Nizamnaməsinin 5.13. bəndində qeyd olunduğu kimi, universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə yönəldilə bilər.

ADNSU PHŞ tərəfindən təqdim olunan maliyyə hesabatından göründüyü kimi, maliyyə resurslarından istifadə ADNSU Nizamnaməsinə və SİP-ə uyğundur.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

ADNSU Nizamnaməsinin 5.2. bəndində qeyd olunduğu kimi, universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən təhsildən əldə edilən vəsaitdən,

ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan, qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru ADNSU Nizamnaməsinə müvafiq olaraq həyata keçirilir. Universitetin maliyyə resurslarının əldə olunması və istifadəsi Nizamnamənin 5.5. bəndinə uyğun olaraq əmlak üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uygun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Nazirliklə razılaşdırmaqla həyata keçirir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Universitet fəaliyyətindən əldə edilən vəsait Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uyğun olaraq xərclənir. Maliyyə resurslarından təyinatı üzrə istifadəyə nəzarəti ADNSU Himayəçilər Şurası tərəfindən təyin edilən kənar auditor və ya daxili audit bölməsi həyata keçirir.

Maliyyə resurslarından təyinatı üzrə istidafəsi zamanı həmçinin, "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı da əsas tutulur.

Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarət həmçinin, Azərbaycan Respublikasının dövlət orqanları (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti) tərəfindən həyata keçirilir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, görülən işlərin və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq aparılır. Prodesur zamanı müqavilələrin hazırlanmasına, tender və katirovkaların qanunun tələblərinə uyğun aparılmasına nəzarət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılır.

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili haqqında hesabatlar həm universitet rəhbərliyinə, həm də Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti) təqdim olunur.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ADNSU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun aparılır.

Sahə baxışı və müsahibələr zamanı sənədlərin tərtib olunması qaydasına baxılmış, tenderlərin keçirilmə proseduru ilə yaxından tanış olunmuş, elan olunmuş tenderlərin illər üzrə qalibləri və onların müvafiq sənədləşmə işləri ilə, həmçinin, imzalanmış müqavilələrlə tanış olunmuşdur. Müsahibə zamanı tender iştirakçılarının və onların müvafiq sənədlərinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin elektron bazasına yerləşdirildiyi müşahidə olunmuşdur.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Maliyyə və mühasibat hesabatları publik hüquqi şəxslərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim etdikləri vergi hesabatları və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq hazırlanıb təqdim olunur.

Maliyyə və mühasibat hesabatları rüblük və ya illik olmaqla Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, AR Dövlət Statistika Komitəsi) təqdim olunur.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tərtib olunan hesabatlara və ya hər hansı bir digər maliyyə və mühasibat hesabatlarına ADNSU rəsmi saytında və ya hər hansl digər mənbədə rast gəlinmədi.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

ADNSU-da müsahibə zamanı daxili audit mexanizminin olmadığı bildirildi. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili auditin keçirilməsi, hesabatların hazırlanması, nəticələrin əlçatalığının təmin edilməsi tövsiyə olunur.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Müsahibə zamanı və Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit xidmətindən istifadə olunmamışdır. AR müvafiq dövlət orqanları ilə yanaşı kənar auditin istifadə olunması tövsiyə olunur.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ADNSU Nizmnaməsinə, SİP-ə, 2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyasına nəzər yetirdikdə maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadə istiqamətlərinin illər üzrə təkmilləşdiyini görmək mümkündür. Bu istiqamətdə yerli və xarici müəssisələrlə birgə təsərrüfat müqaviləsi əsasında elmi-təqdqiqat işlərinin aparılması, milli və beynəlxalq qrant layihələrində fəal iştirak, yeni laboratoriyaların qurulması, müasir avadanlıqlarla təhciz edilməsi, “Kitab Evi”nin genişləndirilməsi və zənginləşdirilməsi, daxili qrantlar hesabına elmi-tədqiqat işlərinin stimullaşdırılması, aparıcı xarici və yerli mütəxəssislərin ADNSU-ya dəvət olunması, beynəlxalq təşkilatlara üvzlüyün təmin edilməsi və s. görülən tədbirlər təkmilləşməyə və maliyyə resurslarının diversifikasiyasına xidmət edir. Bu məqsədlə, müsahibələrdən aydın olduğu kimi, ADNSU-da mütəmadi iclaslar keçirilir, maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə təkliflər dinlənilir. Təkliflər növbəti büdcə smetasının planlaşdırılması zamanı nəzərə alınması üçün Himayədarlar Şurasına və müvafiq dövlət orqanlarına təqdim olunur.

## 5.4 İnformasiya idarəetmə sistemi

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ADNSU-da mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi, tədrisin elektron idarəolunması, kitabxana, universitet rəhbərliyi ilə görüş və əks əlaqə, mühasibatlıq və təchizatın idarə olunması, akt zalının bron edilməsi, plagiat proqram təminatı, turniket, mərkəzləşdirilmiş mail, dərs cədvəllərinin tərtib edilməsi, tələbə-məzun bazası və məzun-karyera və digər sistemləri özündə cəmləşdirən informasiya idarəetmə sistemi mövcuddur. Bu istiqamətdə ATM-də koordinasiya Rəqəmsal İnkişaf və İnnovasiyalar Mərkəzinin nəzarətindədir. Mərkəz universitetdə tədris, elm və innovasiyalar istiqamətində rəqəmsal transformasiyanı həyata keçirir, informasiya texnologiyaları infrastrukturunun qurulması və idarə edilməsi istiqamətində fəaliyyət göstərir. Universitetdə 2017-ci ildən “Unibook brend” adlı tədrisin elektron idarə olunması sistemi istifadə olunur. Sahə səfəri zamanı müsahibələrdə qeyd edilmişdir ki, hazırda sistemin daha da genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində işlər aparılır.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

ATM-ə sahə səfəri zamanı universitetin EMS (elektron məlumat sistemi) sisteminə baxış keçirilmişdir. EMS üzərindən aşağıdakı modullar üzrə məlumatlar emal olunur:

- Tələbə məlumatlarının (ümümi, əlaqə, ünvan, valideyn, sənəd məlumatları) saxlanılması və emalı;

- Tədris planları, ixtisasın tədris planı, fənn kataloqu, semestrdə açılacaq fənlər, cədvəllər və s. haqqında məlumatlar;
- Müəllimlərin tədirs planı, işçi tədris planı, tədris qrafiki, fərdi tədris planı, fənlər üzrə qrup məlumatları;
- Semestrlər üzrə tələbələrin fənlərə qeydiyyatı, elektron materiallar;
- Elektron jurnal, fənlər üzrə bal bölgüsü, fənlər üzrə tapşırıqların (sərbəst işlər, kurs işi, laboratoriya işi, təqdimatlar) yerinə yetirilməsinin, aralıq və final imtahan nəticələrinin, apellyasiya müraciətlərinə və nəticələrinə dair məlumatlar;
- Tədrisə dair digər məlumatların (ştat cədvəlləri, kadr hesabatları, tədris hesabatları və s.) uçotu və emalı;

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

ADNSU-nun tədris prosesi LMS-də Elm və Təhsil Nazirliyinin tədrisin təşkili və idarə olunması qaydalarına əsasən tənzimlənir. LMS-dən istifadə üçün universitetin rəsmi veb səhifəsində xidmətlər bölməsindəki linkindən istifadə olunur (bax: http://lms.adnsu.az/adnsuEducation/login.jsp/). LMS-də idarəetmə orqanları üzrə səlahiyyət bölgüləri aşağıdakı şəkildə öz əksini tapmışdır:

- Rektor və prorektorların öhdəlikləri - sistemdə olan modullara baxış, nəzər yetirmə və redaktə;
- Dekanların öhdəlikləri (bakalavriat və magistratura səviyyəsi üzrə) - tələbə məlumatlarına (ümumi, təsdiq olunacaq tələbələr, akdemik qruplar), tədris planlarına (işçi tədris planı, tədris qrafiki, fərdi tədris planı, fənlər üzrə qrup məlumatları və s.), imtahan cədvəli, appelyasiya müraciətləri, imtahan nəticələri statistikası, imtahan komissiyası, tədris hesabatlarına baxış, nəzər, eksport, redaktə və təsdiq etmə;
- Dekan müavinlərinin öhdəlikləri - dekan müavinləri sistemdə dekana aid səlahiyyət bölgülərinə aid olan imtahan nəticələri statistikası, imtahan komissiyası, tədris hesabatlarına baxış modulları istisna olmaqla digərlərinə baxış, nəzər, eksport, redaktə və təsdiq edə bilər;
- Kafedra müdirlərinin öhdəlikləri - tələbələr, akademik qruplar, fənn kataloqu, fənnlər, ixtisas tədris planları, fənn üzrə qruplar, müəllimlər, fənn üzrə bal bölgüləri və elektron məlumatlar;
- Müəllimlərin öhdəlikləri - müəllimin tədris planı, fənn üzrə qruplar, fənn üzrə bal bölgüləri, imtahan cədvəli;
- Super admin və administrator öhdəlikləri - sistemdə mövcud bütün modullara giriş və nəzarət;
- Bölmə rəhbəri öhdəlikləri - hərəkətlər, ödənişlər, istifadəçi və tələbələr haqqında ümumi məlumatlar istisna olmaqla sistemdəki bütün modullara baxış;
- Protokol xidməti öhdəlikləri - tədrislə bağlı bütün modullara baxış;
- Koordinator öhdəlikləri;
- Məsul şəxs öhdəlikləri;

- İstifadəçi öhdəlikləri;
- Tələbə öhdəlikləri.

Sahə səfəri zamanı fakültələrdə müsahibələr zamanı bildirilmişdir ki, tələbə transkriptləri fakültə tyutorları tərəfindən (LMS-dən yekun imtahan nəticlərini götürməklə) xüsusi blanka işlənib tələbələrə təqdim edilir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, ADNSU-da təlim və tədris prosesində tədrisin keyfiyyətini artırmaq, informasiya resursları ilə əlaqəni daha səmərəli qurmaq üçün 143 auditoriyada veb masalar qurulmuşdur. Müəllimlər tədris prosesində veb masalardan istifadə edərək məlumatları mərkəzləşdirilmiş şəkildə təqdim edirlər. Lakin sahə səfərində bəzi dərslərin müşahidəsi zamanı auditoriyalarda veb masalardan istifadə olunmadığı (veb masa üçün yer ayrılsa da, avadanlığın qoyulmaması) aşkar edilmişdir. Həmçinin kompüter laboratoriyalarındakı kompüterlərin yenilənməsinə və sayının (tələbələrin sayı nəzərə alınmayıb) artırılmasına ehtiyac vardır. 2018-ci ildən Azİİ e-Kitab Evi universitetin elektron şəbəkəsinə qoşulmuş, sırf Azİİ brendi olan proqram təminatı ilə təmin olunmuşdur. 2023-cü ildən başlayaraq isə ADNSU-da mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi sistemi (*http://esd.e-gov.az/*) portalından istifadə olunur. Universitet üzrə bütün struktur bölmələri ilə sənəd dövriyyəsi bu sistem üzərindən həyata keçirilir. Sahə səfəri zamanı 160 müəllim arasında “tədris prosesində kompüter və internetin sürəti sizi nə dərəcədə qane edir?” sualı soruşulmuşdur. Sorğunun nəticələri Şəkil 5.4.4.1-də verilmişdir. Diaqramdan göründüyü kimi, respondentlərin 57.5 %-i “qismən uyğun”, 13 %-i isə “uyğun deyildir” kimi cavablandırmışdır.




**Şəkil 5.4.4.1 Tədris prosesində kompüter və internetin sürətinin vəziyyətilə bağlı sorğu nəticəsi**

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

ADNSU-da LMS-də tələbələrin şəxsi səhifələrində tədrislə bağlı məlumatlara - dərsə yazıldıqları qruplar, müəllimlər, elektron jurnal, dərs və imtahan cədvəli, fənn üzrə bal bölgüləri, apellyasiya müraciətləri modullarına girişi tam təmin edilmişdir. Hər semestrin sonunda tələbələr LMS üzərindən fənn müəllimlərinin qiymətləndirilməsini (anonim sorğu) həyata keçirirlər.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

LMS üzərindən həyata keçirilən əməliyyatlar onların emalı vasitəsilə hazırlanan hesabatlar müxtəlif istiqamətlər üzrə təhsilin keyfiyyətini təhlil etməyə və qərarlar qəbul etməyə imkan verir. Sahə səfəri zamanı müəllimlərlə hər semestrin sonu tələbələr arasında keçirilən sorğuların nəticələrinin onlarla paylaşılması ilə bağlı sorğu keçirilmişdir. Şəkil 5.4.6.1-də sorğunun nəticələri təsvir edilmişdir. Diaqramdan göründüyü kimi, 56 % müəllim qeyd etmişdir ki, tələbələr arasında keçirilən sorğuların nəticələri onlarla paylaşılmır. Aparılan sorğuların məqsədəuyğun şəkildə fakültələrdə və müvafiq şöbələrdə emal olnuması, tədris prosesində nəzərə alınması məqsədəuyğun olar.




**Şəkil 5.4.6.1 Tələbələr arasında keçirilən sorğu nəticələrinin müəllimlərlə paylaşılması ilə bağlı sorğunun nəticəsi**

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

ADNSU-da informasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların informasiya sistemləri ilə inteqrasiyası istiqamətində təkmilləşdirmə işləri həyata keçirilir. Digər ali məktəblərdə olduğu kimi, ATM-də də zəruri məlumatların dövri şəkildə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Ali və Orta İxtisas Təhsili Alt Sistemi (ATIS), Tələbə Məzun Dövlət Elektron Məlumat Sistemi (TMMS), Diplom Təsdiq Sisteminə (DTS) daxil edilməsi təmin edilir.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Özünütəhlil Hesabatında bu indikator haqqında məlumat daxil edilməmişdir, lakin sahə səfəri zamanı müsahibələrdə bildirilmişdir ki, ADNSU-da İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi Rəqəmsal İnkişaf və İnnovasiyalar Mərkəzinin nəzdində fəaliyyət göstərən İKT şöbəsi tərəfindən tənzimlənir. İKT şöbəsi son istifadəçi avadanlıqlarında yaranmış problemlərin, şəbəkə və server infrastrukturunun, məlumat bazalarınının idarə olunması, turniket, kamera və veb auditoriyalara nəzarət, daxili sistemlər və infrastrukturun təhlükəsizliyinin təmin olunmasına dəstək verir.

## 5.5 İctimaiyyətlə əlaqələr

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ADNSU-nun rəsmi veb-saytı (http://asoiu.edu.az) və məzun-karyera bölməsinin saytı (career.asoiu.edu.az) mövcuddur. Məzun-karyera bölməsinin saytı rəsmi veb-saytın tərkibində fəaliyyət göstərir. Saytla bağlı onu qeyd etmək lazımdır ki, saytda yerləşdirilmiş məlumatlar natamamdır, bəzi materiallar təkrarlanır, bəzi məlumatlar ümumiyyətlə saytda yerləşdirilməmişdir. Bu isə, öz növbəsində, tələbələrə, abituriyentlərə və digər istifadəçilərə əlçatanlığı məhdudlaşdırır. Saytda “struktur” bölməsinin mövcud strukturu əks etdirmədiyi, “Rektorun müraciəti” bölməsi yoxlanıldığı tarixlərdə işləmədiyi, “Haqqımızda” bölməsi ilə “Tariximiz” bölməsinin eynilik təşkil etdiyi müşahidə edilmişdir. Sayt iki dildə fəaliyyət göstərsədə, bəzi sənədlərin tərcümə olunmuş versiyası yoxdur. Saytın “Karyera” bölməsində işə qəbulla bağlı bölüm yoxdur, “CV forması” hissəsi işlək deyil.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ATM-in rəsmi saytındakı xəbərləri mütəmadi olaraq yeniləmək üçün 2 əməkdaş cəlb edilmişdir. Eyni zamanda dekanlıqlar üzrə nümayəndə seçilmiş və xəbərlərin yenilənməsi üçün onlara müvafiq təlimlər keçirilmişdir. Buna əsasən hər bir dekanlıq tərəfindən öz səhifələrinin yeniləməsi həyata keçirilir. Lakin, saytın vahid bir mərkəzdən idarə edilməsi məqsədəuyğundur.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

ADNSU-da ictimaiyyəti məlumatlandırmaq üçün veb-saytla yanaşı sosial şəbəkələrdən də istifadə olunur.

- Feysbuk: https://www.facebook.com/Azii1920.ADNSU - 14368 77
  Teleqram: https://t.me/Azii1920 - 2220
- Linkedin: https://www.linkedin.com/company/adnsu-m%C9%99zun-karyera-m%C9%99rk%C9%99zi – 1500
- Tvitter: https://twitter.com/ADNSU1 - 600
- İnstaqram: _asoiu_university – 208
- Youtube: https://www.youtube.com/@azerbaijanstateoilindustry8971 - 780

Universitetdə gündəlik xəbərlər ADNSU-nun veb-saytında və sosial şəbəkələrdə paylaşılır. Eyni zamanda, video-materiallar montaj olunaraq ATM-in Youtube kanalında paylaşılır.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

ADNSU-nun ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planı mövcud deyildir. İctimaiyyətin məlumatlandırılması ADNSU-nun rəsmi veb-saytı və sosial şəbəkə hesabları vasitəsilə həyata keçirilsə də, bu istiqamətlərdə məlumatlandırma səviyyəsinin artırılmasına tələbat vardır. Universitet üzrə ictimaiyyətin məlumatlandırılması ilə bağlı strategiyasının olmaması bu sahədə çatışmazlıq kimi qeyd edilə bilər. Strategiya həm xarici, həm də daxili kommunikasiya kanallarını, maarifləndirmə və məlumatlandırma istiqamətlərini, maraqlı tərəflər və hədəf auditoriyasının təhlilini, universitetin verdiyi əsas mesajlarını əhatə etməlidir.

İstehsalat təcrübəsi və Məzun-Karyera bölmələri "İctimaiyyətlə Əlaqələr və Marketinq Departamenti" tərkibindən çıxarılması, məzun-karyera sərgilərinin məzunlar və karyera məsələləri ilə bağlı struktur tərəfindən icra edilməsi məqsədəuyğundur. Eyni zamanda ADNSU-nun loqosu olaraq ASOIU, ADNSU, AZİİ kimi abeviaturalardan istifadə edilməsi ATM-in adlandırılması baxımından qeyri-müəyyənlik yaradır. Bu istiqamətdə müvafiq tədbirlərin görülməsi tövsiyə edilir.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanı verməsi vəziyyəti

ADNSU-nun öz fəaliyyətini maraqlı tərəflərin qiymətləndirməsi məqsədilə məzun-karyera yarmarkalarında şirkətlərin rəylərini öyrənmək üçün sorğular təşkil edilir, həmçinin tələbələr və tədbirin təşkili ilə bağlı iştirakçıların rəyi öyrənilir. Universitetin təlim-tədris fəaliyyətinin təkmilləşdirilməsi üçün bu kimi sorğuları sistemləşdirilməsi tövsiyə olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Komissiya ADNSU-da kommunikasiya strategiyasının hazırlanması və burada aşağıdakı məsələlərin öz əksini tapması tövsiyə olunur:

- Universitetin ümumi kommunikasiya siyasətinin və bu istiqamətdə strateji addımların təqdim edilməsi;
- Universitetin baxışlarının, siyasət və planlarının cəmiyyətə düzgün çatdırılması;
- Universitetin fəaliyyəti, habelə universitet həyatında baş verən dəyişiklik və yeniliklər barədə media qurumlarına və cəmiyyətə mütəmadi olaraq dəqiq və operativ məlumatların verilməsi;
- Hədəf auditoriyasının idarə edilməsi və müvafiq olaraq kommunikasiya tədbirlərinin təşkili;
- Potensial risklərin müəyyən edilməsi və onların idarəedilməsi;

- Universitetin korporativ imicinin qorunması və hər hansı reputasiya riskinin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi;
- Vətəndaş məmnuniyyətinin (təhsilin keyfiyyətindən razılıq, tələbələrə sosial xidmətlərin inkişaf səviyyəsi, məzunlarla davamlı əlaqə və s.) artırılması.

# 6. İNFRASTRUKTUR

## 6.1 Tədris infrastrukturu

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

ADNSU-nun tədris prosesinin təşkil olunduğu binaların (3) ümumi sahəsi 63977 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 53314 $m^2$ olmaqla dövlət standartlarına uyğunluq təşkil edir. Hər təhsilalana düşən faktiki sahə 3.1 $m^2$-dir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 2100 $m^2$ -dir. Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 5400 $m^2$, mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sahəsi isə 5435+6289 $m^2$ təşkil edir.

UFAZ-in tədris prosesinin təşkil olunduğu binaların (2) ümumi sahəsi 7595.7 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 7595.7 $m^2$ olmaqla dövlət standartlarına uyğundur. Hər təhsilalana düşən faktiki sahə 11.25 $m^2$, inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 408.53 $m^2$-dir. Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 219.85 $m^2$, mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sahəsi 352+1621.42 $m^2$ təşkil edir (statistik məlumatlar ATM tərəfindən təqdim edilən sənədlər əsasında təqdim edilmişdir). ATM-in bütün tədris binaları, o cümlədən tədris otaqları tədrisin təşkili üçün əsasən uyğundur. Tədris binalarında müasir laboratoriya otaqları, auditoriyalar, kompüter otaqları mövcuddur.

Özünütəhlil Hesabatında ATM-in nəzdində Azadlıq pr. 20 (əsas tədris binası), Dilarə Əliyeva küçəsi, 227 (II tədris binası), Nizami küçəsi,183 (III tədris binası) ünvanlarında 3 tədris binasının olduğu qeyd edilmişdir.

Sahə səfəri zamanı bəzi auditoriyalarda təmirə ehtiyacının olduğu müşahidə edilmişdir.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

ADNSU-da 2019-cu ildə əsas tədris binasının birinci mərtəbəsində 380 $m^2$ sahədə əsaslı təmirdən sonra 3 mərtəbəli 740 $m^2$ sahəsi olan və 3 oxu zalından ibarət müasir kitabxana - AzİƏ e-Kitab Evi fəaliyyət göstərir. 30.12.2022-ci il tarixində əsas və 2-ci tədris binalarını əlaqələndirən yeraltı keçiddə AzİƏ e-Kitab Evinin nəzdində fəaliyyət göstərən “Açıq kitabxana” istifadəyə verilmişdir. Kitabxananın Əsasnaməsi Elmi Şuranın 30 yanvar 2019-cu il tarixli, 5 saylı protokoluna əsasən 30 yanvar 2019-cu il tarixində universitetin rektoru tərəfindən təsdiq edilmişdir. Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 06 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında

kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 2.5.1-ci yarımbəndinə əsasən hazırlanmışdır və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən bütün ali təhsil müəssisələrinin kitabxanalarının fəaliyyətini tənzimləyir. Kitabxana 200-dən çox oturaq yerləri olan oxucu zalları, internet və WİFİ şəbəkəsi ilə təmin olunmuşdur.

Kitabxananın strukturu aşağıdakı bölmələrdən ibarətdir:

- Komplektləşmə və sistemləşmə bölməsi,
- Əməliyyat və xidmət bölməsi,
- Elektron resurslar bölməsi.

Kitab Evinin Elektron kataloquna 77218 nüsxə ədəbiyyat daxil edilərək barkodlaşdırılmışdır. AzİƏ e-kitab Evinin bütün struktur bölmələrinə, oxucu zallarına və açıq kitabxanaya 63635 nəfər qeydiyyatdan keçərək çap məhsullarından və elektron resurslardan yararlanmışdır. AzİƏ e-Kitab Evi 19.06.2017-ci il tarixindən Azərbaycan Kitabxanalararası Konsorsiumun üzvüdür. Konsorsiumun xətti ilə “EBSCO” beynəlxalq nəşriyyat bazasına abunə olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2012 tarixli 87 saylı “Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri”nin təsdiq edilməsi haqqında və 03.08.2012 tarixli 171 saylı “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında qərarlarına əsasən kitabxananın sahəsi bir tələbəyə 0,6 m$^2$ hesablanmaqla qəbul edilməlidir.

Kitabxanada aşağıdakı zonalar nəzərdə tutulur:

- oxucu yerləri;
- informasiya məntəqəsi (ədəbiyyatın verilməsi və qəbulu sahəsi);
- kataloqlarla iş yeri;
- açıq istifadə fondları;
- qapalı saxlanılma fondları;
- texniki tədris vasitələri ilə fərdi məşğələlər aparılan kabinələr sahəsi;
- arabalar saxlanılan bokslar.

"Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında Qərara əsasən kitabxanada arabalar saxlanılan boksların olması zəruridir. Eyni zamanda kitabxanalarda saglamlıq imkanları məhdud tələbələrə (inklüziv) dəstək məqsədilə müvafiq infrastrukturun formalaşdırılması tövsiyə edilir.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

ADNSU-da spesifik ixtisaslar üçün uyğunlaşdırılmış auditoriyalar, laboratoriyalar mövcuddur və lazımi avadanlıqlarla təchiz olunmuşdur. Hesabat dövründə ATM-də 1 elmi-tədqiqat institutu, 2 elmi-tədqiqat laboratoriyası, müxtəlif elmi-tədqiqat mərkəzləri və konstruktor bürosu fəaliyyət göstərir.

Spesifik ixtisaslar üçün uyğunlaşdırılmış auditoriyalar, laboratoriyalar mövcuddur və lazımi avadanlıqlarla təchiz olunmuşdur. Müvafiq laboratoriya və auditoriyaların tələbələr tərəfindən istifadə olunduğu müşahidə edilmişdir.

"Fizika", "Sənaye maşınları", "Faydalı qazıntı yataqlarının geoloqiyası və işlənməsi", "Neft və qaz mühəndisliyi", "Kimya  və qeyri-üzvi maddələrin texnologiyası", "Neftin-kimya texnologiyası və sənaye ekologiyası", "Materialşünaslıq və emal texnologiyaları", "Elektromexanika", "Enerji istehsalı texnologiyası", "Elektronika və avtomatika", "Cihazqayırma mühəndisliyi", "Üzvi maddələr və yüksəkmolekullu birləşmələrin texnologiyası", "Elektroenergetika", “Mexatronika", "Kompüter elmləri mühəndisliyi", "Neftin, qazın nəqli və saxlanması" laboratoriyaları, kompyuter laboratoriyaları, UFAZ tədris mərkəzində 6 laboratoriya mövcuddur. ATM-də kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədrisin təşkili üçün veb-distant auditoriya formatında qurulmuş auditoriyalar mövcud olsa da, internetin sürəti, laboratoriya otaqlarının xüsusi tədris avadanlıqları və tələbə sayına uyğun kompüterlə təchiz olunmasına etiyac vardır.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də mövcud ixtisaslar üzrə təlim və tədris prosesinin həyata keçirilməsinə xidmət edən ümumilikdə 18 tədris laboratoriyası mövcuddur ki, onların da ümumi sahəsi 339,39 $m^2$ təşkil edir. UFAZ tədris mərkəzinə məxsus 6 müasir tədris laboratoriyasının tələbələrin tam istifadəsinə verildiyi sahə səfəri zamanı müşahidə olunmuşdur. Fzika və kimya laboratoriyalarının müvafiq avadanlıqlarla təchizatı, onların yararlı vəziyyətdə olduğu və tələbə-müəllim heyəti üçün əlçatanlığı sahə səfəri zamanı müəyyən edilmişdir. Eyni zamanda ATM-də müasir standartlara cavab verən xüsusiləşmiş kompyuter otaqları fəaliyyət göstərir. ADNSU-da elmi araşdırmalar sahəsində əməkdaşların fəaliyyətini təmin etmək üçün 2 elmi-tədqiqat laboratoriyası mövcuddur.

**Cədvəl 6.1.4.1 . Kafedralar üzrə mövcud olan tədris-tədqiqat laboratoriyaları**

| № | Kafedranın adı | Təyinatı |
|---|---|---|
| 1 | "Fizika” kafedrası | Tədris laboratoriyası |
| 2 | "Sənaye maşınları" kafedrası | Tədris laboratoriyası |
| 3 | "Faydalı qazıntı yataqlarının geoloqiyası və işlənməsi"  kafedrası | Tədris laboratoriyası |
| 4 | "Neft və qaz mühəndisliyi" kafedrası | Tədris laboratoriyası |
| 5 | "Kimya  və qeyri-üzvi maddələrin texnologiyası" kafedrası | Tədris laboratoriyası |
| 6 | "Neft-kimya texnologiyası və sənaye ekologiyası" kafedrası | Tədris laboratoriyası |
| 7 | "Materialşünaslıq və emal texnologiyaları" kafedrası | Tədris laboratoriyası |
| 8 | "Elektromexanika" kafedrası | Tədris laboratoriyası |
| 9 | "Enerji istehsalı texnologiyası" kafedrası | Tədris laboratoriyası |
| 10 | "Elektronika və avtomatika" kafedrası | Tədris laboratoriyası |
| 11 | "Cihazqayırma mühəndisliyi" kafedrası | Tədris laboratoriyası |
| 12 | "Üzvi maddələr və yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrası | Tədris laboratoriyası |

| | | |
|---|---|---|
| 13 | "Elektroenergetika" kafedrası | Tədris laboratoriyası |
| 14 | "Nanomateriallar və nanotexnologiyalar" ETL | Elmi-tədqiqat laboratoriyası |
| 15 | BA Proqramının "Mexatronika" laboratoriyası | Tədris laboratoriyası |
| 16 | "Ümumi və tətbiqi riaziyyat" kafedrasının HPC ETM | Elmi-tədqiqat laboratoriyası |
| 17 | "Kompüter elmləri mühəndisliyi" kafedrası | Tədris laboratoriyası |
| 18 | "Neftin, qazın nəqli və saxlanması" kafedrası | Tədris laboratoriyası |

Tələbələrlə müsahibə zamanı UFAZ tədris mərkəzinin müasir standartlara cavab verən laboratoriyalarının olduğu, lakin ADNSU-nun digər fakültələrinin bu laboratoriyalardan istifadə etmədiyi qeyd edilmişdir. ADNSU-nun digər fakültələrinin UFAZ tədris mərkəzinin laboratoriyalarından tədris prosesində istifadəsinin təmin edilməsi tövsiyə olunur.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ATM-in balansında olan Daşkəsən rayonunun Kobalt kəndində “Daşkəsən Təcrübə Mərkəzi” istehsalat-təcrübə bazası mövcuddur. Lakin mashibələr zamanı bazanın yararsız olduğu və müəyyən problemlərlə baglı fəaliyyət göstərmədiyi bildirilmişdir.

Həmçinin, tələbələr üçün istehsalat təcrübəsini aparmaq məqsədilə aparıcı şirkət və müəssisələrlə müqavilələr bağlanmışdır. Tələbələr mütəmadi olaraq 180-ə yaxın müəssisədə istehsalat-təcrübələri keçirlər. Bunlara SOCAR, Enerji Məsələlərini Tənzimləmə Agentliyi, “Azərişıq” ASC, “Xalq sıgorta”, “Turanbank” , SOCAR Neftqaztikinti tresti və s. misal göstərmək olar.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ADNSU-da pandemiya dövründə dərslər Microsoft Teams, Zoom platformaları üzərindən onlayn şəkildə (distant) təşkil olunmuşdur. ATM-də akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlər keçirilmişdir..

Auditoriyaların əksəriyyəti müasir təlim prosesini aparmaq üçün veb-distant auditoriya formatında qurulmuş və lazımi təşkilati texnika ilə (proyektor, kompüter, kameralar və s) təchiz olunmuşdur.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATM-in balansında 6 minik avtomobili və 1 mikroavtobusdan ibarət nəqliyyat vasitəsi mövcuddur. Bu nəqliyyat vasitələrindən müəyyən tədbirlərdə professor-müəllim heyəti, eyni zamanda qonaqların ATM-in müxtəlif tədris binalarına getməsi üçün istifadə edilir.

Müsahibələr zamanı tələbələrin təcrübələrlə bağlı uzaq məsafələrə aparılması üçün böyük həcmli avtobuslara ehtiyac olduğu qeyd edilmişdir. Bu təcrübələrə təhsilalanların aparılması şəxsi maliyyə hesabına kənar avtobusların kirayəsi vasitəsilə həyata keçirildiyi bildirilmişdir. ATM-ə nəqliyyat xidmətinin təkmilləşdirilməsi tövsiyə olunur.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ADNSU-da professor-müəllim, inzibati və tələbə heyəti üçün mövcud tədris infrastrukturundan istifadənin əlçatalığı təmin edilmişdir. UFAZ-da olan müasir laboratoriyalardan ADNSU tələbələrinin də istifadə etmə imkanlarının təmin olunması tövsiyə edilir.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı müsahibələrdə qeyd edilmişdir ki, universitetdə hal-hazırda 44 nəfər I və II qrup əlil tələbə təhsil alır. ATM-in balansında olan tədris binalarına baxış zamanı tədris infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmadığı aşkar edilmişdir. Yalnız UFAZ-da sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu (panduslar, liftlər) mövcuddur.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Hal-hazırda universitetin əsas və 2 saylı tədris binasında professor-müəllim, inzibati və tələbə heyətinə xidmət edən sahələri 340 $m^2$, 300 $m^2$ və 160 $m^2$ müasir tələblərə cavab verən yeməkxanalar xidmət göstərir. Bunlarla yanaşı, 2 saylı tədris binasının 4-cü mərtəbəsində tələbələrin çoxsaylı müraciətləri nəzərə alınaraq 63 $m^2$ sahədə bufet və 2017-ci ildən əsas tədris binasının yarımzirzəmisində 266 $m^2$ sahədə əsaslı təmirdən sonra tələbələr üçün yeməkxana fəaliyyət göstərir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabtında qeyd edilir ki, hal-hazırda universitetin balansında ümumi sahəsi 15000 $m^2$ , 301 yaşayış otağından ibarət olan 9 mərtəbəli tələbə yataqxanası vardır. Sahə səfəri zamanı yataqxanaya baxış keçirilmiş, yataqxananın tamamilə yararsız vəziyyətdə olduğu aşkar edilmişdir. Baxış zamanı müşahidə edilmişdir ki, hazırda yataqxanada 33 xarici tələbə qalır, lakin yataqxananın cari vəziyyəti (istilik sistemi yoxdur, sanitar qovşaqları yarasız vəziyyətdədir) nəzərə alınaraq tələbələrin təhlükəsizliyi baxımından onların orda qalması məqsədəuyğun deyildir. ATM-ə yataqxana xidmətinin müasir standartlara uyğun olaraq bərpası və təkmilləşdirilməsi istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsi tövsiyə edilir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetin bütün tələbə heyətinə tam xidmət edən TƏBİB-in balansında olan 260 $m^2$ sahəni əhatə edən 2 saylı tələbə poliklinikası (Əsasnaməsi 08.01.2016-ci ildə təsdiqlənmişdir) fəaliyyət göstərir. Poliklinika tələbələr üçün çox profilli müalicəvi-profilaktik tibbi yardım həyata keçirir. Həmçinin xəstələnmə hallarının qarşısının alınması və xəstəliklərin erkən aşkar edilməsi, tələbələrin xəstəxanalarda stasionar bərpaedici müalicəyə göndərilməsi ilə bağlı zəruri tədbirlər reallaşdırır.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

Hazırda universitet üzrə Rəqəmsal İnkişaf və İnnovasiyalar Mərkəzinin nəzdində fəaliyyət göstərən İKT şöbəsi tərəfindən - son istifadəçi avadanlıqlarında yaranmış problemlərin, şəbəkə və server infrastrukturunun, məlumat bazalarınının idarə olunması, turniket, kamera və veb auditoriyalara nəzarət, daxili sistemlər və infrastrukturun təhlükəsizliyinin təmin olunması tənzimlənir. Universitetdə Microsoft 365 sistemi üzərindən bütün tələbə və əməkdaşlar korporativ mail hesablarıyla təmin olunmuşdur. Lakin sahə səfəri zamanı tələbələrlə aparılan müsabihələrdə aydın olmuşdur ki, tələbələr korporativ mail hesablarından aktiv şəkildə istifadə etmirlər.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Özünütəhlil Hesabatında indikatorun tələbi haqqında məlumat təsvir edilməmişdir. Lakin sahə səfəri zamanı müsahibələrdə qeyd edilmişdir ki, müvafiq ixtisaslar üzrə fakültələrdən gələn təkilflər üzrə auditorya və laboratoriyalara zəruri avadanlıqların alınması, ehtiyac yarandıqda təmir edilməsi istiqamətində işlər aparılır. Həmçinin Proqram təminatlarının inkişafı şöbəsi universitetin rəqəmsallaşması istiqamətində yeni texnologiyaları araşdıraraq proqram təminatlarının işlənib hazırlanması, virtual laboratoriyaların təşkil edilməsi üçün yeni tətbiqləri analiz edilərək tətbiqinə dəstək göstərir.

## 6.2 Elmi-tədqiqat infrastrukturu

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

Hazırda ADNSU-da ayrıca elmi-tədqiqat və innovasiya mərkəzi kimi xüsusi struktur bölmə olmasa da, universitetin elmi-tədqiqat infrastrukturu var və aşağıdakılar bu infrastruktura aiddir:

- Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən “Neftin-qazın geotexnoloji problemləri və kimya” Elmi-Tədqiqat İnstitutu (Elmi-tədqiqat işləri dövlət tərəfindən maliyyələşdirilmədiyinə görə Elmi Şuranın qərarına əsasən 2021-ci ildə Geoloji-kəşfiyyat, Kimya-texnologiya və Energetika fakültələrinin nəzdində fəaliyyət göstərən bəzi elmi-tədqiqat laboratoriyaları bu Elmi-Tədqiqat İnstitutunun nəzdinə keçirilmişdir);
- “Nanomateriallar və nanotexnologiyalar” elmi-tədqiqat laboratoriyası;
- “Sənayedə və iqdisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri” elmi-tədqiqat laboratoriyası;
- Mühəndis-konstruktor Mərkəzi;
- Lazer mərkəzi;
- Startap mərkəzi.

QEYD. Özünütəhlil Hesabatında ADNSU-da Layihə Menecmenti Ofisinin və Azad Mirzəcanzadə adına Dayanıqlı və Yaşıl Energetika Mərkəzinin yaradılması barəsində Elmi

Şuranın 25.01.2023-cü il tarixli iclasında müvafiq qərar qəbul olunduğu qeyd edilsə də, bu qərar hələ də icra olunmamışdır.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Neftin, qazın geotexnoloji problemləri və kimya Elmi-Tədqiqat İnstitutunda, həm də bilavasitə ADNSU-nun özündə fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyalarında tədqiqat işinin həyata keçirilməsi, müzakirəsi və nəticələrin maraqlı tərəflər (akademik heyət, sənaye nümayəndələri və s.) üçün təqdim edilməsinə imkan verən müvafiq avadanlıqlarla təchiz edilmiş otaqlar var. Belə ki, Elmi-Tədqiqat İnstitutunun ümumilkdə 594 $m^2$ sahəsi olan 25 otaq, (40-dan çox cihaz, qurğu və avadanlıqı), “Nanomateriallar və nanotexnologiyalar” elmi-tədqiqat laboratoriyasında 1 böyük zal, 2 kiçik otaq (15 cihaz, qurğu və avadanlıq), “Sənayedə və iqtisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri” elmi-tədqiqat laboratoriyasında isə 3 otaq (7 kompüter) mövcuddur.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1 Beynəlmiləlləşmə siyasəti

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ADNSU Elmi Şurası tərəfindən 31.03.2021-ci il tarixində beynəlmiləlləşmə siyasəti təsdiq olunmuşdur. Beynəlmiləlləşmə siyasətində qeyd olunan istiqamətlər ADNSU tərəfindən təqdim olunmuş 2021-2030-cu illər üçün İnkişaf Strategiyası üzrə Fəaliyyət Planında və 2012-2023-cu illər üçün İnkişaf Strategiyasında öz əksini tapır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, beynəlmiləlləşmə siyasətinin hazırlanmasını və həmin görüşlərdə maraqlı tərəflərin iştirakını göstərən hər hansı bir sənəd (iclasın protokolu, press relizlər və s.) təqdim olunmadı.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Beynəlmiləlləşmə siyasətində mübadilə proqramları üzrə mobilliyin artırılması və bu məqsədlə xarici universitetlərlə qurulan əməkdaşlıq əlaqələrinin sayının artırılması məqsəd olaraq qarşıya qoyulub.

ADNSU-nun beynəlmiləlləşmə siyasətinə uyğun olaraq 2017-2023-cü illərdə xarici qurumlarla əməkdaşlıq müqavilələri imzalanmışdır. Beynəlxalq əlaqələr şöbəsindən təqdim olunan məlumatlar aşağıdakı kimidir:

**Cədvəl 7.1.2.1 ADNSU-da 2017-2023-cü illər üzrə imzalanmış əməkdaşlıq müqavilələrin sayı**

| İllər üzrə | Əməkdaşlıq müqavilələri imzalanmış beynəlxalq qurumların sayı |
|---|---|
| 2017 | 16 |
| 2018 | 11 |
| 2019 | 9 |
| 2020 | 3 |
| 2021 | 4 |
| 2022 | 18 |
| 2023 | 7 |

ATM-ə bu istiqamət üzrə müsbət dinamikanın təmin edilməsi tövsiyə olunur. Özünütəhlil Hesabatında təqdim olunduğu kimi, 2017-2023-cü illərdə imzalanan müqavilələrin 28-i Mevlana Mübadilə Proqramı və 7-i isə Erasmus+ mobillik proqramı üzrədir. ADNSU-da təhsilalanların və professor-müəllim heyətinin sayını nəzərə aldıqda imzalanmış müqavilələrin sayının artırılması istiqamətində fəaliyyətin gücləndirilməsi tövsiyə olunur.

Beynəlmiləlləşmə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor müəllim heyətinin sayına nisbəti (%-la) aşağıdakı kimidir:

**Cədvəl 7.1.2.2 ADNSU-da 2017-2023-cü illər üzrə mübadilə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor müəllim heyətinin sayına nisbəti (%)**

| İllər üzrə | Mübadilə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor müəllim heyətinin sayına nisbəti (%) |
|---|---|
| 2017/2018 | 0.52% (3/574) |
| 2018/2019 | 0.52% (3/572) |
| 2019/2020 | 0.34% (2/573) |
| 2020/2021 | - |
| 2021/2022 | 0.53% (3/564) |
| 2022/2023 | 0.35% (2/569) |

Beynəlxalq əlaqələr şöbəsindən tədqim olunan cədvəldən göründüyü kimi, mübadilə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor-müəllim heyətinin sayına nisbəti ən yaxşı halda 0.53 faiz olmuşdur. Bu nisbətin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

Mübadilə proqramlarında iştirak edən təhsilalanların statistikasına nəzər yetirdikdə aşağıdakı mənzərə müşahidə olunur:

**Cədvəl 7.1.2.3. ADNSU-da 2017-2023-cü illər üzrə mübadilə proqramlarında iştirak edən təhsilalanların statistikası**

| İllər | Mübadilə proqramında iştirak edən bakalavriat səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən magistratura səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən doktorantura səviyyəsi üzrə təhsilalan sayı | Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanlarda payı (faizlə) | Mübadilə proqramları vasitəsi ilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayında payı (faizlə) |
|---|---|---|---|---|---|
| 2017/2018 | 4 | - | - | 0.04% (4/10855) | 0.04% (4/10855) |
| 2018/2019 | 5 | - | - | 0.04% (5/12381) | 0.1% (13/12381) |
| 2019/2020 | 5 | - | - | 0.035% (5/13891) | - |
| 2020/2021 | - | - | - | - | - |
| 2021/2022 | 2 | 1 | - | 0.018% (3/16500) | 0.05% (9/16500) |
| 2022/2023 | 3 | - | - | 0.017% (3/17499) | 0.05% (10/17499) |
| 2023/2024 | **-** | **-** | **-** | **-** | **-** |

Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təqdim olunan cədvəldən göründüyü kimi 2017-2023-cü illərdə 19 nəfər tələbə mübadilə proqramlarında iştirak etmişdir və ümumi tələbələrə nisbətdə bu göstəricinin gələcək illərdə artırılması tövsiyə olunur.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

Beynəlmiləlləşmə siyasətində əcnəbi tələbələrin sayının və coğrafi müxtəlifliyin artırılması məqsəd olaraq göstərilmişdir. Əcnəbi tələbələr dekanlığı tərəfindən təqdim olunan məlumatda əcnəbi tələbələrin illər üzrə coğrafi müxtəlifliyinin müsbət dinamikası görünür. Əcnəbi tələbələrin ümumi tələbə sayına nisbətinə nəzər yetirdikdə bu göstəricinin az olduğu görünür.

**Cədvəl 7.1.3.1 ADNSU-da 2017-2023-cü illər üzrə əcnəbi vətəndaşların, təmsil olunduqları ölkələrin sayı və tələbələrin sayının ümumi tələbə sayına nisbəti**

| № | İllər | Ölkələrin sayı | Tələbələrin sayı | Nisbəti |
|---|---|---|---|---|
| 1. | 2017/2018 | 23 | 330/10855 | 3% |
| 2. | 2018/2019 | 24 | 289/12381 | 2% |
| 3. | 2019/2020 | 19 | 245/13891 | 1,7% |
| 4. | 2020/2021 | 19 | 202/15342 | 1,3% |
| 5. | 2021/2022 | 26 | 196/16500 | 1,1% |
| 6. | 2022/2023 | 25 | 266/17499 | 1,5% |
| 7. | 2023/2024 | 29 | 288/18481 | 1,6% |

Universitet tərəfindən əcnəbi vətəndaşların cəlb edilməsi məqsədilə müasir dizaynlı və informativ bukletlər hazırlanmışdır. Həmçinin, əcnəbi vətəndaşların cəlbi məqsədilə müxtəlif yerli və xarici şirkətlərlə müqavilələr imzalanmışdır.

Əcnəbi vətəndaşların cəlb edilməsi məqsədilə təhsil sərgilərində iştirakın və info sessiyaların təşkil edilməsi istiqamətində fəaliyyətin genişləndirilməsi tövsiyə olunur.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Beynəlmiləlləşmə siyasətində qarşıya qoyulan məqsədlərdən biri də, əcnəbi professor-müəllim heyətinin sayının artırılmasıdır. Bu istiqamətdə 2017-2023-cü illərdə ADNSU-da yalnız 1 müəllim fəaliyyət göstərib və ümumi professor-müəllim heyətinin sayına nisbətdə bu yalnız 0.17 fazi təşkil edib. Tədrisə cəlb edilən xarici professor-müəllim heyətinin sayının artırılması tövsiyə olunur.

**Cədvəl 7.1.4.1 ADNSU-da 2017-2023-cü illər üzrə Xarici professor-müəllimlərin sayının ümumi professor-müəllim sayına nisbəti (%)**

| İllər üzrə | Xarici professor-müəllimlərin sayının ümumi professor-müəllim sayına nisbəti (%) |
|---|---|
| 2017/2018 | 0.17% (1/574) |
| 2018/2019 | 0.17% (1/572) |
| 2019/2020 | - |
| 2020/2021 | - |
| 2021/2022 | 0.17% (1/564) |
| 2022/2023 | 0.17% (1/569) |

Özünəthlil Hesabatında qeyd olunduğu kimi, 1 nəfər Almaniya vətəndaşı “Materialşünaslıq və emal texnologiyaları” kafedrasında dosent vəzifəsində fəaliyyət göstərir. 2 Almaniya vətəndaşı isə 2020/2022-ci tədris illərində “Xarici dillər” kafedrasında alman dili müəllimi vəzifəsində çalışmışdır.

Mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının ümumi inzibati heyətin sayına nisbəti (%-la) Beynəlxalq əlaqələr şöbəsi tərəfindən aşağıdakı cədvəldə təqdim olunmuşdur.

**Cədvəl 7.1.4.2 ADNSU-da 2017-2023-cü illər üzrə mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının ümumi inzibati heyətin sayına nisbəti (%)**

| İllər üzrə | Mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının ümumi inzibati heyətin sayına nisbəti (%) |
|---|---|
| 2017/2018 | 0.8% (2/249) |
| 2018/2019 | 1.38% (4/288) |
| 2019/2020 | 0.63% (2/315) |
| 2020/2021 | - |
| 2021/2022 | 1.06% (4/377) |
| 2022/2023 | 1.32% (5/376) |

Özünütəhlil Hesabatında təqdim olunduğu kimi, 2017-2023-cü illərdə akademik fəaliyyətlə bağlı ən azı 1 semestrini xarici təhsil müəssisəsində keçirmiş professor-müəllim olmamışdır.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

Tədqim olunan beynəlmiləlləşmə siyasətində beynəlxalq tədqiqatçıların cəlbi nəzərdə tutulmamışdır. Hazırda universitetdə xarici tədqiqatçı fəaliyyət göstərmir. Növbəti beynəlmiləlləşmə siyasəti sənədində bu istiqamətin nəzərər alınması tövsiyə olunur.

Özünütəhlil Hesabatına əsasən, 1 nəfər Braziliya vətəndaşı 2022/2023-cü tədris ilində Kimya texnologiya fakültəsində tədqiqatçı-professor olaraq çalışmışdır.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM tərəfindən tədqim olunan beynəlmiləlləşmə siyasətində beynəlxalq təhsil şəbəkələrinə və ya beynəlxalq təhsil təşkilatlarına münasibət hər hansı bir formada qeyd olunmayıb.

2021-2030-cu illər üçün ADNSU-nun İnkişaf Strategiyasında isə orta müddətli (5 illik) hədəflərdən biri olaraq beynəlxalq təşkilatlara üzvlüyün təmin edilməsi müəyyənləşdirilmişdir. Növbəti beynəlmiləlləşmə siyasəti formalaşdırıldıqda beynəlxalq təhsil şəbəkələrinə və ya beynəlxalq təhsil təşkilatlarına üzvlük məsələsinin nəzərə alınması tövsiyə olunur.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Beynəlmiləlləşmə siyasətində ikili diplom proqramları kifayət qədər nəzərə alınmış və bu istiqamətdə müvafiq fəaliyyətlər həyata keçirilir. ADNSU-nun hazırda Strasburq Universiteti

ilə “Kompyuter elmləri”, “Kimya mühəndisliyi”, “Geologiya və geofizika mühəndisliyi” olmaqla bakalavriat və magistratura səviyyələri üzrə, Renn-1 Universiteti ilə “Neft-qaz mühəndisliyi” istiqamətində bakalavriat səviyyəsində və Vorvik Universiteti ilə “Bərpa olunan enerji mühəndisliyi” magistratura səviyyəsi üzrə ikili diplom proqramları mövcuddur.

#### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Sahə səfəri zamanı Beynəlxalq əlaqələr şöbəsindən əldə olunan məlumata əsasən, 2021-ci ildə təsdiq olunmuş Beynəlmiləlləşmə siyasətinin 2025-ci ildə yenilənməsinin planlaşdırıldığı bildirilmişdir.

### 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

#### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Beynəlxalq əlaqələr üzrə prorektorluqdan və sahə baxışından əldə olunan məlumatlara əsasən ADNSU-da beynəlmiləlləşmə siyasətini həyata keçirən struktur aşağıdakı kimidir:



ADNSU-da Beynəlxalq əlaqələr üzrə prorektor Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi tələblər dekanlığının işini koordinasiya edir.

Özünütəhlil Hesabatının əhatə etdiyi 2017-2023-cü illər ərzində fəaliyyət göstərən beynəlxalq əməkdaşlıq şöbəsinin strukturunun 2024-cü ildə optimallaşdırılaraq və dəyişdirilərək Beynəlxalq əlaqələr departamenti adlandırılması planlaşdırılır.

ADNSU-nun Beynəlxalq əməkdaşlıq şöbəsi ilə aparılan müsahibələr zamanı aydın olmuşdur ki, bəzi vəzifələr hələ də, vakant olaraq qalır və bu işin gedişatına qismən mane olur. Eyni tendensiya əcnəbi tələbələr dekanlığında da müşahidə olunur.

ADNSU 05 fevral 2019-cu il tarixli 04-155 nömrəli əmrə əsasən dekanlığın strukturu təkmilləşdirilmişdir və beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üçün məqsədəuyğun hesab edilir.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Hazırda beynəlmiləlləşmə siyasətinin uğurla həyata keçirilməsi üçün təşkilatı struktur formalaşdırılıb. Beynəlxalq əlaqələr şöbəsinin tərkibində beynəlxalq layihələr və əməkdaşlıq, beynəlxalq mübadilələr, beynəlxalq reytinq və akkreditasiya sektorlarının yaradılması tövsiyə olunur.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Özünətəhlil Hesabatında və ADNSU-da aparılan müsahibələr zamanı mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması istiqamətində müəyyən boşluqların, xüsusilə sənədləşmə prosesində müəyyən natamamlıqların olması müəyyən edilmişdir. Bu istiqamətdə hər hansı rəsmi qərar və qaydalar təqdim olunmamışdır.

Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin və professor-müəllim heyətinin 24 dekabr 2013-cü il 348 №-li əmr ilə təsdiqlənmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən tələb olunan sənəd siyahısına uygun olaraq müvafiq sənədlərin tam formada tərtib olunması tövsiyə olunur.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Özünətəhlil Hesabatında qeyd olunduğu kimi, hesabat dövründə 4 nəfər əcnəbi professor-müəllim heyəti daimi və ya müvəqqəti ADNSU-da tədris prosesinə cəlb olunmuşdur. ADNSU-da fəaliyyət göstərən ümumi professor-müəllim heyətinin sayını (569 nəfər) və ümumi təhsilalanların sayını (18481 nəfər) nəzərə aldıqda bu göstəricinin qənaətbəxş olmadığı müşahidə olunmuşdur. Bu səbəbdən əcnəbi professor-müəllim heyətinin sayının artırılması tövsiyə olunur.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi tələbələr dekanlığının hər ilin sonunda hesabatı Beynəlxalq əlaqələr üzrə prorektora təqdim olunur. Həmin hesabat Elmi Şuranın qarşısında müzakirəyə çıxarılır. Qeyd olunan hesabatın müzakirəsi beynəlmiləlləşmə siyasətinin istiqamətlər üzrə icra edilmə vəziyyətini monitorinq etməyə imkan verir.

Ali təhsil müəssisəsi tərəfindən aparılan sorğularda tələbələrin mübadilə proqramları haqqında məlumatlılığı və əlçatanlığı haqqında suallara rast gəlinməyib. ATM tərəfindən tələbələr arasında aparılan sorğularda mübadilə proqramları haqqında rəylərin toplanması tövsiyə olunur. Akkreditasiya Komissiyası tərəfindən aparılan sorğuda isə rəyi soruşulan tələbələrin 48 fazinin bu proqramlar haqqında məlumatı olmadığı müəyyən olunmuşdur.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ADNSU-da hazırda 3 xarici ali təhsil müəssisəsi ilə birlikdə ikili diplom proqramları həyata keçirilir. Strasburq Universiteti ilə bakalavriat və magistratura səviyyələri üzrə “Kompyuter elmləri”; “Kimya mühəndisliyi”; “Geologiya və geofizika mühəndisliyi” ixtisasları, Renn-1 Universiteti ilə bakalavriat səviyyəsi üzrə “Neft-qaz mühəndisliyi” ixtisası, Vorvik Universiteti ilə magistratura səviyyəsində “Bərpa olunan enerji mühəndisliyi” ixtisası üzrə ikili diplom proqramları həyata keçirilir. Proqram rəhbərləri ilə aparılan müsahibələrdə və yerində keçirilmiş baxışda ikili diplom proqramlarında tədris zamanı AKTTS və yerli qanunvericiliyə riayət olunması müşahidə olunmuşdur.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, 2017-2023-cü illərdə yalnız 22 nəfər akademik heyət üzvü mübadilə proqramlarında iştirak etmişdir. Lakin, Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təqdim olunan məlumatda bu sayın 55 olduğu müəyyən olunmuşdur.

**Cədvəl 7.6. ADNSU-da 2017-2023-cü illər üzrə mübadilə proqramlarında iştirak edən tələbələrin və akademik heyətin sayı**

| İllər üzrə | Mübadilə proqramları ilə gələn tələbələrin sayı | Mübadilə proqramları ilə gələn akademik heyətin sayı | Mübadilə proqramları ilə gədən tələbələrin sayı | Mübadilə proqramları ilə gələn akademik heyətin sayı |
|---|---|---|---|---|
| 2017 | 5 nəfər | - | 5 nəfər | 6 nəfər |
| 2018 | 6 nəfər | 4 nəfər | 6 nəfər | 7 nəfər |
| 2019 | - | - | 5 nəfər | 3 nəfər |
| 2020 | - | - | - | 5 nəfər |
| 2021 | - | 1 nəfər | 2 nəfər | 12 nəfər |

| | | | | |
|---|---|---|---|---|
| 2022 | - | - | 1 nəfər | 9 nəfər |
| 2023 | - | 1 nəfər | - | 8 nəfər |

Mübadilə proqramlarında iştirak edən tələbələrin və professor-müəllim heyətinin sayının artırılması tövsiyə olunur.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ADNSU-da keçirilmiş müsahibələrdə akademik və inzibati heyətin mübadilə prosesinin şəffaf və hərkəsə əlçatan formada iştirakının təmin etmək üçün hər hansı daxili qaydaların təsdiq olunmadığı və ya hər hansı komissiya tərəfindən aparılmadığı müəyyənləşdirilmişdir. Seçim prosesi beynəlxalq əlaqələr üzrə prorektorun nəzarəti altında Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir.

Təhsilalanlar və professor-müəllim heyəti ilə aparılan sorğulardan məlum olduğu kimi, mübadilə proqramlarının daha aktiv təbliğatına ehtiyac görülür. Akkreditasiya Komissiya tərəfindən tələbələr arasında aparılan sorğuya əsasən, tələbələrin 48 faizinin mübadilə proqramları haqqında məlumatsız olduğu qeyd olunub. Tələbələrin 40 faizi isə mübadilə proqramlarında iştirak etmək istəmədiyini qeyd edib. Mübadilə proqramlarında iştirak edən tələbələrin cavablarından bəlli olur ki, 65 faiz halda kreditlərin tanınması ilə bağlı problemlər yaranıb.

Mübadilə proqramları ilə bağlı əlçatanlığın təmin edilməsi və kreditlərin tanınma mexanizminin təkmilləşdirilməsi tövsiyə olunur.

**Cədvəl 7.2.8.1 Akkreditasiya Komissiya tərəfindən tələbələr arasında aparılan sorğunun nəticələri**

| Təqdim olunan sual | ”Bəli” cavabı | “Qismən” cavabı | “Xeyr” cavabı |
|---|---|---|---|
| Tələbə mübadilə proqramlarında iştirak haqqında məlumatlısınız? | 22% | 28% | 48% |
| Mübadilə proqramlarında iştirak etməyi düşünürsünüzmü? | 58% | - | 40% |
| Mübadilə proqramlarında iştirak etmisinizsə, mübadilə dövründə qazandığınız kreditlər universitetiniz tərəfindən tanınıbmı? | 14% | 19% | 65% |

Akkreditasiya Komissiyası tərəfindən professor-müəllim heyəti arasında keçirilən sorğunun nəticəsinə əsasən, rəyi soruşulanların 79,9%-nin mübadilə proqramları haqqında məlumatının olduğu, 20,1%-nin isə məlumatının olmadığı müəyyənləşdirilmişdir.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

2017-2023-cü illərin statistikasına nəzər yetirsək görərik ki, 2017-2018-ci tədris ilində mübadilədə 4 nəfər tələbə, 2018-2019-cu tədris ilində mübadilədə 5 nəfər tələbə, 2019-2020-

ci tədris ilində mübadilədə 5 nəfər tələbə, 2021-2022-ci tədris ilində mübadilədə 2 nəfər tələbə, 2022-2023-cü tədris ilində mübadilədə 3 nəfər tələbə iştirak etmişdir. Ümumu təhsilalanlara nisbətdə dinamikada azalma müşahidə olunmuşdur.

Mübadilə proqramlarına təhsilalanların rəsmi təsdiqlənmiş seçim qaydaları və kriteriyaları mövcud deyildir. Gələcəkdə mübadilə proqramlarına təhsilalanların rəsmi təsdiqlənmiş seçim qaydalarının və kriteriyalarının müəyyən olunması, universitetin rəsmi saytında yerləşdirilməsi tövsiyə olunur.

Təlim və tədris prosesinin sahə baxışı zamanı və müsahibələr zamanı AKTTS-in tələblərinə uyğun qurulduğu müəyyən olunmuşdur.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Bu istiqamətdə ADNSU-da beynəlxalq reytinqlərlə əlaqədar işçi qrup yaradılmışdır. 2024-cü ildə ADNSU ilk dəfə QS Dünya Universitetlərinin Reytinq Sıralamasında 1220-ci yerdə qərarlaşıb. ADNSU-nun bu sahədə qazandığı uğurlardan biri də, məşğulluq göstəricisi üzrə 271-ci yeri tutmasıdır ki, Azərbaycan ali təhsil müəssisələri arasında ilk yerdədir. (https://azertag.az/xeber/adnsu_qs_reytinqinde_mesgulluq_gostericisine_gore_azerbaycanda_i_yerdedir-2701051)

## 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Beynəlmiləlləşmə siyasətinin icrasına ayrılan vəsaitin həcmində 2022 və 2023-cü illərdə kifayət qədər ciddi artım müşahidə olunmuşdur. 2017, 2018, 2019-cu illərdə beynəlmiləlləşmə siyasətinə heç bir vəsaitin ayrılmamasına baxmayaraq bu göstəricidə artan dinamika müşahidə olunmuş və 2023-cü ildə bu göstərici 250.000 manat təşkil etmişdir. Maliyyə şöbəsindən 2017-2023-cü illərdə ADNSU-nun maliyyə təminatı ilə bağlı təqdim olunmuş statistika aşağıdakı kimidir:

**Cədvəl 7.3.1.1 ADNSU-da 2017-2023-cü illər üzrə beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait**

| Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait | 0 | 0 | 0 | 20000.00 | 10000.00 | 149800.00 | 250000.00 |

28 oktyabr 2022-ci ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Təhsilin İnkişafı Fondu və ADNSU arasında elmi-pedaqoji heyət üzvlərinin və təhsilalanların IELTS imtahanına təşviq edilməsi işinin təşkili ilə əlaqədar müqavilə imzalanmışdır.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Beynəlxalq əlaqələr üzrə prorektorluqdan, sahə baxışı zamanı və kadrlar şöbəsindən əldə olunan məlumatlara əsasən beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üçün 17 ştat

vahidi yer ayrılmışdır. Ştatın formalaşdırılması Kadrlar şöbəsi, Plan-iqtisadiyyat şöbəsi və Mərkəzləşmiş mühasibatlığın baş mühasibi ilə razılaşdırılır və universitetin rektorunun əmri ilə təsdiqlənir.

Sahə baxışı zamanı və kadrlar şöbəsindən əldə olunan məlumatlara əsasən beynəlmiləlləşmə siyasətinin icrası üçün təşkilatı strukturun olmasına baxmayaraq, vakant yerlərin mövcud olması müəyyən edilmişdir.

ADNSU 05 fevral 2019-cu il tarixli 04-155 nömrəli əmrə əsasən Əcnəbi tələbələr dekanlığının strukturu təkmilləşdirilmişdir. Hazırda dekanlığın strukturuna dekan, 2 nəfər dekan müavini, 3 böyük müfəttiş və 2019-cu ildə yaradılmış Hazırlıq şöbəsinə müdir, 1 böyük müfəttiş, 1 böyük laborant daxildir. Bəzi vəzifələr üzrə hələ də vakant yerlər mövcuddur.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Sahə səfəri zamanı Əcnəbi tələbələr dekanlığının müasir dizaynla yenidən qurulması müşahidə olunmuşdur. Əcnəbi tələbələr dekanlığı və Beynəlxalq əlaqələr şöbəsi müasir avadanlıqlarla təhciz olunmuşdur. Beynəlmiləlləşmə siyasətinin icrası üçün struktur bölmələrdə infrastrukturun tələblərə uyğun olması müşahidə olunmuşdur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Sahə baxışı zamanı və müsahibələrdə resursların monitorinqinin və qiymətləndirilməsinin universitet rəhbərliyi tərəfindən daima aparıldığı müəyyən edilmişdir.

Hər il beynəlxalq əlaqələr üzrə prorektorun Elmi Şura qarşısında hesabatında Əcnəbi tələbələr dekanlığı və Beynəlxalq əlaqələr şöbəsinin hesabatları dinlənilir, fəaliyyət üzrə çatışmazlıqlar müəyyən olunur və bu çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi Elmi Şuranın qərarlarına daxil edilir.

Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi tələbələr dekanlığının ehtiyacları haqqında universitet rəhbərliyinə mütəmadi məlumat verilir.

Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti ilə əlaqədar xüsusi komissiyanın yaradılması tövsiyə olunur. Həmin komissiya tərəfindən rüblük və yekun hesabatların Beynəlxalq əlaqələr üzrə prorektorun illik hesabatlarına daxil edilməsi tövsiyə olunur.

## 7.4 Beynəlmiləlləşmə performansı

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə siyasəti üzrə əldə edilən nəticələrin dinamikasına nəzarət məqsədilə hər ilin sonunda Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi tələblər dekanlığının hesabatları hazırlanır. Hesabatlar özünütəhlil formasında hazırlanır və fəaliyyəti qiymətləndirmək üçün ümumi müzakirəyə çıxarılır. Beynəlmiləlləşmə siyasəti üzrə fəaliyyət ilboyu universitet

rəhbərliyi tərəfindən diqqətdə saxlanılır. Beynəlxalq təcrübəyə sahib gənc müəllimlər işə cəlb olunurlar.

Mübadilə proqramlarında iştirak edən tələbələrin sahə baxışı zamanı əldə etdikləri transkriptlərlə tanış olduqda nəticələri kifayət qədər uğurlu hesab etmək olar. ADNSU tərəfindən bp Azerbaijan və British Council ilə birlikdə 2021-ci ildən etibarən ödənişsiz APTİS və IETLS imtahanları həyata keçirir, bu isə həm təhsilalanlar, həm də professor-müəllim heyəti üçün vacibdir.

2017/2018-ci tədris ilindən başlamaqla “Post Oil Economy” mövzusunda beynəlxalq yay məktəbləri təşkil olunmuş və ümumilkdə 73 xarici tələbə ADNSU-nun təşkil etdiyi yay məktəblərində iştirak etmişdir.

2017/2018-ci tədris ilində 11 nəfər tələbə və 1 nəfər akademik heyəti DAAD (Alman Akademik Mübadilə Xidməti) tərəfindən dəstəklənən “Study visit” layihəsi çərçivəsində Almaniyanın müxtəlif universitetlərində təcrübə keçmişdir.

### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

ADNSU-ya sahə baxışı dövründə və müsahibələr zamanı beynəlmiləlləşmə siyasəti istiqamətində fəaliyyət göstərən işçilərin maddi-texniki baza ehtiyaclarının qısa zaman ərzində həll olunduğu bildirilmişdir. Əcnəbi təhsilalanlarla müsahibələrdən məlum olduğu kimi, yataqxanalarda mövcud şəraitin yaxşılaşdırılmasına ehtiyac duyulur. Universitet rəhbərliyinin beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üçün məqsədyönlü fəaliyyəti müşahidə olunmuşdur.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. Qısa, orta, uzunmüddətli strateji hədəflər mövcuddur;<br>2. Elmi-tədqiqat istiqamətində qoyulan hədəflər üzrə uğurlu və işlək strategiya qurulmuşdur;<br>3. Hazırlanmış və tətbiq edilən mexanizmlər bu istiqamətin təkmilləşdirilməsini təşviq edir;<br>4. Strateji inkişaf planı, müvafiq fəaliyyət planı və qısa hesabatların maraqlı tərəflər üçün əlçatanlığının təmin olması. |
| **Zəif tərəflər** | 1. Strateji inkişafa cavabdeh olan ayrıca strukturun mövcud olmaması;<br>2. Elmi-tədqiqat istiqamətindən başqa, digər strateji istiqamətlər üzrə işlərin zəif aparılması;<br>3. Strateji inkişaf üzrə hədəflər əsasında təyin edilən fəaliyyətlərin və tədbirlərin monitorinqi vahid mexanizm əsasında aparılmır. |
| **Komissiyanın tövsiyəsi** | 1. Strateji inkişafa cavabdeh olan ayrıca strukturun yaradılması;<br>2. Elmi-tədqiqat istiqaməti ilə yanaşı, digər strateji istiqamətlərə, xüsusilə, tədrisin keyfiyyətinin artırılması, pedaqoji kadrların müasirləşdirilməsi, infrastrukturun yenilənməsi istiqamətlərinə diqqət artırılması;<br>3. Stateji inkişaf istiqamətində işlərin keyfiyyətinin və nəticələrinin ölçülməsi üçün vahid monitorinq mexanizminin yaradılması. |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | 1. “Keyfiyyət siyasəti” və “Daxili Keyfiyyət Bəyannaməsi” sənədlərinin mövcud olması;<br>2. Daxili Keyfiyyət Komissiyasının və onun əsasnaməsinin mövcudluğu;<br>3. Mövcud sənədlərin bütün maraqlı tərəflər üçün əlçatan olması; |

| | |
|---|---|
| | 4. Tələbələr arasında akademik istiqamətdə mütəmadi sorğuların təşkili. |
| **Zəif tərəflər** | 1. Daxili keyfiyyət təminatı sektorunun Elm və təhsil analitik mərkəzinin tərkibində olması, müstəqil fəaliyyət göstərməməsi;<br>2. Daxili keyfiyyət təminatı sektorunda insan resursu çatışmazlığı və vəzifə təlimatlarının mövcud olmaması;<br>3. DKT Komissiyası və DKT sektoru arasında vəzifə öhdəliklərinin və səlahiyyətlərin düzgün bölünməməsi;<br>4. DKT Komissiyasına tələbələrin cəlb olunmaması;<br>5. DKT Komissiyasının səlahiyyət, vəzifə və hədəfləri üzrə bölgünün aydın şəkildə aparılmaması;<br>6. Keyfiyyət təminatı sistemi istiqamətində görülən işlər üzrə vahid prosedurların və hesabatlılığın mövcud olmaması;<br>7. Keyfiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində görülən tədbirlərin azlığı;<br>8. Sistematik təhlil çərçivəsində mütamadi sorğuların ancaq tələbələr arasında keçirilməsi;<br>9. Keçirilən sorğular üzrə nəticələrin emalı üzrə vahid mexanizmin olmaması və nəticələrin müəyyən mexanizm əsasında təhlil olunmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Daxili keyfiyyət təminatı üzrə struktur bölmənin (DTK sektoru) müstəqil şəkildə fəaliyyət göstərməsi, digər struktura tabe olmaması;<br>2. DKT sektorunun ayrıca əsasnaməsinin tərtib edilməsi, əməkdaşların vəzifə təlimatlarının hazırlanması;<br>3. DKT Komissiyasının tərkibinin vaxtaşırı yenilənməsi, üzvlər arasında iş bölgüsünün aparılması və izlənməsi, maraqlı tərəflərin Komissiyanın işinə cəlb edilməsi;<br>4. Keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə fəaliyyət planına müvafiq olaraq təhlilin aparılması, vahid hesabatlılığın təmin edilməsi;<br>5. Keyfiyyət mədəniyyətinin formalaşdırılması və davamlı inkişafı üçün müvafiq təlimlərin, məlumatlandırma sessiyalarının təşkil edilməsi; |

| | |
|---|---|
| | 6. Keyfiyyət təminatı üzrə təhlillərin təkmilləşdirilməsi, bu proses çərçivəsində bütün maraqlı tərəflərin rəylərinin nəzərə alınması - tələbələrlə paralel olaraq, digər maraqlı tərəflər arasında sistematik sorğuların təşkil olunması;<br>7. Aparılan sorğuların təkmilləşdirilməsi məqsədilə sorğu formatına, qoyulan suallara vaxtaşırı baxılması, bu işə müvafiq heyətin cəlb edilməsi;<br>8. ATM-də keçirilən sorğu nəticələrinin təhlili üçün standartların (hesabat forması) tərtib edilməsi, bütün struktur bölmələr tərəfindən müvafiq hesabatların hazırlanması və rəhbərlik tərəfindən təsdiq edilməsi;<br>9. KT sistemi üzrə bütün istiqamətlərdə Planlama-İcra-Nəzarət-Düzəliş (PDCA) modelinə uyğun mexanizmin tətbiq olunması. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Təhsil proqramlarının yenilənməsi zamanı uyğun ixtisaslar üzrə əmək bazarının nümayəndələrinin rəy və təkliflərinin nəzərə alınması;<br>2. Fənlərin tədrisində problemyönümlü, səriştə əsaslı, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilməsi;<br>3. Tələbələrin təlim və tədris resurslarına əlçatanlığı;<br>4. Kitabxana sisteminin müasir tələblərə uyğun olaraq təşkil edilməsi;<br>5. Təhsilalanların inkişafına nəzarət edən və onlara tədris prosesində dəstək göstərən akademik məsləhətçilərın (tyutorların) işinin təşkili;<br>6. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarının mövcud olması;<br>7. Universitetdə təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığının həyata keçirilməsi;<br>8. ATM-də məzunlarla sistemli əlaqələri əks etdirən elektron bazanın mövcudluğu. |
| **Zəif tərəflər** | 1. ADNSU daxilində dövrü olaraq təhsil proqramlarının qiymətləndirilməsi mexanizminin mövcud olmaması; |

| | |
|---|---|
| | 2. Əmək bazarı və işəgötürənlərin nümayəndələri ilə keçirilən görüşlərin, onların təklif və tövsiyələrinin rəsmiləşdirilməməsi;<br>3. Təhsil proqramları üzrə təlim nəticələrinin ictimaiyyət üçün əlçatan olmaması;<br>4. Müəllimlərin innovativ, interaktiv tədris metod və üsullarından istifadəsinin məhdud olması, bununla bağlı monitorinq və hesabatlılığın aparılmasının zəif olması;<br>5. Tədris prosesində əcnəbi tələbələrlə koordinasiyanın zəif təşkil olunması;<br>6. İxtisaslara uyğun olaraq tədris laboratoriyalarının lazımi avadanlıq və kompüterlə təmin olunmaması;<br>7. I tədris ili tələbələri üçün tədris prosesi ilə bağlı maarifləndirmə işinin zəif aparılması və müvafiq təlimatlandırıcı sənədlərin (yaddaş kitabçası və s.) mövcud olmaması;<br>8. Tələbələrə psixoloji dəstəyin verilməsi işinin zəif təşkili;<br>9. Tələbələrin mübadilə proqramlarının imkanlarından yararlanması istiqamətində işin zəif təşkil olunması;<br>10. Qiymətləndirmə haqqında təlimatın, bilik və bacarıqların qiymətləndirilməsi haqqında metodiki göstərişin və s. normativ sənədlərin formalaşdırılmasına ehtiyacın olması;<br>11. Sağlamlıq imkanları məhdud təhsilalanlara dəstək işinin zəif olması;<br>12. Universitetin elektron tədris sistemindən bəzi tədris sənədlərinin (məsələn, transkriptlərin) avtomatik əldə edilə bilməməsi;<br>13. Karyera mərkəzinin strukturunun tam formalaşdırılmaması və mərkəzin fəaliyyətini tənzimləyən sənədlərin (əsasnamə, vəzifə təlimtaları, prosesi tənzimləyən qayda və təlimatlar) mövcud olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-də təhsil proqramlarının qiymətləndirilməsi üzrə müvafiq mexanizimlərin işlənib hazırlanması;<br>2. İşəgötürənlərin və əmək bazarı nümayəndələrinin təhsil proqramlarının və tələbə qəbulu üzrə plan yerlərinin formalaşdırılmasında aktiv iştirakının təmin edilməsi və bu görüşlərin rəsmiləşdirilməsinin (protokollaşdırılmasının) həyata keçirilməsi;<br>3. Təhsil proqramları üzrə təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığının təmin edilməsi;<br>4. Tədris prosesində innovativ, interaktiv tədris metod və üsullarından istifadənin monitorinqi vəziyyətinin və hesabatlılığının təkmilləşdirilməsi;<br>5. Tədris prosesində əcnəbi tələbələrlə koordinasiyanın təkmilləşdirilməsi; |

| | |
|---|---|
| | 6. İxtisaslara uyğun olaraq tədris laboratoriyalarının (UFAZ istisna olmaqla) müasir standartlara cavab verən avadanlıqlarla təmin edilməsi;<br>7. Tələbələrin hüquq və vəzifələrini əks etdirən təlimatların hazırlanması, I tədris ili tələbələrinin tərdis prosesi ilə bağlı maarifləndirilməsi;<br>8. Psixoloji dəstək mərkəzi strukturunun formalaşdırılması;<br>9. Professor-müəllim, inzibati və tələbə heyətinin mübadilə proqramlarında mütəmadi iştirakının təmin edilməsi;<br>10. Qiymətləndirmə qaydaları haqqında təlimatın, bilik və bacarıqların qiymətləndirilməsi haqqında metodiki göstərişin və s. normativ sənədlərin işlənib hazırlanması;<br>11. Sağlamlıq imkanları məhdud təhsilalanlara dəstək məqsədilə təlimlərin kecirilməsi, əlilliyi olan tələbə və məzunların işlə təmin olunmasında yaxından iştirakının təmin edilməsi;<br>12. Tədrisin Elektron idarə edilməsi sisteminin təkmilləşdirilməsi;<br>13. Məzun Karyera Mərkəzinin işlərinin təkmilləşdirilməsi məqsədilə proqram təminatı kimi tətbiq və texniki imkanlardan istifadə edilməsi;<br>14. ATM-də tədris prosesi ilə bağlı keçirilən sorğuların emal olunaraq dəyərləndirilməsinin aparılması;<br>15. Akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqi və d. təlimlərin sistemli şəkildə keçirilməsi. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. “ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”nda “Elmi fəaliyyət” adlı bölmənin mövcudluğu, strategiyanın ADNSU-nun rəsmi internet saytında yerləşdirilməsi;<br>2. ADNSU-nun Elmi Şurasının 24.11.2021-ci il tarixli iclasının 3 nömrəli protokolu ilə “ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası” sənədinin təsdiq edilməsi;<br>3. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının təmin edilməsi; |

| | |
|---|---|
| | 4. Elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmin tətbiq edilməsi;<br>5. Ölkədaxili və xarici bir çox elmi müəssisə və təşkilatlarla ADNSU arasında tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu;<br>6. Hər il müxtəlif mövzular üzrə çoxsaylı beynəlxalq, respublika və universitet səviyyəli elmi konfrans, seminar, görüş və s. tədbirlərin keçirilməsi;<br>7. ADNSU əməkdaşlarının elm və təhsil sahəsində beynəlxalq və respublika səviyyəli qrant layihələrində iştirakı;<br>8. ADNSU-da "Azərbaycan ali texniki məktəblərinin xəbərləri", HPC Mərkəzinin "Azerbaijan Journal of High Performance Computing" jurnalı, "Ümumi və tətbiqi riyaziyyat" kafedrasının "Baku Mathematical Journal"ı, eləcə də bəzi fakültələrin jurnallarının təsis edilərək nəşr olunması;<br>9. ADNSU-da elmi kadrların hazırlanması üçün ümumilikdə 9 ixtisas üzrə 3 Dissertasiya Şurasının fəaliyyət göstərməsi. |
| **Zəif tərəflər** | 1. "ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası""nın ingilis dilinə tərcümə olunmuş variantının olmaması;<br>2. "ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası" Akkreditasiya Komissiyasına təqdim edilsə də, ADNSU-nun rəsmi saytında yerləşdirilməməsi;<br>3. ADNSU-nun büdcəsindən elmi-tədqiqata ayrılan vəsaitdə 2020-ci ildən sonra azalma dinamikası müşahidə olunması (həm vəsaitin miqdarında, həm də bu fəaliyyətə ayrılan vəsaitin ADNSU-nun ümumi büdcəsindəki payında);<br>4. 2017-ci (5000 manat) və 2021-ci ildən (4785 manat) istisna olmaqla, son 7 il ərzində elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlirin əldə edilməməsi;<br>5. Elmi-tədqiqat sahəsində fəaliyyət göstərən bəzi struktur bölmələrin əsasnamələri və onların əməkdaşlarının vəzifə təlimatları olmaması və ya ADNSU-da aparılmış müəyyən struktur dəyişiklikləri ilə əlaqədar qüvvədən düşməsi;<br>6. İxtira ilə bağlı patentlər əldə edilsə də (son 6 ildə 30 patent), onların kommersiallaşdırılması ilə bağlı nəticələrin olmaması;<br>7. Doktoranturada təhsil aldıqları müddət başa çatanadək dissertasiya müdafiə edənlərin sayının az olması; |

| | |
|---|---|
| | 8. Kafedraların nəzdində tələbə elmi dərnəkləri, həmçinin elmi dərnəkləri profil üzrə birləşdirən gənc alimlər birliyinin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyasının xarici tərəfdaşlar üçün də əlçatanlığını təmin etmək üçün onların ingilis dilinə tərcümə olunmuş variantının hazırlanması və ADNSU-nun saytında yerləşdirilməsi;<br>2. "ADNSU-nun elmi-tədqiqat fəaliyyətinin inkişaf strategiyası"nın ADNSU-nun rəsmi saytında yerləşdirilməsi;<br>3. ADNSU-nun büdcəsindən elmi tədqiqata ayrılan vəsaitin artırılması (həm vəsaitin miqdarında, həm də bu fəaliyyətə ayrılan vəsaitin ADNSU-nun ümumi büdcəsindəki payında);<br>4. Həyata keçirilən elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlir əldə edilməsi istiqamətində məqsədyönlü tədbirlərin görülməsi;<br>5. Elmi-tədqiqat sahəsində fəaliyyət göstərən bütün struktur bölmələrin əsasnamələrinin və onların əməkdaşlarının vəzifə təlimatlarının hazırlanması və müvafiq qaydada təsdiq olunması;<br>6. İxtira ilə bağlı patentlərin kommersiallaşdırılması ilə bağlı məqsədyönlü tədbirlər görülməsi;<br>7. Doktoranturada təhsil aldıqları müddət başa çatanadək dissertasiya müdafiə edənlərin sayının çoxalması istiqamətində məqsədyönlü tədbirlərin görülməsi;<br>8. Azərbaycan Respublikası təhsil nazirinin 27 iyun 2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmiş Tələbə Elmi Cəmiyyəti (TEC) haqqında Nümunəvi Əsasnaməyə uyğun olaraq, kafedraların nəzdində fəaliyyət göstərən tələbə elmi dərnəklərin, həmçinin elmi dərnəkləri profil üzrə birləşdirən gənc alimlər birliyinin (bölmələrinin) təşkil olunması. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-nin qənaətbəxş strukturunun mövcud olması;<br>2. İnformasiya idarəetmə sisteminin çoxsaylı fərqli modullardan ibarət olması və əlçatanlığının təmin edilməsi; |

| | |
|---|---|
| | 3. Universitetin bütün struktur bölmələrini əhatə edən Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi sisteminin mövcudluğu;<br>4. Tədris prosesinin effektiv şəkildə planlaşdırılmasını və idarə olunmasını təmin edən -Tədrisin Elektron İdarə Olunması (LMS və Unibook) sisteminin mövcudluğu;<br>5. Son illər beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsaitdə ciddi artımın müşahidə olunması;<br>6. Büdcədənkənar vəsaitlərin kifayət qədər yüksək olması;<br>7. Qrant və layihələrdən əldə olunan gəlirlərin artan dinamikasının müşahidə olunması; |
| **Zəif tərəflər** | 1. ATM-in idarəetmə strukturlarında maraqlar toqquşmasının mövcudluğu, idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiyanın zəif olması;<br>2. İşə qəbul elanlarının ATM-in saytında yerləşdirilməməsi;<br>3. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün sistemin (mexanizm, prosedur, təlimat və s.) mövcud olmaması;<br>4. İşə qəbulla bağlı namizədlərin seçiminə dair meyarların mövcud olmaması;<br>5. ATM-in veb-saytında məlumatların natamamlığı, təkrarlanma halları, bəzi məlumatların yerləşdirilməməsi;<br>6. Professor-müəllim heyətinin, eləcədə əməkdaşların ixtisas bacarıqlarını və kvalifikasiyalarını artırmaq məqsədilə təlimlərə cəlb edilmə intensivliyinin aşağı olması;<br>7. Daxili audit sisteminin olmaması;<br>8. ATM daxilində elan edilmiş qrant və layihələrin olmaması;<br>9. Elmi-tədqiqat fəaliyyəti nəticəsində vəsaitlərin əldə olunmaması;<br>10. Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsaitlərin dinamikasının dayanıqlı olmaması;<br>11. Universitetin maddi-texniki bazasının yenilənməsi üçün ayrılan vəsaitlərin yetərli olmaması;<br>12. Kitabxana resurslarının yenilənməsi üçün kifayət qədər maliyyə vəsaitin ayrılmaması;<br>13. Elmi-tədqiqat fəaliyyətlərinə büdcədən ayrılan maliyyə vəsaitinin az olması;<br>14. Maliyyə hesabatlarının ictimaiyyət üçün əlçatan olmaması; |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-in idarəetmə strukturlarında maraqlar toqquşması hallarının aradan qaldırılması, idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya mexanizminin qurulması;<br>2. ATM-in saytında işə qəbulla bağlı vakansiyaların yerləşdirilməsi; |

| | |
|---|---|
| | 3. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün sistemin (mexanizmi, prosedur, təlimatı və s.) yaradılması;<br>4. İşə qəbul ilə bağlı namizədlərin seçimi, müəyyənləşdirilməsi və d. məsələlərə dair sistemin yaradılması;<br>5. ATM-in veb-saytının təkmilləşdirilməsi;<br>6. Professor-müəllim heyətinin, həmçinin digər əməkdaşların ixtisas bacarıqları və kvalifikasiyalarının artırılması məqsədilə müasir tələblərə cavab verən şirkətlər tərəfindən təlimlərin keçirilməsi;<br>7. ATM-də daxili auditin təşkil olunması;<br>8. ATM daxilində mövcud qrant və layihələr haqqında məlumatların əlçatan olması;<br>9. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan vəsaitlərin elmin inkişafı üçün yönəldilməsi;<br>10. Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsaitlərin tələbə sayı dinamikasına uyğunlaşdırılması;<br>11. Universitetin maddi-texniki bazasının yenilənməsi üçün yetərli vəsaitin ayrılması;<br>12. Kitabxana resurslarının yenilənməsi üçün yetərli qədər maliyyə resurslarının ayrılması;<br>13. Elmi-tədqiqat işlərini sürətləndirmək üçün əlavə maliyyə vəsaitinin ayrılması;<br>14. Maliyyə hesabatlarının ictimaiyyət üçün əlçatanlığının təmin edilməsi. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Son illərdə universitetin tədris binalarının yenilənməsi və modernləşdirilməsi istiqamətində təkmilləşdirmənin aparılması;<br>2. Universitetin tədris binalarında (I tədris binası və UFAZ) müxtəlif təlim metodlarının tətbiq edilməsini və tələbələrin praktik bacarıqlarını inkişaf etdirməsini təmin edən auditoriyalar, laboratoriya otaqları, kompüter otaqları və digər müasir təlim resurslarının mövcudluğu və bütün infrastrukturun tələbə və müəllim heyəti üçün əlçatan olması;<br>3. Bütün tədris binalarında yeməkxanaların (bufetlərin) olması;<br>4. Tibbi xidmətin (3 saylı poliklinika) mövcudluğu;<br>5. UFAZ-da sağlamlıq imkanları məhdud şəxslərin hərəkət etməsi və tədrisini davam etdirməsi üçün müvafiq infrastrukturun təşkili; |

| | |
|---|---|
| | 6. ADNSU-da “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi-Tədqiqat İnstitutu, “Nanomateriallar və nanotexnologiyalar”, “Sənayedə və iqdisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri” elmi-tədqiqat laboratoriyalarında tədqiqat işinin həyata keçirilməsi, müzakirəsi və nəticələrin maraqlı tərəflər üçün təqdim edilməsinə imkan verən müvafiq şəraitin mövcudluğu;<br>7. ADNSU-nun müasir avadanlıqlarla təchiz edilmiş nəşriyyatı – mətbəənin mövcudluğu;<br>8. ADNSU-nun zəngin elmi ədəbiyyata malik olan (201635 nüsxə elmi (monoqrafiya) ədəbiyyat və 2875 nüsxə avtoreferat və dissertasiya) əsaslı kitabxanası və onun bazası əsasında yaradılmış “AzİI e-Kitab Evi”nin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Yataqxananın yarasız vəziyyətdə olması;<br>2. ADNSU-nun tədris binalarında (UFAZ istisna olmaqla) sağlamlıq imkanları məhdud tələbələr üçün müvafiq şəraitin olmaması;<br>3. Spesifik dərslərin keçirilməsini nəzərdə tutulan kompüter otaqlarının tələbə sayına uyğun olmaması;<br>4. ADNSU-da təhsilalaların UFAZ tədris mərkəzinin laboratoriyalarından istifadə edə bilməməsi;<br>5. ADNSU-nun “miqyası”na və strateji hədəflərinə uyğun elmi-tədqiqat laboratoriyalarının sayının az olması;<br>6. Elmi-tədqiqat laboratyoriyalarında müasir avadanlıqlarla yanaşı, köhnəlmiş cihaz, qurğu və avadanlıqların (bəziləri artıq istifadəyə yararsızdır) mövcudluğu; |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM üzrə təhsilalanların sayını nəzərə alaraq yataqxana binasının təmiri, yataqxana xidmətinin təkmilləşdirilməsi;<br>2. Sağlamlıq imkanları məhdud təhsilalanlara dəstək məqsədiylə infrastrukturun (UFAZ istisna olmaqla) təkmilləşdirilməsi;<br>3. Kompüter laboratoriyalarında kompüter sayının tələbə sayına uyğunlaşdırılması;<br>4. ADNSU-nun müvafiq fakültələrinin UFAZ tədris mərkəzinin laboratoriyalarından tədris prossesində istifadəsinin təmin olunması;<br>5. “ADNSU-nun 2021–2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası”na uyğun olaraq, yeni elmi-tədqiqat mərkəzlərinin və laboratoriyalarının yaradılması;<br>6. Elmi-tədqiqat laboratoriyalarının ən yeni, müasir cihaz, qurğu və avadanlıqlarla təchiz edilməsi. |

| 7. Beynəlmiləlləşmə | |
|---|---|
| **Güclü tərəflər** | 1. Beynəlxalq reytinqlərdə iştirak istiqamətində məqsədyönlü fəaliyyətin həyata keçirilməsi;<br>2. İkili diplom proqramlarının mövcudluğu;<br>3. Beynəlxalq akkreditasiyadan keçmiş proqramların mövcud olması. |
| **Zəif tərəflər** | 1. Əcnəbi təhsilalanların sayının ümumi təhsilalanların sayına nisbətdə azlıq təşkil etməsi;<br>2. Beynəlxalq mübadilə proqramlarında iştirak edən təhsilalanların və professor-müəllim heyətinin sayının az olması;<br>3. Universitetdə əcnəbi təhsilalanların tədqiqata və sosial-mədəni həyata kifayət qədər cəlb olunmaması;<br>4. Sorğularda spesifik olaraq əcnəbi təhsilalanların fikrinin nəzərə alınmaması;<br>5. Əcnəbi təhsilalanlar üçün yataqxana şəraitinin zəif olması;<br>6. Divar yazılarında və struktur bölmələrin paylaşımlarda rusdilli və ingilisdilli tələbə kontingentinin nəzərə alınmaması;<br>7. Hazırlıq kursunda ingilis dilində tədris aparan bəzi müəllimlərin ingilis dili biliklərinin zəif olması;<br>8. Əcnəbi təhsilalanların tibb mərkəzi və ya poliklinika haqqında məlumatsız olmaları, əcnəbi təhsilalanlar üçün tibbi xidmətin pullu olması;<br>9. Əcnəbi vətəndaşların portal.edu.az veb portalına doğru yönəldilməməsi;<br>10. Əcnəbi vətəndaşların ADNSU-ya qəbulu üçün komissiyasının mövcud olmaması;<br>11. Xarici qurumlarla (ATM, elmi-tədqiqat müəssisələri və s.) imzalanmış müqavilələrin sayının az olması;<br>12. Akademik və inzibati heyətin mübadilə proqramlarında iştirakını təmin edən təsdiqlənmiş qaydaların olmaması;<br>13. Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin və professor-müəllim heyətinin sənədləşmə prosesinin “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun təşkil olunmaması; |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. ADNSU-da təhsil alan əcnəbi təhsilalanların sayının artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;<br>2. ADNSU-da mübadilə proqramlarında iştirakın təşviq olunması və mübadilə proqramları haqqında məlumatların əlçatanlığının təmin edilməsi;<br>3. Əcnəbi təhsilalanların Tələbə Elmi Cəmiyyətinə və digər təşkilatlara cəlb edilməsi;<br>4. Daxili Keyfiyyət Təminatı sektoru tərəfindən aparılan sorğularda əcnəbi təhsilalanların rəylərinin nəzərə alınması;<br>5. Bütün təhsilalanlar, xüsusən də əcnəbi təhsilalanlar üçün müasir standartlara uyğun yataqxana şəraitinin yaradılması;<br>6. Universitet üzrə departamentlərdə, dekanlıqlarda, şöbələrdə və s. struktur bölmələrdə əcnəbi təhsilalanlar üçün məlumatların Azərbaycan dili ilə yanaşı rus və ingilis dillərində də paylaşılması;<br>7. Hazırlıq kursunda və yuxarı kurslarda tədris aparan professor-müəllim heyətinin ingilis dili biliklərinin təkmilləşdirilməsi;<br>8. Əcnəbi təhsilalanları universitet ərazisində yerləşən tibb mərkəzi və ya poliklinika ilə daha yaxından tanış etməklə, əcnəbi təhsilalanlara ödənişsiz tibbi xidmətin göstərilməsi;<br>9. ADNSU rəsmi saytında əcnəbi təhsilalanların qəbulu üçün portal.edu.az haqqında məlumatların dəqiq əks olunması;<br>10. Əcnəbi təhsilalanların ADNSU-ya qəbulu üçün xüsusi komissiyanın yaradılması və komissiyanın tərkibinə maraqlı tərəflərin daxil edilməsi;<br>11. Təhsilalanlara və professor-müəllim heyətinə daha geniş imkanlar təqdim etmək üçün xarici qurumlarla imzalanan müqavilələrin sayının artırılması;<br>12. Mübadilə proqramlarında akademik və inzibati heyətin iştirakının şəffaf və obyektiv iştirakının təmin edilməsi üçün qaydaların təsdiq olunması və həmin qaydaların icrasına nəzarət mexanizminin yaradılması; |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, komissiyanın tövsiyəsi olmaqla) Akkreditasiya Komissiyası tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 3; Keyfiyyət təminatı istiqaməti üzrə 9; Təlim və tədris istiqaməti üzrə 15; Elmi tədqiqat istiqaməti üzrə 8; İdarəetmə istiqaməti üzrə 14 ; İnfrastruktur istiqaməti üzrə 6; Beynəlmiləlləşmə istiqaməti üzrə 13 tövsiyə olmaqla, ümumilikdə 68 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin ADNSU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, ADNSU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 2024/2025-ci tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.